# VƏTƏNDAŞLIQ

## MÜƏLLİM KİTABI

## I HİSSƏ

**Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən 2022-ci ildə qrif verilmişdir.**

**Nino Kapanadze, Nino Talaxadze**

**CEED nəşriyyatı**

Vətəndaşlıq 10, I hissə
Onuncu sinif şagirdləri üçün müəllim kitabı
Tbilisi, 2022

Müəlliflər: Nino Kapanadze, Nino Talaxadze

Redaktor: Teona Bekişvili
Dizayner: ia Maxatadze
Texniki dizayner: Sofo Tarğaşvili

© CEED nəşriyyatı, 2022
Bütün hüquqlar qorunur
"CEED nəşriyyatı MMC"
Telefon: 599623610
İnternet səhifə: www.ceed.ge
El.poçt: info@ceed.ge
ceedgeorgia@yahoo.com
https://www.facebook.com/gamomcemloba sidi

Citizenship 10
Student's Book
© Ceed Publishing, 2022
all rights reserved.
Tbilisi, Georgia, 2022

ISBN 978-9941-8-5259-6

**MÜNDƏRİCAT**

Dərsliyin konsepsiyası ........................................................................................................ 5
Üçüncü nəsil Milli Tədris Planı ( fənn standartı – Vətəndaşlıq fənni) .................................................... 7
Məlumat kitabçası, Vətəndaşlıq fənni ........................................................................................... 11
Mövzu 1. Qlobal vətəndaşlıq .................................................................................................... 32
Əlavələr........................................................................................................................... 89

**Dərsliyin konsepsiyası**

Bu kitab onuncu sinif üzrə Vətəndaşlıq fənninin şagird dərsliyinin birinci hissəsi ilə cüt resursu təqdim edir, onun məqsədi müəllimə təlim-tədris prosesinin effektiv təşkilində yardım etməkdir.

Hər iki kitab məzmunca və metodiki cəhətdən orta pillənin Milli Tədris Planına, fənn standartının tələblərinə uyğundur.

“Qlobal vətəndaşlıq” mövzusu üzrə Şagird kitabı kontekstdə qurulmuş uzunmüddətli məqsədlərə/hədəf anlayışlarına yönəlmiş aralıq məqsədlərini kompleks tapşırıqların şəklində və müvafiq fəallıqları təklif edir.

Şagird kitabında bu mövzuda seçilən məsələlər 18 paraqrafda təqdim olunur, bu paraqraflar 5 fəsildə birləşmişlər.

Hər paraqraf həyat vəziyyəti/vəziyyətləri ilə, b.a. keyslərlə və bunların müzakirələri ilə başlayır. Ardınca şagirdin analoji vəziyyətləri yada salması/analizi, diskussiyalar, qrupda və fərdi iş gəlir, bunlar da həm fənn məqsədlərinə, eləcə də makro anlayışlara, metakoqnitiv və funksional bacarıqların inkişafına yönəlmişdir.

Nəzəri məlumat orta, müxtəlif vizual vasitələrlə: fotolarla, sxemlərlə, diaqramlarla, infoqrafika ilə təqdim edilir və bu da qavranışı asanlaşdırır. Şagirdin müstəqil çıxartdığı nəticələr, ümumiləşdirmə və təklif edilən məlumat məsələni başa düşməkdə və biliklərin bütövləşdirilməsi prosesində ona dəstək verir.

Şagird kitabında onlara səmtləşməkdə yardım edən rubrikalar verilir. Təqdim edilən fəallıqların tam dəsti, modelləşdirmə səhnələri, debatlar, müzkirələr dilemma təşkil edən məsələləri əhatə edir.

Buradaca qeyd edək ki, fəallıq dilemma vəziyyətinə aid olduqda, burada “dəqiq” cavablarımız olmur, “doğru” cavabların gözləntisi və ehtiyacı da yoxdur, belə bir vəziyyət şagirdin tənqidi təfəkkürü və sübutun, fərqli mövqelər üzrə düşüncə təfəkkürlərinin inkişafı üçün çox yaxşı bir meydançadır.

Ənənəvi olaraq, hər növ dərs vahidi **kompleks tapşırıqlarla** başlayır, bu da şagirdə və müəllimə seçim etmək imkanını verir. Kompleks tapşırığın qiymətləndirilməsi qiymətləndirmə meyarlarına uyğundursa, bu halda şagirdlərə seçim imkanını verin, fərqli kontekstə görə kompleks tapşırıqların fərqli fəallıqları olduğunda yaxşı olardı ki, seçimi müəllim etsin.

“Müəllim kitabına” qayıdaq. Dərsliyi izləsək, Müəllim kitabında verilən tematik matrisdə 4 hədəf anlayışına yönəlmiş 8 kompleks tapşırığıdır. Fəallıqlar əsasən analoji olduğunda, bunlardan hər birinin matrisi ayrılıqda yazılmışdır. **Tematik matrisdə hədəf anlayışlarına, Altanlayışlar:a, Altməsələlərə** uyğun tərtib edilmiş **kompleks** tapşırığında uyğun addımlar və bu addımların uyğun resursları öz fəallıqları ilə, tapşırıqlara uyğunlaşdırmaqla və istiqamətverici suallarla yazılmışdır.

Suallar blokunun sonunda prosedur biliyinə yönlənmiş tündləşdirilmiş suallara təsadüf edirik və bunlar da şagirdi alınan məlumatdan və nəticələrdən konkret addımda və yerinə yetirilən tapşırıqda istifadə etməyə düşündürür. Tematik matrisdə bütün komponentlər əyani düzəlir və müəllim üçün prosesin təşkilini asanlaşdırır. Bəzi fəallıqları kiçik tövsiyələr müşayiət edir, bunlar da məsələni dəqiqləşdirir və ya alternativ fəallığı təklif edirik.

Əlbəttə ki, siz prosesin əsas “rejissor”-unuz və sizin şərhləriniz bu resurs üçün yeni həyat verir.

Kitab başqa fəallıqlardan istifadə etmək imkanını verir. Çoxlu informasiya resursu var, əlavə resursların elektron linkləri göstərilir ki, bunlarsız da dərs prosesini təsəvvür etmək mümkün deyil.

İnternetə əlçatma məhdud olanda da, əlavələrdə tapşırıq materiallarının kiçik təsvirlərinə rast gəlmək olar və materialın mahiyyətini anlamaqda bunu şagirdlə paylaşa bilərsiniz.

Matris fəslində kompleks tapşırıqların bir növ kataloqu verilir və bu da müəllimə seçim etmək üçün məlumat verir. Birinci və 7-ci tapşırıq üçün buklet və dəvətnamə nümunəsini hazırlamışıq. O, tapşırığın yerinə yetirilməsinə qədər şagirdlər üçün əlçatan olmalı deyil. Siz prezentasiyalardan sonra, şagirdlərdən əks əlaqə aldıqdan və öz işlərini "başqa şagirdin məktubu ilə" müqayisə etdikdən sonra istifadə edə bilərsiniz.

Hədəf anlayışlarına əsasən, kompleks tapşırığı üçün tematik matrisin sonunda Milli Tədris Planının nəticələrinin **taksonomiyası** əsasında hazırlanmış **inkişafetdirici qiymətləndirmə va**sitəsi verilir. Müəllim bu vasitədən istifadə edərək Milli Tədris Planının nəticələrinə, taksonomiya səviyyələrinə əsasən yaradılmış indikatorlarla şagirdlərin təlim, təfəkkür prosesini təsvir etməli və onu **taksonomiya səviyyəsinə uyğunlaşdırmalıdır**. Bu uyğunluqdan irəli gələrək, vasitə sizə yardım edəcəkdir ki, şagirdə **inkişafetdirici şərhdə** dəqiq və konkret məsləhət verəsiniz ki, əldə edilən səviyyədən növbəti səviyyəni əldə etmək üçün hansı addımlar atsın. Matrisin sağ sütununda yerləşdirilmiş kompleks tapşırığın sonunda əlavə göstərilir, bu da müvafiq qiymətləndirmə vasitəsindən ibarətdir.

Kitabın sonunda verilən Əlavə 1, səh. 89 izləyə bilərsiniz, - diaqnostik sualları təklif edir və şagirdin prezentasiyasında və özünüqiymətləndirməsində yardım edir, müəllimə isə qiymətləndirmədə. **Ümumiləşdirici tapşırığa** gəldikdə isə bu funksiyanı hər hansı bir tapşırığa verə bilərsiniz, rubrikanın hazırlanması üçün və ümumiyyətlə, qiymətləndirmə məsələlərinin dəqiqləşdirilməsi üçün Məlumat kitabçası səh.19-dən haşiyəni izləyə bilərsiniz.

**Salam, əziz müəllim!**

Onuncu sinfin “Vətəndaşlıq” fənninin Şagird dərsliyinin birinci hissəsinə uyğun “Müəllim kitabı” ümumi təhsil islahatının çərçivəsində cari proseslərdə sizin dəstəyinizlə yaradılmışdır.

Üçüncü nəslin Milli Tədris Planına əsasən, orta pillənin onuncu sinfinin birinci semestrində bir mövzu təklif edilir – qlobal vətəndaşlıq. Müəllimin kitabı da bu mövzuya həsr edilir.

Mənimlə razılaşarsınız ki, inkişaf edən qloballaşma şərtlərində şagirdlərə bu prosesi müşayiət edən imkanları və riskləri dərk etdirmək lazımdır.

Siz, müəllimlər, sinif otağında konkret kompleks tapşırıqlardan, konkret fəallıqlardan, dilemma vəziyyətlərindən istifadə edərək, şagirdə uzunmüddətli məqsədləri, mövzu və məsələləri aşılatmalı və eyni zamanda, XXI əsrin bacarıqlarını inkişaf etdirməlisiniz.

**Qlobal vətəndaşlıq üçün** təhsil beynəlxalq cəmiyyətin təhsil sistemi üçün dövlət sifarişidir. Bu, asan deyil, amma bu işdə tək deyilsiniz. Qarşınızdakı “Müəllim kitabı” Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən hazırlanmış bir çox köməkçi resursla birlikdə sizə yardım üçün yaradılmışdır.

Məhz bu dərsliyi seçdiyiniz üçün təşəkkür edirik!

**Uğurlar arzulayırıq!**

**Üçüncü nəslin Milli Tədris Planı (Fənn standartı – Vətəndaşlıq fənni)**

həftədə 2 saat öyrənilir, ildə 72 saat

**İctimai elmlər orta pillə**

**c) Vətəndaşlıq**

**Giriş**

Kurs orta pillənin şagirdləri üçün nəzərdə tutulmuşdur. Kurs çərçivəsində baza pilləsində vətəndaşlıq üzrə əldə edilən bilik genişlənir və dərinləşdirilir.

Standartda nəticələrin və hədəf anlayışları şəklində uzunmüddətli məqsədlər müəyyənləşdirilmişdir.

Məzmun mövzuların (yarımmövzuların), məsələlərin və yarımanlayışlar şəklində təsvir olunur. Milli Tədris Planı icbari mövzuları müəyyənləşdirir. Mövzulara uyğun məsələləri isə məktəblərin özləri seçirlər.

Hər bir mövzunu nəticələrin əldə etmə indikatorları müşayiət edirlər. Onlar təlim-tədris prosesinin nə ilə qiymətləndirilməsini müəyyən edirlər. İndikatorlar hədəf anlayışlarına əsasən qruplaşdırılıb.

**Pillənin nəticələri**

Orta pillədə standartda yazılmış nəticənin əvvəlində indeks gəlir. O, fənni, tədris mərhələsini və standart nəticəsinin nömrəsini göstərir; Məs., **Vət. ort.seç.1**:

"**Vət**." – "Vətəndaşlıq" fənnini göstərir;

"**ort**." – orta pillə deməkdir;

"**1**" – standartın nəticəsinin nömrəsini bildirir.

| Vətəndaşlıq standartının nəticələri orta pillədə | | |
|---|---|---|
| **Nəticələrin indikatorları** | | **Hədəf anlayışı** |
| | **Şagird bacarmalıdır:** | |
| **Vət.ort.1** | Qərarları qəbul etdikdə və müvafiq hərəkəti yerinə yetirdikdə, hüquqi sənədləri (o cümlədən, Gürcüstan Konstitusiyası, İnsan Hüquqlarının Ümumi Bəyannaməsi, Uşaq Hüquqları Konvensiyası) nəzərə almağı; | **Cəmiyyət** (şəxsiyyət, fərd, sosiallaşma) (Vət.ort.1,2,4)<br><br>**Demokratiya** (*insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri*) (Vət.ort. 1,2,3,4)<br><br>**Vətəndaş məşğulluğu** (Vət.ort. 2,4)<br><br>**Dayanıqlı inkişaf** (vət. ort.3) |
| **Vət.ort.2** | Cəmiyyət üçün aktual qlobal və yerli sosial-siyasi problemləri tanımağı və demokratiya prinsiplərini nəzərə almaqla özünü cəlb etməklə onların düzəlişinə qayğı göstərməyi; | |
| **Vət.ort.3** | Dayanıqlı inkişaf prinsiplərini anlayaraq hərəkət etməyi (o cümlədən gündəlik və fövqəladə (təbii və texnogen səbəblərdən irəli gələn) vəziyyətdə təhlükəsizlik qaydalarına əməl etməklə hərəkət etməyi); | |
| **Vət.ort.4** | Müxtəlif maraq qrupları və dövlət qurumları ilə əməkdaşlıqla cəmiyyətdə pozitiv dəyişikliklərə yönəlmiş ideyaları lobbiləşdirməyi və advokatlaşdırmağı. | |

**İcbari mövzular:**

| | |
|---|---|
| **X sinif** | |
| 1. | Qlobal vətəndaşlıq |
| 2. | Hüquqi mədəniyyət |
| **XI sinif** | |
| 3. | Sahibkarlıq və biznes |
| 4. | Siyasət və siyasi mədəniyyət |
| **XII sinif** | |
| 5. | Gürcüstan və qloballaşma |
| 6. | Qlobal iqtisadiyyat və Gürcüstan |

Tövsiyə edilir ki, təlim-tədris prosesində məktəblər mövzuların yuxarıda təklif edilən ardıcıllığına əməl etsinlər.

**İcbari mövzuları və qiymətləndirmə indikatorlarını birləşdirən cədvəllər**: hər bir cədvəldə mövzunun adı, onun təsviri və qiymətləndirmə indikatorları verilir və bunlarda da konkret mövzuda nəticələrin necə gerçəkləşdiyi göstərilir.

**X sinif**

| |
|---|
| **Mövzu 1. Qlobal vətəndaşlıq**<br>Mövzu vətəndaşlığın mahiyyətinin diaxron kəsikdə - antik dövrdən müasir qlobal vətəndaşın konsepsiyasına qədər, vətəndaş hüquqlarının inkişafının ardınca öyrənilməsi-dərk edilməsini nəzərdə tutur. Diqqət Gürcüstanda vətəndaşlığın verilməsi imkanlarına, qlobal vətəndaşın formalaşması prosesində demokratik mədəniyyət və rəqəmsal bilgilərin əhəmiyyətinə yönəldilir. İnsanın dünyagörüşü və şəxsi inkişafına təsir göstərən amillər (identiklik, öz-özünə refleksiya, empatiya, assertivlik, emosiyaların və münaqişələrin idarəetməsi, kütlələrin psixologiyası). Mövzu demokratik cəmiyyətin inkişafına mane olan şərt kimi, dezinformasiya və saxta xəbərin və bununla bağlı əks-strategiyaların əhəmiyyətinin dərk edilməsini əhatə edir. Cəmiyyətdə və siyasətdə sosial medianın təsiri vurğulanır. |
| **Mövzu çərçivəsində hədəf anlayışlarına əsasən nəticələrin əldə edilməsi indikatorları:**<br>**Cəmiyyət –** şagird bacarmalıdır:<br>• İnsanın şəxsi inkişafı və qlobal vətəndaş kimi formalaşması üçün əsas amillərin (identiklik, öz-özünə refleksiya, özünüidarəetmə, sosial məlumatlandırma, əlaqə qabiliyyəti, qərarların qəbul edilməsində üzərinə məsuliyyətin götürülməsi, empatiya, assertivlik, münaqişələrin qeyri-zorakı metodlarla idarəetməsi, media savadlılıq və rəqəmsal bilgilər) analiz edilməsi;<br><br>**Demokratiya** – şagird bacarmalıdır:<br>• İnsanın sosial bacarıqları və qlobal vətəndaşlığın mühüm xüsusiyyətlərini demokratiya prinsipləri ilə (bərabərlik, qanunun aliliyi, şəffaflıq, məsuliyyət, inklüzivlik, qeyri-zorakı metodların tətbiqi, tolerantlıq) əlaqələndirməyi;<br><br>**Vətəndaş məşğulluğu** – şagird bacarmalıdır:<br>• Qlobal vətəndaşın nöqteyi-nəzərindən aktual problemləri ayırmağı və onların həlli yollarını seçməyi (o cümlədən müxtəlif maraqlar qrupları ilə və dövlət qurumları ilə əməkdaşlıq yollarının qarşıya qoyulması, münaqişələrin dinc yolla həlli, dezinformasiyanın tanınması və üzə çıxarılması);<br>**Dayanıqlı inkişaf -** şagird bacarmalıdır:<br>• Qlobal vətəndaşlığın mühüm xüsusiyyətlərinin dayanıqlı inkişaf prinsipləri ilə əlaqələndirilməsi. |

**Məlumat kitabçası**

**Fənn – Vətəndaşlıq**

*Üçüncü nəslin Milli Tədris Planına əsasən*

*Gürcüstan Təhsil və Elm Nazirliyinin məktəbəqədər və ümumi təhsilin inkişafı departamenti*

**2022-ci il**

### ❖ *Milli Tədris Planında uzunmüddətli məqsədlər hansı forma ilə formalaşdırılmışdır?*

**Milli Tədris Planında uzunmüddətli məqsədlər** fənnin hədəf anlayışları və pillə nəticələri şəkilndə formalaşdırılmışdır.

**Pillənin nəticəsi** – pillənin nəticələri ümumi oriyentirlərdir, bunlar da məktəb cəmiyyəti üçün fənnin tədris məqsədlərini müəyyənləşdirirlər. Suala cavab verirlər: pillənin/yarımpillənin (konkret dərs ilinin deyil) sonunda şagird nəyi bacarmalıdır? Hər bir məktəb bunlara istinad edərək məktəbin kurrikulumunu/məktəbin dərs planını yaratmalı və burada göstərməlidir ki, məktəbin ehtiyaclarını və imkanlarını nəzərə almaqla pillənin nəticələri necə əldə edilir[1].

Fənnin hədəf anlayışları - Milli Tədris Planının hər bir nəticəsi mövzunun hədəf anlayışı ilə əlaqələndirilir. Milli Tədris Planında bütün fənlər üçün bir neçə hədəf anlayışı müəyyən edilir. Onların pillə səviyyəsində mənimsənilməsi, nəticələrlə birlikdə, fənnin təlim-tədrisinin uzunmüddətli məqsədidir. Aşağıda "Vətəndaşlıq" fənni üçün hədəf anlayışları sadalanmışdır. Hər bir anlayışın yanında hansı nəticələr ilə əlaqəli olduğu mötərizədə yazılıb:

---

[1] Məktəb kurrikulumu fərdi inkişaf/milli kurrikulumun nəticələri üçün məktəb şagirdlərinə fənləri, tapşırıqları, mövzuları, əsas və əlavə resursları, qiymətləndirmə vasitələrini müəyyən edən sənəddir. Məktəblərin hamısının fərqli imkanları və ehtiyacları olduğu üçün hər bir məktəbin kurrikulumu təkrarolunmazdır.

Milli Tədris Planının həyata keçirilməsi prosesində məktəb kurrikulumu əsas vasitə hesab olunur:
- Təlim-tədris keyfiyyətinin artırılması üçün;
- Məktəb ictimaiyyətinin vahid komandasının formalaşdırılması üçün;
- Məktəb mədəniyyətinin dəyişdirilməsi üçün;
- Məktəb muxtariyyətinin keyfiyyətinin artırılması üçün.

Məktəb kurrikulumunun məzmunu ilə yanaşı, bu sənəd üzərində iş prosesinin özü də vacibdir. Milli Tədris Planını tətbiq edərkən, məktəblər məktəb kurrikulumunun hazırlanması üçün Nazirlikdən resurslar və ləvazimatlar alırlar; xüsusilə də Təhsil Nazirliyi onlara tematik matris və kompleks tapşırıqların nümunələrini təklif edir. Müəllimlər bu materialı nəzərdən keçirməli və onu öz məktəb ehtiyaclarına uyğunlaşdırmalıdırlar.

**Cəmiyyət** (şəxsiyyət, fərd, cəmiyyət, sosiallaşma) (Vət.ort.1,2)
**Demokratiya** (İnsan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri) (Nəticə:1,2,3,4)
**Vətəndaş iştirakı** (Nəticə: 2,4)
**Dayanıqlı inkişaf** (Nəticə: 3)

Uzunmüddətli məqsədlər (nəticələr və hədəf anlayışları) anlayışla bağlı məqsədləri dəqiqləşdirir və daha da aydın edir: **(a) altanlayışları, (b) əsas təsəvvürləri və (c) pillənin əsas suallarını.**

a) **Altanlayışlar:** hədəf anlayışından irəli gəlir. Bunların vasitəsilə məktəb kurikulumunda konkret məsələlər və altməsələlər müəyyənləşdirilir (Cədvəl 3):

**Əsas təsəvvürlər** anlayışın həcmini əhatə edir və şagirdin bu anlayişla münasibətdə, pillənin sonunda nəyi bilməli olduğunu müəyyənləşdirir.

b) . Onların vasitəsilə şagirdin hər hansı bir mövzunun təlim-tədrisi prosesində əldə edəcəyi yekunlar göstərilir. Əsas təsəvvürlər bir-biri ilə sıx əlaqədədirlər, onların üzərində ayrı işləmək olmaz). Onlar Milli Tədris Planı səviyyəsində deyil, məktəb kurrikulumu ilə müəyyənləşdirilirlər.

c) **Pillənin əsas sualları** vasitəsilə aksent təlim-tədris prosesinin bunlara yönəltməklə aparılmalı olduğu ayrılıb.

### ❖ *Hansı halda Milli Tədris Planı nəticələri əldə edilmiş hesab edilir?*

Bu suala cavab vermək üçün bir tərəfdən beş səviyyəni özündə birləşdirən Milli Tədris planının nəticələrinə nail olmaq taksonomiyasına: prestruktur, unistruktur, multistruktur, yanaşma və abstrakt səviyyələr, digər tərəfdən isə funksional-koqnitiv bacarıqlara ( tənqidi təfəkkür, yaradıcılıq, vətəndaşlıq) əsaslanan inkişafetdirici qiymətləndirmə rubrikalarının vasitəsilə şagirdin emosional-sosial və koqnitiv inkişafı təsvir edilir.

**Milli Tədris Planının nəticələrinin taksonomiyası -** onun hər bir mərhələsi hədəf anlayışının mənimsənilmə səviyyəsini / məsələnin başa düşülmə dərəcəsini / hədəf anlayışı ilə bağlı məsələləri təmsil edir. İlk üç səviyyədə hədəf anlayışı ilə bağlı məsələlərin başa düşülmə dərəcəsi qənaətbəxş deyil. Anlayışa sahib olmaq / nəticə əldə etmək yanaşma və abstrakt səviyyələri ilə bərabər tutulur.

| |
|---|
| **Prestruktur səviyyə**<br>Şagirdin məsələ ilə bağlı müvafiq informasiyası yoxdur. |
| **Unistruktur səviyyəsi**<br>Şagirdin təhlil ediləsi məsələ ilə bağlı yalnız bir qeyri-strukturlaşdırılmış assosiasiyası/təsəvvürü var. |
| **Multistruktur səviyyəsi**<br>Şagirdin təhlil ediləsi məsələ ilə bağlı yalnız bir neçə, bir-biri ilə əlaqəsiz, sistemsiz assosiasiyası/təqdimatı var. |

| |
|---|
| **Nisbi səviyyə**<br>Şagird bacarır:<br>• Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və qarşılıqlı əlaqəli şəkildə anlayır və analiz edir;<br>• Hədəf anlayışının əsas təsəvvürlərini qarşılıqlı şəkildə analiz edir;<br>• Konkret hədəf anlayışı ilə bağlı məlumatın kontekstuallaşdırılması (fənnin başqa hədəf anlayışları ilə əlaqələndirilməsi).<br>• Yanaşma səviyyəsində məsələnin/hədəf anlayışının dərk edilməsi Milli Tədris Planı ilə müəyyən edilmiş nəticələrin əldə edilməsini bildirir. Amma şagird abstrakt səviyyə üçün müəyyən edilmiş ümumiliklərə tərəf daha uzağa gedə bilər. |
| **Abstrakt səviyyə**<br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi biliyi (təcrübəni) Milli Tədris Planının m**akro anlayışları** ilə əlaqələndirə bilir. |

Fənnüstü (makro) anlayışlar XXI əsrin səkkiz əsas kompetensiyası ilə əlaqədardır.

| **XXI əsrin əsas (Avropa Şurasının) kompetensiyaları** | **Fənnüstü (makro) anlayışlar** | **Meyar - M.T.P. Nəticələrin 5-ci səviyyəsi**<br>**Şagird bacarmalıdır** |
|---|---|---|
| **Savadlılıq**<br>**Rəqəmsal savadlılıq** | Konstrukt (əhəmiyyətin verilməsi)<br><br>Narrativ (məlumatın quraşdırılması) | • **Konstrukt** – informasiya ilə paylaşmağı, öz təcrübəsi ilə onun əhəmiyyətini yenidən aşılamağı/dərinləşdirməyi;<br>• **Narrativ** – informasiyanı quraşdırmağı/narrativə çevirməyi, öz narrativini formalaşdırmağı, hansında da materialla bağlı faktiki materialı öz məqsədlərini və auditoriyanı nəzərə almaqla əks etdirir. |
| **Multilinqval savadlılıq**<br>**Mədəni məlumatlanma və özünüifadə** | Mədəni müxtəliflik | Başqa mədəniyyətlərdən olan insanların eyni məlumatı necə qəbul etdiyini anlamağı. |
| **Kəmiyyət savadlılığı** | Model<br>Tədqiqat | Yeni vəziyyətlə bağlı qanunauyğunluqları kəşf etməyi və modelləşdirməyi; tədris materialını digər elmi biliklərlə əlaqələndirməyi. |
| **Fərdi, sosial və təlim kompetensiyası** | Strategiya | Məsələnin öyrənilməsi və ya tapşırığın yerinə yetirilməsi üçün strategiyalar seçmək. |
| **Vətəndaş səlahiyyəti** | Vətəndaş | Əldə edilmiş bilikləri onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini analiz etməyi. |
| **Sahibkarlıq** | İnnovativ layihə | Özü və ya ictimai ehtiyaclar üçün əldə edilən biliyin tətbiqi aspektlərini axtarmaq. |

Fənnüstü (makro) anlayışlar üzrə müzakirə halında bir neçə mühiti nəzərə almaq lazımdır:

- Onlar müstəqil anlayışlar şəklində heç vaxt işlənilmir.
- Onlar mövzunun hədəf anlayışları üzərində iş prosesində anlaşılır;
- Fənnüstü (makro) anlayışlar hər hansı bir mövzu və ya hədəf anlayışı ilə əlaqəli deyil. Məsələn, savadlılıqla bağlı makroanlayışlar var: **konstrukt** və **narrativ**, bunların üzərində iş bütün fənlərin hədəf anlayışları və fənn məsələləri üçün aktualdır. Eynisini digər kompetensiyalar / fənnüstü (makro) anlayışlar haqqında da demək olar. Mövzu və onunla əlaqəli hədəf anlayışı üzərində işləyərkən, şagirdin konstruksiyalar yaratması və narrativ formalaşdırması, yəni "savadlılıq" üzərində işləməsi ilə yanaşı, eyni zamanda:

  - **qanunauyğunluqları** kəşf edir, **modelləşdirməni** həyata keçirir və yeni materialı digər **elmi konstruksiyalarla** əlaqələndirir (**kəmiyyət savadlılığı**);
  - əldə edilmiş biliklərdən öz və ya ictimai ehtiyacları üçün istifadə edən aspektləri axtarır (**sahibkarlıq**);
  - məsələni öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün **strategiyalar** seçir (**şəxsi, sosial və öyrənmə kompetensiyası**);
  - əldə etdiyi biliklərin bir **vətəndaş (vətəndaşlıq**) kimi onun düşüncə və hərəkətlərinə təsiri haqqında düşünür;
  - başqa mədəniyyətlərdən olan insanların eyni məlumatı necə fərqli qavraması (**multilinqval kompetensiya**, **mədəni anlayış və özünü ifadə etmə**) haqqında düşünür.

Fənnüstü (makro) anlayışlarla bağlı ümumiləşdirmələr, şübhəsiz ki, tək bir kompleks tapşırıq və ya bir tədris ili ərzində əldə edilmir. Müəllim və şagird dərs ili ərzində onların üzərində işləyirlər.

Fənnin hədəf və fənnüstü (makro) anlayışları üzrə iş ümumi təhsilin milli məqsədləri və beynəlxalq sənədlərlə müəyyən edilmiş (ilk növbədə, Avropa Şurasının əsas kompetensiyaları ilə müəyyən edilmiş tələblərin gerçəkləşdirilməsinə[2]) əsas məsələlərin çatdırılmasına dəstək verir.

Hədəf anlayışları üzrə iş prosesində, bir tərəfdən, fənnüstü (makro) anlayışlara yönəlmə, digər tərəfdən isə ikinci fəsildə formalaşmış metodoloji tələbatları nəzərə almaq lazımdır. Başqa şəkildə desək, üçüncü nəslin Milli Tədris Planına əsasən, uzunmüddətli məqsədlər üzərində bir tərəfdən funksional-komponent bacarıqları (tənqidi təfəkkür, yaradıcılıq, əməkdaşlıq, kommunikasiya və s.) və metakoqnisiyaya diqqətin yönəldilməsini, digər tərəfdən isə hədəf anlayışları ilə bağlı konkret dərs məzmunlarının/fənn məsələlərinin işlənilməsini nəzərdə tutur.

Milli Tədris Planında məzmunlar icbari fənlərə əsasən verilmişdir (ibtidai pillədə 11 icbari 11 fənn tədris olunur; baza pilləsində - 13). Fənnin hədəf anlayışları və pillənin nəticələri məhz onlara əsaslanaraq formalaşır. Beynəlxalq və müəllif məktəblərinin hüquqları var ki, fənnin hədəf anlayışlarını nəzərə almasınlar və dərs prosesini yalnız fənnüstü (makro) anlayışlara yönəltməklə planlaşdırsınlar.

Belə bir halda, onların özləri konkret məktəbin kurrikulumunun nəzərdə tutduğu nəticələri və hədəf anlayışlarını ayırırlar.

---

[2] Gürcüstanın Milli Tədris Planı növbəti yerli və beynəlxalq sənədlərə əsaslanır:

- **Ümumi təhsilin milli məqsədləri** – təsvir edir ki, məktəb necə bir vətəndaş yetişdirməlidir;
- **Dayanıqlı inkişaf məqsədləri** – təhsil sistemlərinə cavab verən prinsipləri formalaşdırır;
- **21-ci əsrin əsas kompetensiyaları** - müasir dünyada insanın özünü gerçəkləşdirməsi üçün ehtiyac duyduğu səlahiyyətləri müəyyənləşdirir. Beynəlxalq sənədlərin tələbləri başqa sənədlərdə daha dəqiqləşdirilmişdir, məsələn: **demokratik kompetensiyaların çərçivəsi** - vətəndaş və sosial kompetensiyalara əsasən tələbləri dəqiqləşdirir.

Milli Tədris Planı imkan verir ki, bilavasitə fənnüstü (makro) anlayışlara yönələrək müxtəlif növdə kurrikulumlar planlaşdırılsın: ağır və çoxlu əqli pozuntuları olan şagirdlər üçün sensor kurrikulumu və təhsilin ikinci imkanı proqramı üçün kurrikulum.




❖ ***Şagirdin nəticələri necə qiymətləndirilməlidir?***

Şagirdlərin qiymətləndirilməsi təlim-tədris prosesinin uzunmüddətli məqsədlərinə yönəldilməsi ilə birbaşa bağlıdır. Tədris və qiymətləndirmə eyni medalın iki tərəfidir və iki təcrid olunmuş komponenti təqdim etmir. Şagird xüsusi təyin edilmiş sorğular və yoxlama yazılar olmadan birbaşa tədris prosesində qiymətləndirilə bilər. Onu da qeyd etmək lazımdır ki, inkişafetdirici qiymətləndirmədə qiymətləndirən şəxs həm müəllim, həm də şagird ola bilər. Məsələn, şagirdlərə imkan verilməlidir ki, öz həmyaşıdlarından əks əlaqə alsınlar və versinlər, həmçinin özünüqiymətləndirmə üçün metakoqnitiv və koqnitiv strategiyalardan fəal istifadə etsinlər.

Dərs prosesinin qiymətləndirməsində belə iştirak şagirdin müstəqil təlim bacarıqlarını inkişaf etdirəcək, ona təlim strategiyalarını mənimsəməkdə kömək edəcək, öz irəliləyişini və uğurunu düşüncəli şəkildə dəstəkləməyə imkan verəcəkdir. Qiymətləndirməyə cəlb olmanın əsas məqsədi şagirdi təlim proseslərindən xəbərdar etməkdir ki, bu da ona bu prosesləri düşünülmüş və müstəqil şəkildə idarə etməyi öyrədir.

Milli Tədris Planında iki növ qiymətləndirmə istifadə olunur: inkişafetdirici və müəyyənləşdirici.

| | Sinif qiymətləndirməsi | | Xarici qiymətləndirmələr |
|---|---|---|---|
| **İnkişafetdirici və ya müəyyənləşdirici?** | **İnkişafetdirici** | **Müəyyənləşdirici** | **Müəyyənləşdirici** |
| **Qiymətləndirmə formaları və qiymətləndiricilər** | **Müəllim:** Şifahi və ya yazılı əks əlaqə, həvəsləndirici göstəricilər, biliyi/anlayışı yoxlayan suallar, rubrikalar, kvizlər və s.<br>**Şagirdlər:** özünüqiymətləndirmə, özünü tənzimləyən təlim (metakoqnisiya və özünütənzimləmə), qarşılıqlı qiymətləndirmə | **Müəllim:** balla və ya şərhlə qiymətləndirilmiş ümumiləşdirici qiymətləndirmələr (balı güclü və zəif tərəfləri təsvir edən şərh, nöqsanları düzəltmək üçün təlimatlar müşayiət edə bilər) | **Xarici qiymətləndirici:** Vahid Milli İmtahanlar, Standartlaşdırılmış Testlər, Cambridge KET, PET, FCE; PISA, PIRLS, TIMMS |
| **Məsələlər** | Biliyin qurulması və biliyin qarşılıqlı əlaqəsi prosesini qiymətləndirmək;<br>Ötən bilikləri / təsəvvürləri təyin etmək;<br>Şagirdin öz güclü və zəif tərəflərini müəyyən etmək bacarığını qiymətləndirmək;<br>Şagirdin öz irəliləyişinə dəstək verməsi üçün düşünülmüş addımlar atmaq qabiliyyətini qiymətləndirmək;<br>Biliyin hər üç kateqoriyasının mənimsənilməsi prosesini qiymətləndirmək;<br>Bilik birləşmələrindən funksional istifadə etmək bacarığını qiymətləndirmək. | Biliklərin bir-biri ilə əlaqələndirilməsi bacarığını qiymətləndirmək;<br>Biliyin hər üç kateqoriyasının tətbiqi bacarığını qiymətləndirmək;<br><br>Bilik birləşmələrinin funksional tətbiqi bacarığını qiymətləndirmək.<br>Kurrikulumun effektivliyini, istifadə olunan təlim strategiyalarını və s. effektiv qiymətləndirmək. | Akademik il ərzində biliyin yekun qiymətləndirilməsi;<br>Universitetlərə qəbul üçün şagirdlərin seçilməsi və s. |
| **Məqsədlər** | Təlim keyfiyyətinin yaxşılaşdırılması;<br>Şagirdin tərəqqisini və inkişafını dəstəkləmək. | Fənn kurikulumunun nəticələri ilə bağlı şagirdin akademik nailiyyətlərinin səviyyəsini müəyyən etmək. | Sertifikat qiymətləndirilməsi, şagirdlərin nailiyyət səviyyəsinin qiymətləndirilməsi. |

Onu da qeyd etmək lazımdır ki, hər bir müəyyənləşdirici qiymətləndirmənin nəticələrindən, istər qiymət, istərsə də tövsiyə olsun, inkişaf məqsədləri üçün də istifadə oluna bilər.

**İnkişafetdirici qiymətləndirməni** apardıqda, müəllim inkişafetdirici qiymətləndirmənin 5 strategiyasını/amilini mütləq nəzərə almalıdır;

- Dərs prosesində yerinə yetirilən tapşırıqlar şagirdə öz biliklərini/bacarıqlarını nümayiş etdirməyə nə dərəcədə imkan verir və kompleks tapşırıq üzərində iş prosesi şagirdin funksional bacarıqlarının inkişafına nə dərəcədə kömək edir?
- Şagirdin irəliləyişinə və inkişafına dəstəyin verilməsi üçün inkişafla bağlı əks əlaqə nə dərəcədə effektiv istifadə olunur?
- Şagirdlər qarşılıqlı qiymətləndirmə strategiyalarından nə dərəcədə istifadə edirlər?
- Şagird metakoqnitiv aspektlərə nə dərəcədə diqqət yetirir?

<table>
<tr><th></th><th>Şagird hansı istiqamət üzrə</th><th>İndi şagir hansı mərhələdədir</th><th>Məqsədə necə nail olaq</th></tr>
<tr><td>Müəllim</td><td rowspan="3">İnkişafetdirici qiymətləndirmə hansı təlim məqsədləri, o cümlədən uzunmüddətli hədəf oriyentirləri ilə bağlı formalaşır?</td><td>Dərs prosesində yerinə yetirilən tapşırıqlar şagirdə öz biliklərini/bacarıqlarını nümayiş etdirməyə nə dərəcədə imkan verir və kompleks tapşırıq üzərində iş prosesi şagirdin funksional bacarıqlarının inkişafına nə dərəcədə kömək edir?</td><td>Şagirdin irəliləyişinə və inkişafına dəstəyin verilməsi üçün inkişafla bağlı əks əlaqə nə dərəcədə effektiv istifadə olunur?</td></tr>
<tr><td>Həmyaşıd</td><td colspan="2">Şagirdlər qarşılıqlı qiymətləndirmə strategiyalarından nə dərəcədə istifadə edirlər?</td></tr>
<tr><td>Şagird</td><td colspan="2">Şagird metakoqnitiv aspektlərə nə dərəcədə diqqət yetirir?</td></tr>
</table>

Müəllimin özünürefleksiyası da inkişafetdirici qiymətləndirmənin bir hissəsini təqdim edir, yəni müəllimin fəaliyyətinin şagirdin nailiyyətlərinə nə dərəcədə təsir göstərdiyinin analizi; gələcəkdə dərs prosesi planlaşdırıldıqda nələri nəzərə almaq lazımdır.

<table>
<tr><th colspan="3">İnkişafetdirici qiymətləndirmə</th></tr>
<tr><td>Hədəf oriyentiri</td><td>Metakoqnisiya</td><td>Funksional/komponent bacarıqları</td></tr>
<tr><td colspan="3">Şagirdin nailiyyətlərinin təsviri -</td></tr>
</table>

| |
|---|
| Şagirdlərə məsləhət -<br><br>Müəllimin özünürefleksiyası - |

Təlimin keyfiyyətinin yaxşılaşdırılmasına dəstəyin verilməsi üçün şagirdi onun əvvəlki nəticələrinə görə qiymətləndirən, fərdi irəliləyişini ölçən və beləliklə, şagirdə mərhələlərlə biliyi qurmağa imkan verən inkişafetdirici  qiymətləndirməyə üstünlük verilməlidir.

Şagirdin nailiyyətlərinin analizində müəllimə Milli Tədris Planının nəticələrinin əldə edilməsinin yuxarıda adı çəkilən taksonomiyası yardım edəcəkdir, bunun vasitəsilə də konkret məsələ ilə münasibətdə hədəf anlayışının dərk edilməsi səviyyəsi təsvir olunur.
**Müəyyənləşdirici qiymətləndirmə üçün** Milli Tədris Planına əsasən iki modeldən istifadə olunur.
**Model 1 –** qiymət sinif, ev və ümumiləşdirici tapşırığın komponentlərində yazılır, semestr balı isə bu üç komponentin orta hesab əsasında hesablanır.

**Model 2 –** qiymət yalnız ümumiləşdirici tapşırıqlarda yazılır. Onların sayı məktəbin dərs planının prioritetlərindən irəli gələrək müəyyənləşdirilir.

Məktəbin hüququ var ki, ayrı-ayrı siniflərdə, ayrı-ayrı fənlərdə müəyyənləşdirici qiymətləndirmənin müxtəlif modellərindən istifadə etsin.

Aşağıda təlim-tədris prosesində hansı incəliklərin qiymətləndirilməli olduğunu göstərən qiymətləndirmə rubrikası verilmişdir.

| **Ümumi meyar (ümumi)** | **Qiymətləndirmə meyarları (konkret)** | **Bal** | **Şərh** |
|---|---|---|---|
| Şagird dərs prosesində fəal iştirak edir | Şagird kompleks tapşırığın şərtlərini düzgün başa düşdü. | | |
| Şagird faktiki material haqqında biliyini nümayiş etdirir; hədəf anlayışı haqqında mülahizələri ümumiləşdirmək üçün prosedur biliklərindən istifadə edir. | Fənn məsələsi/məsələləri: | | |
| Şagird kompleks tapşırığın qiymətləndirilməsi meyarı kimi formalaşan fikirləri ümumiləşdirə bilər. | Kompleks tapşırığın qiymətləndirmə meyarı 1. | | |
| | Kompleks tapşırığın qiymətləndirmə meyarı 2. | | |

**Metakoqnisiya və funksional bacarıqlar**

Milli Tədris Planı 6 funksional bacarığı və bunlarla bağlı koqnitiv əməliyyatları nəzərdə tutur ki, bunlar olmadan hədəf anlayışlarının inkişafına xüsusi diqqət yetirilə bilməyəcəkdir. Bu bacarıqlar üzərində iş hər bir hədəf anlayışı ilə bağlı bütün fənn müəllimlərindən tələb olunur. Hər bir kompleks tapşırıq əsas sualın müəyyənləşdirilməsini əhatə edir, bunun barəsində fikir kompleks tapşırıq üzərində iş prosesinin leytmotividir. Məsələn, yuxarıda müzakirə olunan kompleks tapşırıqla bağlı əsas suallardır:

- Məktəb cəmiyyətinin üzvlərini vətəndaş təhlükəsizliyi ilə bağlı məsələlər barəsində necə düşündürüm?
- Fövqəladə vəziyyətlər zamanı özünün və ətrafdakıların təhlükəsizliyini qorumaq üçün həyati vacib tövsiyələri informasiya posterinin vasitəsilə necə göstərim?

Birinci sualda şagirdin nəyi öyrənəcəyini, ikincidə isə tapşırığı necə yerinə yetirə biləcəyini müəyyən etmək lazımdır (bəzən bu iki komponent bir sualda birləşdirilə bilər). İkinci suala diqqət yetirməklə, təlim-tədris prosesinə funksional-komponent bacarıqları daxil edilir.

Aşağıda funksional-komponent bacarıqlarının hər biri üçün cədvəllər verilmişdir: onlar müəllimə inkişafetdirici qiymətləndirməni aparmağa kömək edəcəkdir.

| **Funksional bacarıq -** tənqidi düşüncə | **Koqnitiv əməliyyatlar / komponentlər** |
|---|---|
| **Müşahidə** | Xatırlama |
| | Tanıma |
| **Qanunauyğunluğun aşkarlanması və ümumiləşdirilməsi** | müqayisə və qarşılaşdırma (ziddiyyət) |
| | təsnifat |
| | Müvafiq və qeyri-müvafiq informasiyanın eyniləşdirilməsi |
| **Qanunauyğunluqların əsasında nəticələrin formalaşması** | ilkin nəticə |
| | ehtimalın söylənilməsi |
| **Müşahidə əsasında nəticələrin qiymətləndirilməsi** | ardıcıl yoxlanış |
| | istiqamətlərin, stereotiplərin, klişelərin və təbliğatın eyniləşdirilməsi |
| | əsassız fərziyələrin eyniləşdirilməsi |
| | həddindən artıq ümumiləşdirmənin və ya az ümumiləşdirmənin tanınması |
| | nəticələrin faktlarla təsdiq edilməsi |

| **Funksional bacarıq -** yaradıcılıq | **Koqnitiv əməliyyatlar / komponentlər** |
| --- | --- |
| **Sərbəst düşüncə** | Sualların verilməsi |
| | İdeyaların toplanılması; problemin həlli yollarının adlandırılması; alternativ cavabların axtarışı və problemin həlli yollarının təklif edilməsi |
| **Təsrif (flektiv)** | Problemin müxtəlif perspektivdən görünməsi və qiymətləndirilməsi |
| | Yanaşmaların müxtəlifliyi (approach) |
| **Orijinallıq** | Unikal və yeni ideyaların yığılması |
| | Müxtəlif elementdən unikal kombinasiyaların yaradılması |
| **Diqqətin detallara cəmləşdirilməsi** | İdeyaların inkişafı və detallaşdırma hesabına zənginləşməsi |

| **Funksional bacarıq -** yaradıcılıq | **Koqnitiv əməliyyatlar / komponentlər** |
| --- | --- |
| İnformasiyanın aydın və məzmunlu şəkildə ifadə edilməsi | Məqsədəuyğunluq (məlumatlandırma, təlimatlandırma, həvəsləndirmə, inandırma) |
| | Nitq növünün seçilməsi - təsvir, nəql, müzakirə |
| | Aktiv dinləmə (əlaqənin qurulması, etimadın əldə edilməsi, dialoq aparmaq (yəni monitorinq), məqsədyönlü natamamlıq) |
| | Kontekstuallaşdırma (ünsiyyət vəziyyətinin analiz edilməsi və müvafiq ifadə vasitələrinin seçilməsi (müvafiq funksional nitq hərəkətindən istifadə) |
| | Qeyri-verbal siqnallar (bədən dili, mimika, jestikulyasiya və s.) |

| | |
|---|---|
| **Özünə inam** | Açıqlıq |
| | Xoş əhval-ruhiyyə |
| **Empatiya (başqasının gözü ilə baxmaq)** | Öz-özünə refleksiya/əks əlaqə |
| | Ünsiyyət monitorinqi |
| **Tanınma** | Bərabərlik<br>Məsuliyyət<br>Tolerantlıq (fərqliliyin qəbul edilməsi)<br>Ünsiyyətdə iştirak edən subyektə deyil, problemə istiqamətlənmə |

| **Funksional bacarıq -** əməkdaşlıq | **Koqnitiv əməliyyatlar / komponentlər** |
|---|---|
| Birgə iş | Birbaşa və texnologiyaların istifadəsi ilə ideyaların və resursların paylaşılması yolu ilə |
| Ümumi məsuliyyət | Ümumi məqsəd |
| | Nəticə ilə münasibətdə hesabatlılıq |
| Mühüm qərarlar (məzmun, proses, məhsul) | Qərarların qəbul edilməsi məqsədilə ötən biliyin istifadəsi |
| | Rolların və məsuliyyətlərin bölünməsi |
| | Məhsulun dizaynı, təbiəti və tətbiqiliyi |
| | Qarşılıqlı əlaqə (hesabatlılığın iki səviyyəsi – fərdi və qrup) |

| **Funksional bacarıq –** vətəndaşlıq | **Koqnitiv əməliyyatlar / komponentlər** |
|---|---|
| **Ali etika prinsipləri** | İnsanın dəyəri |
| | Anlaşılmamazlıqlara qarşı dözümlü münasibət |
| **Hesabatlılıq və cəmiyyətə olan birgə yaradıcılıq** | Məsuliyyət |
| | Münaqişələrin idarə edilməsi |
| | Qanunun aliliyinin qiymətləndirilməsi |
| **Mövzunun əsas məsələlərinin dərk edilməsi** | Lokal mövzu üçün aktual problemlər |
| | Ölkə üçün aktual problemlər; |
| | Dünyanın dərk edilməsi |

-

| **Funksional/komponent bacarığı –** Xarakter/iradə | **Koqnitiv əməliyyatlar / komponentlər** |
|---|---|
| **Eynilik** | Şəxsi imkanların və maraqların dərk edilməsi (mən kiməm) |
| | Özünügerçəkləşdirmə üçün qərarın qəbul edilməsi (nə ilə apelyasiya edirəm) |
| **Özünütənzimləmə** | Məqsədlərin qarşıya qoyulması |
| | Planlaşdırma |
| | Öz-özünə effektivlik hissi |
| | Təlim strategiyaları |
| | Monitorinq və qiymətləndirmə |
| | Yardım üçün başqalarına müraciət |
| **Özünüaktuallaşdırma** | Bütün işlərə qarşı entuziazm |
| | Muxtariyyət |
| | Özünün pozitiv qiymətləndirilməsi |
| | İnsanlara və dünyaya qarşı xoş əhval-ruhiyyə |
| | Prosesə yönəlmə |

Funksional bacarıqlar üzərində iş təcrid olunmuş şəkildə aparılmır. Şagird hər bir kompleks tapşırıq üzərində iş prosesində bunlardan əməkdaşlıqla istifadə etməlidir. Funksional-komponent bacarıqları məsələnin dərindən başa düşülməsini təmin edir, lakin digər tərəfdən məsələnin özü onları inkişaf etdirmək vasitəsidir.
Burada əsas diqqət **metakoqnisiyaya** yönəldilməlidir. Metakoqnisiya düşüncə proseslərinin monitorinqi və idarə edilməsidir (nəzarət). Şagirdin düşüncə proseslərini uğurla idarə etməsi üçün o, həm də münasibətləri (davranışlarını) və emosiyaları idarə etməyi bacarmalıdır - bu proses özünütənzimləmə adlanır. Bunu aşağıdakı kimi vizuallaşdırmaq olar:

| | **Koqnitiv proseslər/təfəkkür** | **Məişət** | **Hisslər** |
|---|---|---|---|
| **Monitorinq** | **Metakoqnisiya** | **Özünütənzimləmə** | |
| **Nəzarət/tətbiq** | | | |

Yuxarıdakı cədvəldən göründüyü kimi, metakoqnisiya və özünütənzimləmə bir-biri ilə sıx bağlıdır, bu isə o deməkdir ki, metakoqnitiv strategiyalardan səmərəli istifadə etmək üçün şagird öz hiss və davranışlarını nəzarət etməyi və idarə etməyi bacarmalıdır. Bu birgə proses özünütənzimləmə təlimi adlanır. Bu prosesin özünü aşağıdakı kimi təsvir etmək olar:




**Metakoqnisiya** bacarıqlarını inkişaf etdirmək üçün müəllim vaxtaşırı üç növ fəallığı həyata keçirməlidir. Bu fəallıqlar bunlardır:

• **Strategiyaların modelləşdirilməsi** – müəllim tapşırığı şagirdlərlə birlikdə yerinə yetirir və bu fəallığın necə yerinə yetirilməsi barədə "ucadan fikirləşir" (məsələn, şərtlə tanışlıq və onun nə tələb etdiyini müşahidə etmək; şərtdə müşayiətedici material varmı, məs. şəkillər? Bəlkə mətni oxuyaq, əvvəl şəkillərə baxıb bu şəkillərdə hansı məlumatların olduğunu görmək daha yaxşı deyilmi? Və s.).

- • **Metakoqnitiv fasilə, yəni tapşırığı yerinə yetirməzdən əvvəl atılacaq addımlar haqqında düşünmək -** Şagirdlər tapşırığın şərti ilə tanış olduqdan sonra metakoqnitiv xarakterli belə bir fəallığı yerinə yetirməlidirlər: onlar qrupda tapşırığın yerinə yetirilməsi yolunu müəyyənləşdirməli: tapşırığın yerinə yetirmə mərhələlərini xırdalıqlarla (nəyi nədən sonra yerinə yetirməlidirlər və s.) və hər mərhələdə istifadə edəcəkləri strategiyaları təsvir etməlidirlər.
- **Növbəti metakoqnitiv fasilə, yəni tapşırığın yerinə yetirilməsindən sonra düşünmə və atılan addımlar haqqında müzakirə -** şagirdlər konkret tapşırığı yerinə yetirdikdən sonra onlar keçdikləri yolu yadda saxlamalı və təsvir etməlidirlər: nəyi nədən sonra etdilər? İş zamanı hansı üsullardan istifadə etdilər? Nədə çətinlik çəkdiniz və ya nə asan oldu? Yerinə yetirilmiş əməllərin təsviri nəticəsində şagirdlər məqsədin əldə edilməsi üçün müxtəlif yolun və üsulun mövcud olması faktını dərk edirlər, bunların üzərində da tapşırığın yerinə yetirilməsi üzərində düşünməlidirlər (optimal qərarınqəbul edillməsi üçün). Metakoqnitiv fasilə şagirdlərin təlim bacarıqlarını və əmək qabiliyyətlərini inkişaf etdirir.

Hədəf anlayışları üzərində iş prosesində **özünütənzimləmə** bacarıqlarının inkişafına qayğı göstərmək lazımdır, bunun üçün də şagird mütəmadi olaraq özünə növbəti sualları verməlidir:

***Strategiya:*** bu strategiyadan uğurla istifadə etmisinizmi? Bu strategiya niyə uğurlu oldu? Bu dəfə də bu və ya digər strategiyadan uğurla istifadə edəcəyimə necə əmin ola bilərəm?

***Kompleks tapşırıq zamanı:*** tapşırığı necə həll edirik? Ümumiyyətlə, mən belə tapşırıqlarda hansı səhvlərə yol verirəm? Bu səhvlərin qarşısını necə ala bilərəm? Bu kompleks tapşırıqda ən çox nədə çətinlik çəkirəm? Ən çətini nədir? Niyə? Nə yaxşı işləyir və niyə?
***Motivasiya:*** kompleks tapşırığı yerinə yetirərkən özümü necə hiss edirəm? Yüksək keyfiyyətli tapşırığı yerinə yetirmək üçün motivasiyam varmı? İndi motivasiyamı artırmaq üçün nə edə bilərəm? Tapşırıqdan sonra: Mən kompleks tapşırıqlar üçün necə daha çox motivasiyalı ola bilərəm?

**Özünütənzimləmə təlimi üçün** şagird aşağıdakı suallar üzərində düşünməlidir:

- Bu gün / bu həftə / bu semestrdə nə öyrəndim?
- Yeni bir şey öyrəndiyimi biləndə özümü necə hiss edirəm?
- Müəyyən bir mövzunu öyrənmək mənə nə qədər vaxt apardı? Əvvəlcə düşündüyümdən daha çox şeyə ehtiyacım var idi?
- Təlim və yadda saxlamaq arasında fərq nədir?
- Faktları daha yaxşı yadda saxlamaq üçün hansı strategiyalardan istifadə edə bilərəm?

## Mövzu 1. Qlobal vətəndaşlıq

| | |
|---|---|
| **Mövzu:** Qlobal vətəndaşlıq | Saatların təxmini sayı – 36 |
| **Mövzu ilə bağlı əsas təsəvvürlər:** | |
| **Cəmiyyət** | • İnsanın şəxsi inkişafına həm yerli, eləcə də qlobal mühit təsir edir;<br>• Qlobal vətəndaşlıq öz hüquqlarını və məsuliyyətlərini təkcə yerli səviyyədə deyil (qonşu icma, ölkə), eləcə də bütün dünya miqyasında dərk etməyi nəzərdə tutur; |
| **Demokratiya** | • Yerli və qlobal səviyyədə demokratiya prinsiplərinin müdafiəsi insanın şəxsi inkişafına dəstək verir;<br>• Vətəndaşlıq konsepsiyası tarixi dövrləri nəzərə almaqla dəyişirdi; müasir mərhələdə demokratiya prinsipləri qlobal vətəndaşlığın və beynəlxalq əlaqələrin əsasını təşkil edir. |
| **Vətəndaş məşğulluğu** | • Qlobal səviyyədə insan hüquqları və azadlıqlarının müdafiəsinə beynəlxalq sənədlər, qurumlar və müasir beynəlxalq əlaqələr sistemi dəstək verir; bunların vasitəsilə insanın müxtəlif hüquqları ilə bağlı məsələlərin lobbiləşdirilməsi və advokatlaşdırılması; |
| **Dayanıqlı inkişaf** | • Dayanıqlı inkişaf prinsipləri qlobal vətəndaşlığın əsasıdır;<br>• Yerli hərəkətlər qlobal nəticələrə səbəb olur. |

**Mövzu ilə bağlı əsas suallar:**

- Nə üçün insana qlobal vətəndaşlıq üçün öz hüquqlarını və azadlıqlarını təkcə yerli səviyyədə (qonşu icma, ölkə) deyil, eləcə də bütün dünya miqyasında dərk etmək lazımdır? (**Hədəf anlayışı – cəmiyyət, demokratiya);**
- Demokratiya prinsiplərinə əməl edilməsi yerli və qlobal səviyyədə insanın şəxsi inkişafına necə dəstək verir? (**Hədəf anlayışı – cəmiyyət, demokratiya);**
- Tarixi dövrləri nəzərə almaqla vətəndaşlıq konsepsiyası necə dəyişirdi? Nə üçün müasir mərhələdə demokratiya prinsipləri qlobal vətəndaşlığın və beynəlxalq əlaqələrin əsasını təşkil edir? (**demokratiya**);
- Beynəlxalq sənədlər, qurumlar, müasir beynəlxalq əlaqələr sistemi hüquqlarla bağlı məsələlərin qlobal səviyyədə lobbiləşdirilməsini və advokatlaşdırılması imkanını necə təmin edir? (**Hədəf anlayışı – demokratiya, vətəndaş məşğulluğu**);
- Nə üçün dayanıqlı inkişaf prinsipləri qlobal vətəndaşlığın əsasını təqdim edir? (**dayanıqlı inkişaf**)

| Kompleks tapşırıqlar | Hədəf anlayışları və Altanlayışlar: | Məsələlər/altməsələlər | Əsas suallar |
|---|---|---|---|
| 1. **İnformasiya bukletinin/slayd-şounun** hazırlanması - vətəndaşlıq konsepsiyasının inkişafının müxtəlif mərhələsində vətəndaşlığın qəbulunun, hüquqların, o cümlədən qadınların və kişilərin bərabərlik imkanları üzrə; | **Demokratiya**<br><br>İnsan hüquqları<br>Demokratiya prinsipləri | İnsanın və vətəndaşın hüquqları;<br><br>**Altməsələ**:<br>Gender bərabərliyi | • Bukletdə/slaydşouda vətəndaşlığın konsepsiyasının dəyişikliklərini (o cümlədən qadınların hüquqi vəziyyətini) tarixi dövrlərə əsasən necə əks etdirim?<br>• Oxucuya/dinləyiciyə demokratik dövlətdə gender bərabərliyinin müdafiəsinin əhəmiyyətini necə izah edim? |
| 2. **Qəzet məqaləsinin hazırlanması** hüquqlar və demokratiya prinsipləri nöqteyi-nəzərindən Gürcüstanda fəaliyyətdə olan gender stereotiplərinə və müvafiq pozuntulara dair | **Demokratiya**<br><br>İnsan hüquqları<br>Demokratiya prinsipləri | İnsanın və vətəndaşın hüquqları;<br><br>**Altməsələ:**<br>Gender bərabərliyi | • Qəzet məqaləsində Gürcüstanda mövcud gender stereotiplərini və onların insan hüquqları və demokratiya prinsiplərinin müdafiəsinə təsirini necə əks etdirim? |
| 3. Dəyərlər, məqsədlər, seçilmiş qlobal problemlərə qayğı göstərilməsi və vətəndaş iştirakı formaları üzrə təşkilatın missiya mətninin hazırlanması | **Vətəndaş iştirakı**<br><br>Könüllülük | **Qloballaşma**<br><br>**Altməsələlər:**<br>Beynəlxalq təşkilat – "Dünya vətəndaşı" | **Missiyanın mətnində** beynəlxalq təşkilatın məqsədini və bu məqsədin əldə edilməsi üçün vətəndaş iştirakının seçilmiş formasının, strategiyalarının və fəallıqlarının məqsədyönümlülüyünü necə əks etdirim? |
| 4. Qlobal vətəndaşın "**Könüllünün gündəliyinin**" hazırlanması, cəmiyyətin ehtiyacına uyğunlaşdırılmış könüllü fəallıq haqqında | **Vətəndaş iştirak**<br><br>Könüllülük | **Qloballaşma**<br><br>**Altməsələlər:** sərhədlər xaricində könüllülük (Daviniyanın əhvalatı) | "**Könüllünün gündəliyində**" beynəlxalq cəmiyyətin ehtiyaclarına və maraqlarına uyğunlaşdırılmış könüllülük fəallığının təsvirini, dəstəkçilərin toplantı formalarını necə göstərim? |

| | | | |
|---|---|---|---|
| 5. **Qəzet məqaləsinin** hazırlanması, dayanıqlı inkişafın seçilmiş komponenti (insan, planet, firavanlıq), başqa komponentə yanaşması və həmyaşıdları üçün müvafiq məsləhətlər haqqında | **Dayanıqlı inkişaf**<br><br>Dayanıqlı inkişafın qlobal məqsədləri | **Dayanıqlı inkişaf**<br><br>**Altməsələ:** Dayanıqlı inkişafın komponentləri (insan, planet, firavanlıq), | Qəzet məqaləsində dayanıqlı inkişafın seçilmiş komponentin əhəmiyyətini, başqa komponentlərə yanaşmasını və oxucu üçün konkret məsləhətləri necə göstərim? |
| 6. **Dəvətnamə məktubunun** hazırlanması və bu da adresatlara beynəlxalq tədbirə aidiyyat hissini yaradır və elə bir qaydaları təklif edir ki, bunlar da müxtəlif cəmiyyətdə ahəngdar əlaqələri təmin edir. | **Cəmiyyət**<br><br>İnsanın tələbləri və ehtiyacları; Sosial-emosional vərdiş-bacarıqlar; | **Sosial-emosional bacarıqlar**<br><br>**Altməsələ:** Aidiyyat hissi | • Adresatlarda/dinləyicilərdə beynəlxalq tədbirlərə aidiyyatı və aztəminatlı qruplara empatiya hissini yaradan/bərkidən dəvətnamə məktubunu necə tərtib edim?<br>• Məktubda lazımi sosial-emosional bacarıqların nəzərə alınması ilə tərtib edilən qaydaları necə əks etdirim ki, bunlar da müxtəlif cəmiyyətdə harmonik əlaqələri təmin edir? |
| **7. Reportajın hazırlanması** sülh planetindən, bunda da silahlı münaqişələrin olmadığı və başqa münaquşələrin də erkən mərhələdə asseriv kommunikasiya və mediasiya yolu ilə həll edildiyi mühit təsvir olunacaqdır | **Cəmiyyət**<br><br>Sosial-emosional vərdiş-bacarıqlar; | **Qloballaşma və kommunikasiya**<br><br>**Altməsələ:** Münaqişənin qarşısının alınması və idarəetmə | • Reportajda pozitiv sülhün üstünlüyünü və münaqişənin effektiv idarəetmə imkanlarını necə göstərim?<br>• Medianın qeyri-aqressiv siyasəti şəxsiyyətin və cəmiyyətin inkişafı üçün niyə vacibdir? |
| 8. Mini dərsliyin hazırlanması, bunda da media savadlılıq və konkret olaraq, informasiyanın çeşidlənməsi üçün lazımi məsləhətlər və insanın şəxsi inkişafı üçün bunların əhəmiyyətinin açıqlanması. | **Cəmiyyət**<br><br>İnsanın tələbləri və ehtiyacları, ictimai qruplar - media | **Qloballaşma və kommunikasiya**<br><br>Altməsələ:<br><br>İnformasiyanın çeşidləndirilməsi | • **Mini dərslikdə** media savadlılıq və konkret olaraq, informasiyanın çeşidləndirilməsi üçün lazımi məsləhətləri necə əks etdirim və insanın şəxsi inkişafı üçün necə açıqlayım? |

**Mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları hədəf anlayışına əsasən:**

**Cəmiyyət -** şagird bacarmalıdır:

- İnsanın şəxsi inkişafı və qlobal vətəndaş kimi formalaşması üçün mühüm amillərin (identiklik, öz-özünə refleksiya, assertivlik, münaqişələrin qeyri-zorakı metodlarla idarəedilməsi, media savadlılıq və rəqəmsal bilgilər) analiz edilməsi;

**Demokratiya –** şagird bacarmalıdır:

- İnsanın sosial bacarıqlarının və qlobal vətəndaşlığın əsas xüsusiyyətlərinin demokratik prinsiplərlə (bərabərlik, qanunun aliliyi, şəffaflıq, məsuliyyət, inklüzivlik, qeyri-zorakı metodların istifadəsi, tolerantlıq) əlaqələndirilməsi;

**Vətəndaş məşğulluğu –** şagird bacarmalıdır:

- Qlobal vətəndaşın nəzərindən aktual problemlərin ayrılması və onların həlli yollarının seçilməsi (o cümlədən müxtəlif maraqlar qrupları ilə və dövlət qurumları ilə əməkdaşlıq yollarının adlandırılması, münaqişələrin sülh yolu ilə həll edilməsi, dezinformasiyanın tanınması və göstərilməsi);

**Dayanıqlı inkişaf** – şagird bacarmalıdır:

- Qlobal vətəndaşlığın mühüm xüsusiyyətlərinin dayanıqlı inkişaf prinsipləri ilə əlaqələndirilməsi.

<table>
<tr><th colspan="2">Hədəf anlayışı: Demokratiya</th><th colspan="2">Tapşırıqlardan birini seçin</th></tr>
<tr>
<td>Uzunmüddətli məqsəd<br><br>Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər</td>
<td>Məsələ: insanın və vətəndaşın hüquqları<br>Altməsələ: gender bərabərliyi<br>Altanlayışlar:<br>İnsan hüquqları<br>Demokratiya prinsipləri</td>
<td>Əsas sual / suallar<br>• Tarixi dövrlərin əsasında bukletdə/slayd-şouda vətəndaşlıq konsepsiyasının dəyişikliklərini necə əks etdirim (o cümlədən qadın hüquqlarının vəziyyətini)?</td>
<td>Aralıq dərs məqsədi<br><br>Kompleks tapşırığın şərti</td>
</tr>
<tr>
<td>Demokratiya (insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri)<br><br><u>Nəticələr</u>:<br>(Vət.təh. 1,2,3,4)<br><br>1. Bütün insanlar azad və bərabər doğulurlar, dəyərləri və hüquqları ilə;<br>2. İnsanın mülki-siyasi, sosial-iqtisadi və kollektiv hüquqları;</td>
<td colspan="2">Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):<br><br>I mərhələ: kompleks tapşırığın forması<br><br>Altməsələ: tapşırığın şərti<br><br>Resurs: dərslik, səh. 6-8 (tapşırığı seçin)<br>Fəallıq:<br><br>Kompleks tapşırığın şərti ilə tanışlıq, tapşırığın mətninin qavranılması və şərtinin dərk edilməsi üçün; şagirdlərin təcrübəsinə əsasən, idarə edilən təcrübənin istifadəsi də mümkündür.<br>Suallar:<br>• Tapşırıq nəyə aiddir? Onun şərti realdırmı, yoxsa məcazi?<br>• Sizcə, “vətəndaşlıq eksperti” nəyi bildirir? O, nəyi bilməlidir?<br>• Tapşırıq sizdən hansı məhsulu yaratmağı tələb edir?<br>• Bu tapşırığı yerinə yetirmək üçün hansı bilik və bacarıqlar lazım olacaqdır?</td>
<td>Tapşırıq 1.<br>Kompleks tapşırığın şərti<br><br>Təsəvvür edin ki, Gürcüstan ərazisində doğulmuş Zezva və Mzia öz tarixi dövrlərindən “zaman qatarı ilə” yola düşüb başqa tarixi dövrdə yaşamağa hazırlaşırlar. Qatarın dörd dayanacağı var:<br>1. Afina (e.ə. VII-V əsrlər);<br>2. Roma (e.ə. I əsr);<br>3. İngiltərə (XIII əsr);<br>4. Gürcüstan (2022 il).<br><br>Zezva və Mzia onların vətəndaşlığı tanınan, hüquqları isə bərabər və mühafizə olunan dayanacaqda düşmək istəyirlər. Təsəvvür edin ki, siz vətəndaşlıq üzrə ekspertsiniz və Zezva və Mziaya hansı dayanacaqda və nə üçün düşəcəklərini məsləhət görməlisiniz. Əyani vəsait üçün</td>
</tr>
</table>

| | | |
|---|---|---|
| Gürcüstan Konstitusiyası və beynəlxalq sənədlər (bəyanatlar, konvensiyalar) bu hüquqların müdafiəsini təmin edir;<br>3. Demokratik cəmiyyətdə /dövlətdə insan hüquqları əsas dəyərlərdən biridir;<br>4. Demokratiya təməli prinsiplərə əsaslanır (bərabərlik, qanunun aliliyi, şəffaflıq, hakimiyyət bölgüsü, ədalətli seçkilər, məsuliyyət, inklüzivlik, qeyri-zorakı metodlarla hərəkət, tolerantlıq), bunlar olmadan demokratik dövlət fəaliyyət göstərə bilməz. | **Resurs**:<br><br>1. Bukletin hazırlanma proqramı https://www.youtube.com/watch?v=ysS3Cq9AseI<br>2. Bukletlərin nümunələri:<br>3. Slayd şounun hazırlanması (başlayanlar üçün)<br>https://www.youtube.com/watch?v=ZnLNGQyp_OE<br><br>4. Şagirdlərin təcrübəsi (onların təcrübəsi də bizim resursumuzdur)<br><br>**Altməsələ:** buklet<br><br>**Fəallıq**:<br>Sual-cavab; yerinə yetirilmiş məhsulun – bukletin/slaydşounun haqqında;<br><br>**Suallar**:<br><br>• Buklet nədir? Hazırlamısınızmı?<br>• Hansı tərkib hissələrdən ibarətdir? (**mətn, vizual material)**<br>• Onun strukturu necədir? (**başlıq, giriş, əsas hissə - altməsələlərlə, nəticə, lazımi məsləhətlər və əlaqə məlumatı....)**<br>• Bukleti necə hazırlaya bilərik? **(material, elektron)**<br><br>**Altməsələ:** slaydşou<br><br>**Suallar**:<br>• Slaydşou nədir? Hazırlamısınızmı?<br>• Hansı tərkib hissələrdən ibarətdir? (**mətn, vizual material)**<br>• Prezentasiyanın strukturu necədir? (**salamlaşma, başlıq, giriş, məqsədlə tanışlıq, əsas hissə və cəmləşdirmə və sağollaşma)**<br>• Slaydşou üçün hansı proqramlardan istifadə edirsiniz?<br>• Prezentasiya faylı ortalama neçə slayddan ibarət olmalıdır ki, başa düşülsün? (10-12) | **buklet/slayd-şou** hazırlamalı və bunda da Zezva və Mzianın maraqlarına uyğun olan vətəndaşlığın bu mərhələsinin (dayanacağının) xüsusiyyətləri əks olunacaqdır.<br>**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərməlisiniz:**<br>• Demokratik dəyərlərin müdafiəsi insan azadlığını, bərabərliyini, ləyaqətini necə təmin edir? Zezva və Mzianın hansı "dayanacaqda " nə kimi gözləntiləri var idi? **(Əs.təs.1.4)**<br>• Vətəndaşlıq əldə etmək imkanları və vətəndaşların hüquqları necədir?<br>Bu proses hansı hüquqi sənədlərlə tənzimlənir? Bu imkanı vətəndaşlıq axtaranların (Zezva və Mzianın) vəziyyəti ilə necə əlaqələndirə bilərsiniz? **(Əs.təs.2)**<br>Tapşırıqda verilən vətəndaşlıq mərhələlərində cəmiyyət/dövlət insan hüquqlarının mühafizəsini necə təmin edir? Mühafizə vasitələri/mexanizmlər necədir? **(Əs.təs.2.3.)**<br>Kompleks tapşırığın inkişafetdirici qiymətləndirmə vasitəsini Əlavə 5., səh.99-100<br><br>Kompleks tapşırığı bukletin ehtimal nümunəsi müşayiət edir, Əlavə 2. Səh. 96<br><br>**Bu nümunə şagirdlər üçün əlçatan olmamalıdır**! Müəllim ondan kompleks tapşırıqların prezentasiyalarında əks əlaqə verən zaman istifadə edə bilər, eləcə də |

| | | |
|---|---|---|
| | **Fəallıq**: əqli hücum; lazım bildiyiniz halda praktiki tapşırıq da vermək olar (bukletin planının hazırlanması, slayd-şounun hazırlanması üzrə)<br><br>Bundan sonra **tapşırığın təqdimatı şərtləri və müddətləri üzrə razılaşırsınız**:<br><br>**Yekunlaşdırma**: şagirdlər verilən iki materialdan onlar üçün daha məqbul olanını seçə bilərlər. Onlar bukleti material və ya elektron (əlbəttə ki, sizin konkret pedaqoji məqsədiniz olmadığı halda) şəkildə təqdim etməyi qərara almalıdırlar.<br><br>**II mərhələ: kompleks tapşırığın məzmunu**<br><br>**Addım 1.** Demokratik prinsiplərin müdafiəsi insan azadlığını, bərabərliyini, ləyaqətini necə təmin edir? Zezva və Mzianın hansı "dayanacaqda " nə kimi gözləntiləri var idi? **(Əs.təs.1,4)**<br><br>**Müəllimə tövsiyə:** bu tövsiyə bütün kompleks tapşırıq üzərində iş zamanı nəzərə alınmalıdır. Kompleks tapşırığın altməsələsi vurğulanır ki, bununla da keyslər, nəzəri material üzərində işlənilir və fəallıqlar keçirilir və sonda qiymətləndirmə aparılır.<br><br>**Vəsait**: dərslik, Vətəndaş olmaq nə deməkdir? Səh.18-19 (ötən biliyin aktivləşdirilməsi)<br><br>**Müəllimə tövsiyə:** bu paraqrafın üzərində iş əsasən ötən biliyin (vətəndaşlıq mahiyyəti, demokratiya prinsipləri) aktivləşdirilməsinə xidmət edir və tapşırıqla dolayı əlaqədədir).<br><br>**Fəallıq**: qruplarda işləyin, səh. 9<br>Aşağıda görkəmli insanlar haqqında verilən məlumatları bölüşdürün, tanış olun və müzakirə edin:<br>• İnformasiyadan irəli gələrək, bu şəxsiyyət hansı vətəndaş mövqeyinin daşıyıcısı və dəstəkləyicisi idi? Konkret arqumentləri adlandırın. | inkişafetdirici qiymətləndirmədə tövsiyələri konkretləşdirmək üçün; |

- Onlardan hər biri insanın və vətəndaşın hüquqlarına və öhdəliklərinə hansı yanaşmanı göstərirdi? Əsaslandırın.
- Onların gender, sosial bərabərliklə, rəngarəngliklə münasibətdə mövqeləri necədir?
- Həyatdan, ədəbiyyatdan oxşar şəxsiyyətləri yadınıza salın; ümumi hansı əlamətləri var? Onlar gender bərabərliyi mövzusuna necə yanaşırlar?

**Fəallıq**: müzakirə edin, səh.14

Sizcə, növbəti hərəkətlər vətəndaş hərəkəti adlana bilərmi? Sxemdən istifadə edin – demokratiya prinsipləri (16) və aşağıda verilən vəziyyətləri demokratiya prinsiplərinə uyğunlaşdırın.

**Fəallıq**: cütlüklərdə işləyin, səh.16
**Fəallıq**: qruplarda işləyin, səh.16
**Fəallıq**: müzakirə edin, səh. 17

Müəllimə tövsiyə: son 4 fəallıq demokratiya prinsipləri haqqında biliyin aktivləşdirilməsinə aiddir və ola bilsin ki, hamısı yerinə yetirilməsin, amma şagirdlərin demokratiya prinsiplərini həyatla necə əlaqələndirdiklərinə əmin olmaq üçün xüsusi əhəmiyyət onların xatırladıqları vəziyyətlərə verilir və bunlar da insan azadlığına, bərabərliyə və ləyaqətə aiddir. Eləcə də bu prinsiplərin müdafiəsini dövlətin demokratiklik səviyyəsi ilə ümumiləşdirmək vacibdir.

**Fəallıq**: yekun müzakirə (dərslikdə yoxdur);

**Suallar**:
- Sizcə, demokratiya prinsiplərinin müdafiəsi vətəndaşın azadlığını, bərabərliyini və ləyaqətini necə təmin edir?
- Vətəndaşın hansı hüquqlarının müdafiə edildiyini sadalayın;
- Vətəndaşlıq onun üzərinə hansı vəzifələri qoyur?
- Aktiv vətəndaş olmaq nə deməkdir?
- Bu hüquqlar və prinsiplərin həyata keçirilmə prosesində gender stereotiplərinə görə, qadınlar və qızlar hansı baryerlərlə qarşılaşa bilərlər?

- Gürcüstan dayanacağında düşdükləri halda, Zezva və Mzianın ləyaqəti necə qorunacaqdır?

**Yekunlaşdırma**: demokratiya prinsipləri insan hüquqlarına aid həm yerli, eləcə də beynəlxalq sənədlər üçün əsası təqdim edirə Beynəlxalq sənədlər və onları müşayiət edən yerli qanunlar qadınların və qızların hüquqlarını qorusa da, bir çox hallarda stereotiplər qanundan çox təsir göstərir.  Vəziyyəti dəyişmək üçün nə etmək olar?

**Vəsait**: dərslik, Hüquqlarımı müdafiə edə bilərəm, səh. 19-27

**Fəallıq**: Cütlüklərdə işləyin, səh. 19

**Suallar**:
Aşağıda verilən "Çətin seçim" vəziyyəti ilə tanış olun və suallara cavab verin:

- Verilən vəziyyətdə hansı konkret və ictimai problem/problemlər ayrılır? Bu problemlərə işarə edən nədir? (**gender stereotipləri, qadınların və qızların hüquqlarının pozulması, əmək məcəlləsinin pozulması, ailədə zorakılıq..)**
- İnsanın, vətəndaşın hüquqları pozulurmu? Cavabınız hə olduğunda, hansı hüquqlar pozulur və arqumentləri adlandırın?
- Bu hüquqlar kim tərəfindən pozulur? Belə bir vəziyyətdə cəmiyyətin/dövlətin rolu necədir? Əsaslandırın.
- Bu problemlər demokratiyanın hansı prinsipini/prinsiplərini pozur?
- Gender stereotipləri hansı səviyyədə özlərini göstərirlər (**fərdi, ailəvi, təhsil,dövlət, qlobal səviyyədə**)?
- Gender stereotiplərinin əsasını nə hesab edirsiniz (**köhnə adət-ənənələr, məlumatlılığın aşağı səviyyəsi**)?
- Özünüzü bu vəziyyətin hər hansı bir qəhrəmanının rolunda təsəvvür edin, hissləriniz haqqında danışın və mövqeyinizi müdafiə edin.
- Sizcə, oxşar vəziyyətlərdən özünü qorumaq üçün hansı mexanizmlər mövcuddur? (**gender mövzusunda çalışan vəkillə və ya təşkilatla; idarəetmə yanında mövcud gender komissiyası (işdə deyəndə ki, onlara qadın lazım deyil) ilə məsləhətləşmə, müvafiq qanunların araşdırılması.**...)

- Ciddi dilemma qarşısında duran Məryəmə hansı məsləhəti verərdiniz?
- Vəziyyətin sizinsayağı davamını fikirləşin.

- **Tapşırıq materialınızda alınan informasiyadan və nəticələrdən necə istifadə edərsiniz ki, Zezva və Mziaya Gürcüstanda gender bərabərliyinin real şəklini göstərəsiniz?**

**Müəllimə tövsiyə**: bu vəziyyətdə müzakirə ilə tapşırığın altməsələsi üzərində konkret işə başlayırsınız. Şagirdi köməkçi sualların vasitəsilə nəticəyə gətirirsiniz ki, Gürcüstanda gender bərabərliyi hüquqi normalarla müdafiə olunsa da, cəmiyyətdə hələ də gender stereotipləri qalmışdır və bu da bir çox hallarda, hüquqi normalara əməl edilməsi nöqteyi-nəzərindən problem yaradır. Buna görə də cəmiyyəti məlumatlandırmaq, məlumatlandırmanı artırmaq, müsbət misalları yayımlamaq lazımdır.

**Fəallıq**: yadınıza salın, səh.21

**Fəallıq**: qruplarda işləyin, səh. 21-24
**Suallar**:
Sizcə, bu əhvalat və onun gələcəkdə cərəyanı nədən xəbər verir?

- Beynəlxalq advokatlaşdırma və ya hüquq-mühafizə təşkilatları olmasaydı, hadisələr necə cərəyan edərdi?
- Bu hadisələrdə hansı yerli və beynəlxalq təşkilatların cəlb olunduğu özünü göstərir?
- Sizcə, Strasburq məhkəməsinə müraciət nə üçün lazım olur, halbuki ölkəmiz demokratik dövlətdir və qanunvericilik oxşar məsələləri nəzərə alır?
- Oxşar qərarlar qəbul etdikdə Avropa məhkəməsinə təkan verən nədir?
- Advokatlaşdırmanı aparan təşkilata təkan verən nədir?
- Qərarın yetkinliyə gətirilməsi necə baş verir?
- Qərarın yetkinliyə çatdırılması məsələləri beynəlxalq təşkilatlar tərəfindən yoxlanılırmı?

| | | |
|---|---|---|
| | **Kompleks tapşırığı yerinə yetirdikdə, alınan informasiyadan və nəticələrdən necə istifadə edəcəksiniz?**<br><br>**Fəallıq:** modelləşdirmə, səh.26-27 (bu fəallığı yerinə yetirmək arzu olunur, amma məcburi deyil).<br>**Addım 2. Vətəndaşlığın qəbul edilməsi imkanları və vətəndaşların hüquqları necədir? Bu proses hansı hüquqi sənədlərlə tənzimlənir? Bu imkanı vətəndaşlıq axtaranların (Zezva və Mzia) vəziyyəti ilə necə əlaqələndirmək olar (Əsas təs.2)**<br><br>**Resurs:** "Vətəndaşlıq konsepsiyasının dəyişiklikləri", səh. 28-37<br><br>**Fəallıq:** qruplarda işləyin**,** səh. 31;<br><br>**Fəallıq:** müzakirə edin, səh. 36;<br>**Suallar:**<br>• Dünya və Gürcüstan tarixindən insan hüquqlarına aid abidələri yadınıza salın;<br><br>• Adı çəkilən abidələr arasında paralellər çəkin. Onların arasında oxşarlıq və fərqləri tapmağa çalışın;<br><br>• Əsas tələbi hüquqların tanınmasına və ya qorunmasına aid olan tarixi hadisələri (üsyanları, qiyamları və s.) yadınıza salın;<br><br>• İnsan hüquqlarının tanınması baxımından oxşar hadisələrin (üsyan, nümayiş, mitinq, qiyam və s.) əhəmiyyətini müzakirə edin.<br><br>**Resurs**: dərslik, Gürcüstan vətəndaşlığı, səh.38-47<br><br>Fəallıq: müzakirə edin, səh. 38;<br><br>**Suallar**:<br>• Vətəndaşlıq haqqında bu əhvalatın davamının mümkün variantlarını necə təsəvvür edirsiniz? Elenenin əhvalatını davam etdirin. | |

- Nəzərə alın ki, Yunanıstan Avropa İttifaqı ölkəsidir və burada vizasız rejimdir. Nəyi nəzərdə tutduğunu yadınıza salın?
- Eleneyə belə bir şərtlərdə ölkəyə qeyri-leqal giriş nə üçün lazım oldu?
- Elene üçün trafikinq təhlükəsi mövcuddurmu?
- Bu əhvalatdan irəli gələrək hansı nəticəni çıxara bilərik?
- Başqa, analoji vəziyyətlər yadına düşürmü? Orada hadisələr necə cərəyan edirdi?
- Trafikinq problemi yalnız bizim vətəndaşları narahat edir?
- Trafikinq hansı növ cinayətə aid edilir?

**Fəallıq**: Müzakirə edin, səh: 42
"Gürcüstan vətəndaşlığı" ilə tanış olun və növbəti suallardan istifadə edərək Zezva və Mzia üçün məlumat hazırlayın:

- Zezva və Mzianın Gürcüstan vətəndaşlığını qəbul etmək imkanları nə qədərdir?
- Sizcə, onlara hansı əsasla Gürcüstan vətəndaşlığını vermək olar? Nə üçün belə düşünürsünüz?
- Kim Gürcüstan vətəndaşı ola bilməz?

**Müəllimə tövsiyə**: bu, şagirdlərin təxəyyülünü, yaradıcılığını, tənqidi təfəkkürünü müşahidə etmək üçün bir növ simulyativ prosesdir. Zezva və Mzianın vəziyyəti yalnız nümunə xarakteri daşıdığı üçün bu suallara dəqiq cavab yoxdur. Əsas odur ki, şagirdlər vətəndaşlığın qəbulu imkanlarını müzakirə etsinlər. Təkan verən suallarla yardım edə bilərik: onlara doğulduqlarından vətəndaşlıq verilirmi ya yox? Gürcüstanın qarşısında hər hansı bir xüsusi xidmətləri var və s. Şagirdlərə fərqli mövqelər haqda müzakirə etmək, arqument gətirmək imkanı verək.
**Yekunlaşdırma**: Gürcüstan vətəndaşlığının qəbulu qaydası Konstitusiya və qanunlarla ciddi müəyyən edilmiş prosedurlarla tənzimlənir.

**Tapşırıq**: dərslikdə verilən "Vətəndaşlıq konsepsiyasının dəyişiklikləri" paraqrafından, səh. 28-37 vətəndaşlıq konsepsiyasının inkişafının 2 mərhələsini seçin və ayrıca vərəqdə hər bir mərhələ üçün informasiya mətnini hazırlayın;

| | | |
|---|---|---|
| | • Bu mərhələ harada və hansı tarixi mühitdə inkişaf edir?<br>• Vətəndaşlıq kimə və necə verilirdi?<br>• Hansı üstünlükləri, hüquqları var idi?<br>• Hansı öhdəlikləri var idi?<br>• Vətəndaşlıq nə dərəcədə insan ləyaqətinin qorunmasının zəmanətidir? Nə üçün belə düşünürsən?<br>• Qadınların hansı hüquqları var idi?<br>• Hər hansı bir hüquqi sənəd təsir göstərirdimi və ya yox?<br>• Hazırladığınız iki konsepsiyanı bir-biri ilə müqayisə edin: ümumi və fərqli hansı əlamətləri var?<br><br>**Addım 3. Tapşırıqda verilən vətəndaşlıq mərhələlərində cəmiyyət/dövlət insan hüquqlarının müdafiəsini necə təmin edir? Müdafiə vasitələri/mexanizmləri necədir? (Əs.təs.2.3)**<br><br>**Resurs:** dərslik, vətəndaş hüquqları və vəzifələri, səh. 47-55<br>**Fəallıq: Cütlüklərdə işləyin, səh.48**<br>**Fəallıq: Qruplarda işləyin, səh. 48**<br>**Fəallıq: Qruplarda işləyin, səh. 52**<br>**Fəallıq: Qruplarda işləyin,səh. 53**<br><br>**Yekunlaşdırma**: xüsusi diqqəti səh.48-də Vəziyyət 2-də verilən qrup işinə yönəldirik və bu da qızlara və qadınlara qarşı diskriminasiyaya aiddir, müasir qanunvericiliklə və real vəziyyətlərlə paralellər aparırıq.<br><br>**Qeyd**: Bu fəallığı yekunlaşdırdıqda, şagirdlərin diqqətini qlobal problemlərlə bağlı olan(ekoloji,humanitar) "Üçüncü nəsil"hüquqlarından fərqli olaraq, insan hüquqlarının fərdin hüquqlarını müdafiə etməsinə yönəldirik.<br>"Üçüncü nəslin" hüquqları həmrəylik, yəni kollektiv hüquqlara aiddir: dinc, sağlam və ekoloji cəhətdən təmiz mühitdə yaşamaq, özünütanıma və s. kimi hüquqlar. Kollektiv hüquqlar fərdin hüquqlarından ayrılmamışdır və bu da onu bildirir ki, kollektiv hüquqlar fərdin hüquqları ilə ziddiyyət təşkil etməməli, onun azadlığına və ləyaqətinə xələl gətirməməli, hüquqi statusunu | |

məhdudlaşdırmamalıdır. Müvafiq məzmuna malik başqa kompleks tapşırığı zamanı da bunu xatırlatmaq doğru olar.

Resurs: 1. Dərslik, “Vətəndaşlıq konsepsiyasının dəyişiklikləri”, səh. 28-37; 2. Şagirdlər tərəfindən hazırlanan ev tapşırıqları;

**Fəallıq**: idarə olunan təcrübə; evdə üzərində işlənilən məlumatın əsasında, vətəndaşlıq konsepsiyasının inkişafının zaman xəttinin quraşdırılması.
Lövhədə çəkilən zaman xəttində müəllim mərhələləri/tarixləri işarə edir.
Şagirdlər öz tapşırıqlarını təqdim edir və vərəqi müvafiq mərhələyə yapışdırırlar.

**Qeyd:** zaman xəttində “2022-ci il - Gürcüstan”-ı işarə etmişik – bu mərhələnin vətəndaşlıq və hüquqların müdafiəsi haqqında məlumatı əqli hücum ilə qısaca lövhəyə köçürürük.

**Fəallıq**: müzakirə
**Suallar**:

- Hər bir dayanacaqda Zezva və Mzianın maraqları (vətəndaşlıq, hüquqların müdafiəsi, bərabərliyin təmin edilməsi) necə qarşılanacaq?
- Onların maraqları harada, hansı dayanacaqda daha yaxşı mühafizə olunacaq?
- **Bukletdə/slaydşouda tapşırıqda verilən dövrlərin vətəndaşlıq aspektlərini necə təsvir edəcəksiniz? Vizual materialı necə hazırlamaq olar?**

**Müəllimə tövsiyə**: şagirdlər arasında simulyasiya apara və deyə bilərsiniz ki, bir şagird, məsələn, A4 vərəqini iki qatladı və dayanacaqları alınan 4 vərəq üzərində böldü. Bu, yalnız şagirdlərin maraqlı ideyaları söyləməkdə çətinlik çəkdikləri halda, lazım gələ bilər. Bu fəallıqları yerinə yetirməklə, şagirdlər artıq tapşırığı müstəqil yerinə yetirməyə hazır olurlar.
Bir daha diqqəti ona yönəldək ki, qiymətləndirmə meyarları üzərində düşünmək onlara imkan verir ki, özləri tapşırığı qiymətləndirsinlər və bunun üçün isə onlara məhz meyarlar yardım edəcəklər.

| | | | |
|---|---|---|---|
| | Eləcə də Əlavə 1. Səh. 96-da verilən diaqnostika sualları ilə tanış olun, bu da tapşırığın prezentasiyasının planı kimi şagirdlərin köməyinə gələ bilər. Müəllimə də prezentasiya zamanı qiymətləndirmə üçün əsas məqamlara nəzər yetirməkdə və bunun əsasında inkişafetdirici qiymətləndirmə hazırlamaqda kömək edir. Diaqnostika sualları bütün tapşırıqlar üçün ümumidir!<br>**İnkişafetdirici qiymətləndirməyə gəldikdə**: altməsələyə (gender bərabərliyi) istiqamətlənməklə Milli Tədris Planının "demokratiya"hədəf anlayışı ilə münasibətdə, Milli Tədris Planının nəticələrinin taksonomiyasından istifadə etməklə, şagirdin biliyi yoxlanılmalıdır. | | |
| **Uzunmüddətli məqsəd**<br><br>**Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər** | **Məsələ**: insanın və vətəndaşın hüquqları<br>**Altməsələ**: gender bərabərliyi<br>**Altanlayışlar:**<br>İnsan hüquqları<br>Demokratiya prinsipləri | **Əsas sual / suallar**<br>• Qəzet məqaləsində Gürcüstanda mövcud gender stereotiplərini və onların insan hüquqlarına və demokratiya prinsiplərinin mühafizəsinə təsirini necə əks etdirim? | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |
| **Demokratiya** (***insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri***)<br><br>__**Nəticələr**__:<br>(Vət.təh. 1,2,3,4)<br><br>1. Bütün insanlar azad və bərabər doğulurlar, dəyərləri və hüquqları ilə;<br><br>2. İnsanın mülki-siyasi, sosial-iqtisadi və kollektiv hüquqları; | **Kompleks tapşırığın üzərində iş mərhələləri** (resurslar, fəallıqlar):<br><br>**I mərhələ: kompleks tapşırığın forması**<br><br>**Addım 1.** Öyrənilən məsələ ilə bağlı biliyinizi necə göstərməlisiniz?<br><br>**Resurs**: dərslik, səh. 7-8 (tapşırığı seçin)<br>**Fəallıq**: kompleks tapşırığın şərti ilə tanışlıq, tapşırığın mətninin qavranılması və şərtinin başa düşülməsi üçün; şagirdlərin təcrübəsinə əsasən, idarə olunan təcrübədən də istifadə etmək olar.<br><br>**Suallar**:<br><br>• Tapşırıq nəyə aiddir? Bu tapşırığın yerinə yetirilməsi sizdən nəyi tələb edir? | | **Tapşırıq 2.**<br><br>**Kompleks tapşırığın şərti**<br><br>Təsəvvür edin ki, jurnalistsiniz və **qəzet məqaləsini** hazırlamalısınız (200-250 söz). Məqalədə Gürcüstanda mövcud gender stereotiplərini və onların demokratik prinsiplərə təsirini göstərməlisiniz. Məqalədə növbəti səhifədə verilən informasiyadan və gənclərin fikirlərindən istifadə edə bilərsiniz. Əlavə 3, səh. 97; |

| | | |
|---|---|---|
| Gürcüstan Konstitusiyası və beynəlxalq sənədlər (bəyanatlar, konvensiyalar) bu hüquqların müdafiəsini təmin edir;<br><br>3. Demokratik cəmiyyətdə /dövlətdə insan hüquqları əsas dəyərlərdən biridir;<br><br>4. Demokratiya təməli prinsiplərə əsaslanır (bərabərlik, qanunun aliliyi, şəffaflıq, hakimiyyət bölgüsü, ədalətli seçkilər, məsuliyyət, inklüzivlik, qeyri-zorakı metodlarla hərəkət, tolerantlıq), bunlar olmadan demokratik dövlət fəaliyyət göstərə bilməz. | • Nəyi bilirsiniz, bu istiqamətdə artıq nəyi bacarırsınız?<br>• Gender stereotipi nə deməkdir?<br>• Bu tapşırığı yerinə yetirmək üçün daha hansı bilik və bacarıqlar lazım olacaqdır?<br><br>**Resurs**:<br>1. **Məqaləni necə hazırlayaq**;<br>2. Məqalə necə yazılır https://www.living-democracy.com/ge/textbooks/volume-3/part-3/unit-7/student-handout-6/<br>3. **Məqaləni necə yazaq**? Baxın: **Əlavə 4, səh.98**<br><br>**Fəallıq:** Sual-cavab<br>**Suallar:**<br>• Məqalə nədir?<br>• Məqalə hansı hissələrdən ibarətdir?<br>• Məqalənin və informasiyanın/xəbərin hansı ümumi və fərqləndirici xüsusiyyətləri var?<br>• Məqalənin hansı məqsədi var?<br>• Bu məqaləni ictimailəşdirməklə hansı nəticəni əldə etmək olar?<br>• Məhsulunuzu necə planlaşdıra bilərsiniz?<br>• Onun hansı strukturu olacaqdır?<br>• Nəyi nəzərə almaq lazımdır ki, məhsulunuz daha çox maraq doğursun? İnandırıcı olsun?<br>• Məqalənin vizual materialla tərtibatı üçün nə edə bilərik?<br><br>Bundan sonra **tapşırığın təqdimatı şərtləri və müddətləri haqqında razılaşırsınız**.<br><br>**II mərhələ: kompleks tapşırığın məzmunu**<br><br>**Addım 1. Məqalədə müzakirə olunan vəziyyətlərdə demokratiya prinsipləri, azadlıq, bərabərlik, insan ləyaqəti necə mühafizə olunur/necə pozulur və bu da demokratiyanın keyfiyyətinə nə kimi təsir göstərir? (Əs.təs.1.4)** | **İşinizdə/işinizin təqdimatında xüsusilə göstərməlisiniz:**<br>• Məqalədə müzakirə olunan vəziyyətlərdə demokratiya prinsipləri, azadlıq, bərabərlik, insan ləyaqəti necə mühafizə olunur/necə pozulur və bu da demokratiyanın keyfiyyətinə nə kimi təsir göstərir? (Əs.təs.1.4)<br>• Bu vəziyyətlərdə cəmiyyət/dövlət vətəndaşın hüquqlarını necə qoruyur/pozur? Bu hüquqların müdafiəsinin hüquqi əsasları, vasitələri/mexanizmləri necədir? (**Əs.təs.2,3**)<br><br>**Məsləhət:**<br>dərslikdə verilən məlumatlardan başqa, sizə məlum olan vəziyyətlərdən istifadə etməyiniz yaxşı olardı;<br>vəziyyətləri təsvir edərkən identifikasiya məlumatlarını (adı, soyadı, ünvanı ...) dəyişdirin;<br>əyani vəsaitlərdən istifadə edə bilərsiniz (foto, rəsm, diaqram....).<br><br>Kompleks tapşırığın inkişafetdirici qiymətləndirmə vasitəsini **Əlavə 5, səh.99-100-də** izləyə bilərsiniz |

**Müəllimə tövsiyələr**: bu tövsiyəni bütün kompleks tapşırıqlar üzərində işləyən zaman nəzərə almaq lazımdır. Kompleks tapşırığın altməsələsindən irəli gələrək keyslərin (hadisələrin), nəzəri materialın işlənilməsinə aksentlər edilir, fəallıqlar keçirilir və sonda qiymətləndirmə baş verir.

**Resurs**: dərslik, Vətəndaş olmaq nə deməkdir? Səh. 18,19 (ötən biliyin aktivləşdirilməsi)
**Müəllimə tövsiyə**: bu paraqrafın üzərində iş əsasən öncəki biliyin (vətəndaşlığın mahiyyəti, demokratiya prinsipləri) aktivləşdirilməsinə xidmət edir və tapşırıqla dolayı əlaqədardır).

**Fəallıq**: qruplarda işləyin, səh.9
Aşağıda məşhur insanlar haqqında verilən məlumatları bölüşdürün, tanış olun və müzakirə edin:

**Suallar**:
- Hər bir şəxsiyyət hansı vətəndaşlıq mövqeyinin daşıyıcısı və dəstəkləyicisi idi? Konkret sübutları adlandırın.
- Bunlardan hər biri insanın və vətəndaşın hüquqlarına/öhdəliklərinə qarşı hansı münasibəti göstərirdi? Sübut edin.
- Gender, sosial bərabərliyi ilə, müxtəlifliklə münasibətdə onların mövqeləri necədir?
- Həyatdan, ədəbiyyatdan oxşar şəxsiyyətləri yadınıza salın. Ümumi nələri var? Onlar gender bərabərliyi mövzusuna necə toxunurlar?

**Fəallıq**: müzakirə edin, səh.14
Sizcə, növbəti davranışlar vətəndaşlıq davranışları adlana bilərmi? Sxemdən istifadə edin – demokratiya prinsipləri (16 səh.) və aşağıda verilən vəziyyətləri demokratiya prinsiplərinə uyğunlaşdırın.

**Fəallıq**: cütlüklərdə işləyin, səh.16
**Fəallıq**: qruplarda işləyin, səh.16
**Fəallıq**: müzakirə edin, səh. 17

**Müəllimə tövsiyə:** son 4 fəallıq demokratiya prinsipləri haqqında biliyin aktivləşdirilməsinə aiddir və ola bilsin ki, hamısı yerinə yetirilməsin, amma şagirdlərin demokratiya prinsiplərini həyatla necə əlaqələndirdiklərinə əmin olmaq üçün xüsusi əhəmiyyət onların xatırladıqları vəziyyətlərə verilir və bunlar da insan azadlığına, bərabərliyə və ləyaqətə aiddir. Eləcə də bu prinsiplərin müdafiəsini dövlətin demokratiklik səviyyəsi ilə ümumiləşdirmək vacibdir.

**Fəallıq**: yekun müzakirə (dərslikdə yoxdur);

**Suallar**:

- Sizcə, demokratiya prinsiplərinin müdafiəsi vətəndaşın azadlığını, bərabərliyini və ləyaqətini necə təmin edir?
- Vətəndaşın hansı hüquqlarının müdafiə edildiyini sadalayın;
- Vətəndaşlıq onun üzərinə hansı vəzifələri qoyur?
- Aktiv vətəndaş olmaq nə deməkdir?
- Bu hüquqlar və prinsiplərin həyata keçirilmə prosesində gender stereotiplərinə görə, qadınlar və qızlar hansı baryerlərlə qarşılaşa bilərlər?
- Gürcüstan dayanacağında düşdükləri halda, Zezva və Mzianın ləyaqəti necə qorunacaqdır?

**Yekunlaşdırma**: demokratiya prinsipləri insan hüquqlarına aid həm yerli, eləcə də beynəlxalq sənədlər üçün əsası təqdim edirə Beynəlxalq sənədlər və onları müşayiət edən yerli qanunlar qadınların və qızların hüquqlarını qorusa da, bir çox hallarda stereotiplər qanundan çox təsir göstərir.  Vəziyyəti dəyişmək üçün nə etmək olar?

**Vəsait**: dərslik, Hüquqlarımı müdafiə edə bilərəm, səh. 19-27

| | | |
|---|---|---|
| | **Fəallıq**: Cütlüklərdə işləyin, səh. 19<br><br>**Suallar**:<br>Aşağıda verilən "Çətin seçim" vəziyyəti ilə tanış olun və suallara cavab verin:<br>• Verilən vəziyyətdə hansı konkret və ictimai problem/problemlər ayrılır? Bu problemlərə işarə edən nədir? (**gender stereotipləri, qadınların və qızların hüquqlarının pozulması, əmək məcəlləsinin pozulması, ailədə zorakılıq..)**<br>• İnsanın, vətəndaşın hüquqları pozulurmu? Cavabınız hə olduğunda, hansı hüquqlar pozulur və arqumentləri adlandırın?<br>• Bu hüquqlar kim tərəfindən pozulur? Belə bir vəziyyətdə cəmiyyətin/dövlətin rolu necədir? Əsaslandırın.<br>• Bu problemlər demokratiyanın hansı prinsipini/prinsiplərini pozur?<br>• Gender stereotipləri hansı səviyyədə özlərini göstərirlər (**fərdi, ailəvi, təhsil,dövlət, qlobal səviyyədə**)?<br>• Gender stereotiplərinin əsasını nə hesab edirsiniz (**köhnə adət-ənənələr, məlumatlılığın aşağı səviyyəsi**)?<br>• Özünüzü bu vəziyyətin hər hansı bir qəhrəmanının rolunda təsəvvür edin, hissləriniz haqqında danışın və mövqeyinizi müdafiə edin.<br>• Sizcə, oxşar vəziyyətlərdən özünü qorumaq üçün hansı mexanizmlər mövcuddur? (**gender mövzusunda çalışan vəkillə və ya təşkilatla; idarəetmə yanında mövcud gender komissiyası (işdə deyəndə ki, onlara qadın lazım deyil) ilə məsləhətləşmə, müvafiq qanunların araşdırılması...**.)<br>• Ciddi dilemma qarşısında duran Məryəmə hansı məsləhəti verərdiniz?<br>• Vəziyyəti fikirləşdiyiniz kimi davam edin.<br>**Alınan məlumatdan və nəticələrdən necə istifadə edərsiniz ki, oxucu Gürcüstanda gender bərabərliyinin real şəklini görə bilsin?**<br><br>**Müəllimə tövsiyə**: bu vəziyyətdə müzakirə ilə tapşırığın altməsələsi üzərində konkret işə başlayırsınız. Şagirdi köməkçi sualların vasitəsilə nəticəyə gətirirsiniz ki, Gürcüstanda gender bərabərliyi hüquqi normalarla müdafiə olunsa da, cəmiyyətdə hələ də gender stereotipləri qalıb və bu da bir çox hallarda, hüquqi normalara əməl edilməsi nöqteyi-nəzərindən problem yaradır. Buna görə | |

də, cəmiyyəti məlumatlandırmaq, maarifləndirməni artırmaq, müsbət nümunələri yayımlamaq lazımdır.

**Fəallıq**:  yadınıza salın, səh.21

**Fəallıq**: qruplarda işləyin, səh. 21-24
**Suallar**:
Sizcə, bu əhvalat və onun gələcəkdə cərəyanı nədən xəbər verir?

- Beynəlxalq advokatlaşdırma və ya hüquq-mühafizə təşkilatları olmasaydı, hadisələr necə cərəyan edərdi?
- Bu hadisələrdə hansı yerli və beynəlxalq təşkilatların cəlb olunduğu özünü göstərir?
- Sizcə, Strasburq məhkəməsinə müraciət nə üçün lazım olur, halbuki ölkəmiz demokratik dövlətdir və qanunvericilik oxşar məsələləri nəzərə alır?
- Oxşar qərarlar qəbul etdikdə Avropa məhkəməsinə təkan verən nədir?
- Advokatlaşdırmanı aparan təşkilata təkan verən nədir?
- Qərarın yetkinliyə gətirilməsi necə baş verir?
- Qərarın yetkinliyə çatdırılması məsələləri beynəlxalq təşkilatlar tərəfindən yoxlanılırmı?

**Kompleks tapşırığı yerinə yetirdikdə, alınan informasiyadan və nəticələrdən necə istifadə edəcəksiniz?**

**Fəallıq:** modelləşdirmə, səh.26-27 (bu fəallığı yerinə yetirmək arzu olunur, amma məcburi deyil).
**Tapşırıq:** evdə “Vətəndaşlıq konsepsiyasının dəyişiklikləri” paraqrafı ilə tanış olun, səh. 28-37 və “Müxtəlif tarixi dövrdə qadınların və kişilərin hüquqları” prezentasiyasını hazırlayın

**Addım 2.  Cəmiyyət/dövlət bu vəziyyətlərdə vətəndaşın hüquqlarını necə qoruyur/pozur? Bu hüquqların müdafiəsinin hüquqi əsasları, vasitələri/mexanizmləri necədir? (Əsas təs. 2,3)**

**Resurs**: Şagirdlərin prezentasiyaları;
**Fəallıq**: prezentasiya

| | | |
|---|---|---|
| | **Fəallıq:** müzakirə<br>**Suallar**:<br><br>• Qadın hüquqları hansı tarixi mərhələdə fəallaşdı?<br>• Bu hüquqlar nədə ifadə olunurlar?<br>• Qadınlara qarşı ayrı-seçkilik stereotipləri əsasını haradan götürür?<br>• Keçmiş təcrübələrdən irəli gələrək, kişilərə qarşı hansı ayrı-seçkilik stereotipləri əsasını haradan götürür?<br>• **Məqalənizdə əldə edilən informasiya və nəticələrdən necə istifadə edərsiniz?**<br>**Resurs:** dərslik, Gürcüstan vətəndaşlığı, səh.38-47<br><br>**Fəallıq**: müzakirə edin, səh. 38;<br><br>**Suallar**:<br>• Vətəndaşlıq olmadan bu əhvalatın davamının mümkün variantlarını necə təsəvvür edirsiniz? Elenenin əhvalatını davam etdirin.<br>• Nəzərə alın ki, Yunanıstan Avropa İttifaqı ölkəsidir və burada vizasız rejimdir. Nəyi nəzərdə tutduğunu yadınıza salın?<br>• Eleneyə belə bir şərtlərdə ölkəyə qeyri-qanuni giriş nə üçün lazım oldu?<br>• Elene üçün trafikinq təhlükəsi mövcuddurmu?<br>• Bu əhvalatdan irəli gələrək hansı nəticəni çıxara bilərik?<br>• Başqa, analoji vəziyyətlər yadına düşürmü? Orada hadisələr necə cərəyan edirdi?<br>• Trafikinq problemi yalnız bizim vətəndaşları narahat edir?<br>• Trafikinq hansı növ cinayətə aid edilir?<br><br>**Fəallıq**: **müzakirə edin, səh. 46**<br>**Resurs**: Dərslik, Vətəndaş hüquqları və öhdəlikləri, səh.48-49<br><br>**Fəallıq**: **Cütlüklərdə işləyin, səh. 42**<br><br>**Fəallıq: Qruplarda işləyin, səh. 42** | |

| | | |
|---|---|---|
| | **Fəallıq: Qruplarda işləyin, səh. 46**<br><br>**Fəallıq: Qruplarda işləyin, səh. 47**<br><br>**Yekunlaşdırma**: xüsusi diqqəti "Mayanın arzularına" yönəldirik (səh. 40, qruplarda işləyin) və qadınlara qarşı ayrı-seçkiliyə aid qrupun son işində müasir qanunvericiliklə və real vəziyyətlə paralellər aparırıq.<br>Bu fəallığı yekunlaşdırdıqda,şagirdlərin diqqətini qlobal problemlərlə bağlı olan(ekoloji,humanitar) "Üçüncü nəsil"hüquqlarından fərqli olaraq, insan hüquqlarının fərdin hüquqlarını müdafiə etməsinə yönəldirik. "Üçüncü nəslin" hüquqları həmrəylik, yəni kollektiv hüquqlara aiddir: dinc, sağlam və ekoloji cəhətdən təmiz mühitdə yaşamaq, özünütanıma və s. kimi hüquqlar. Kollektiv hüquqlar fərdin hüquqlarından ayrılmamışdır və bu da onu bildirir ki, kollektiv hüquqlar fərdin hüquqları ilə ziddiyyət təşkil etməməli, onun azadlığına və ləyaqətinə xələl gətirməməli, hüquqi statusunu məhdudlaşdırmamalıdır. Müvafiq məzmuna malik başqa kompleks tapşırıq zamanı da bunu xatırlatmaq doğru olar.<br><br>Bu fəallıqları başa vurmaqla şagirdlər artıq tapşırığı müstəqil yerinə yetirməyə hazır olurlar. Əlbəttə ki, bir daha diqqəti qiymətləndirmə meyarları üzrə düşünməyə yönəldirik ki, bu da onlara tapşırıqlarını özləri qiymətləndirmək imkanını verir və bunun üçün isə qiymətləndirmə meyarları onlara yardım edəcəkdir.<br><br>Eləcə də diaqnostik suallar ilə tanış oluruq, bax, Əlavə 1. Səh. 95, bu da tapşırığın prezentasiya planı kimi köməyimizə gələcəkdir. Müəllimə isə prezentasiya zamanı qiymətləndirmə üçün mühüm məqamlara toxunmağa və bunun əsasında inkişafetdirici qiymətləndirmə hazırlamağa yardım edəcəkdir.<br><br>**İnkişafetdirici qiymətləndirməyə gəldikdə**: Altməsələyə (gender bərabərliyi) yönəlməklə Milli Tədris Planının hədəf anlayışı "demokratiya" ilə münasibətdə, Milli tədris planının nəticələrinin taksonomiyasından istifadə etməklə şagirdin biliyi yoxlanılmalıdır. | |

| **Hədəf anlayışı – Vətəndaş iştirakı** | | | **Tapşırıqlardan birini seçin** |
|---|---|---|---|
| **Uzunmüddətli məqsəd**<br><br>**Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər** | **Məsələ**:<br>• Qloballaşma<br><br>**Altməsələ**: beynəlxalq təşkilat – “Dünya vətəndaşı”<br><br>**Altanlayış**: könüllülük | **Əsas sual / suallar**<br>• Missiyanın mətnində beynəlxalq təşkilatın məqsədini necə əks etdirim və bu məqsədi əldə etmək üçün vətəndaş iştirakının seçilmiş forması və fəallıqlarının məqsədəuyğunluğunu necə əks etdirim? | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |
| **Vətəndaş iştirakı** | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):** | | Tapşırıq 1 |

| | | |
|---|---|---|
| **Nəticələr:**<br><br>**(Vət.ort. 2,4)**<br><br>1. Vətəndaş cəmiyyəti aktiv vətəndaşlardan ibarət olan demokratik cəmiyyətdir;<br>2. Vətəndaş iştirakı ictimai ehtiyaclara/ölkəyə qayğının göstərilməsi vasitəsidir;<br>3. Aktiv vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması – həyata keçirilməsi ilə, könüllü işlərlə, advokatlaşdırma ilə, lobbiləşdirmə ilə) ictimai problemlərin həllinə qayğı göstərirlər. Bu zaman onlar bir-biri ilə, ictimai qurumlarla, qeyri-hökumət təşkilatları, dövlət strukturları ilə əməkdaşlıq edirlər;<br>4. Vətəndaş iştirakı zamanı başqa insanların maraqlarını nəzərə almaq lazımdır;<br>5. Vətəndaş iştirakı zorakı əməlləri istisna edir. | **I mərhələ: kompleks tapşırığın forması**<br><br>**Addım 1.** Öyrənilən məsələ ilə bağlı öz biliyimi necə göstərə bilərəm?<br><br>**Vəsait**: təşkilat missiyasının nümunəsi: **https://transparency.ge/ge/misia**<br><br>**Müəllimə tövsiyə:** bu material haqqında kiçik informasiya ilə Əlavə 7-də tanış ola bilərsiniz, səh. 103.<br><br>**Suallar**:<br><br>• Tapşırığın şərti aydındırmı? Sizdən nəyi yerinə yetirmək tələb olunur?<br>• Missiya nə deməkdir?<br>• Necə təsəvvür edirsiniz, təşkilatın missiyasında hansı informasiya olmalıdır?<br>• Tapşırığın şərti, qiymətləndirmə meyarları nəyə işarə edir, missiyanın mətnində nəyi təsvir etməlisiniz?<br>• Missiyanın mətninin planını necə təsəvvür edirsiniz?<br><br>**Bir qayda olaraq**, şagirdlərə **birinci mərhələnin** sonunda xatırladırıq ki, tapşırığı təqdim etməli və təşkilatın missiyasını əlyazma və ya elektron formada hazırlaya bilərlər.<br><br>Diaqnostika suallarını da xatırlada bilərik (Əlavə 1, səh. 95), bunu isə prezentasiyanı hazırladıqda nəzərə almalıdırlar.<br><br>**II mərhələ: Kompleks tapşırığın məzmunu**<br><br>**Addım 1. Həmfikirləriniz bə qədər fəaldırlar, fəaliyyətinizi hansı qlobal ehtiyacla/problemlə əlaqələndirirsiniz və nə üçün bunu vacib hesab edirsiniz? (Əs.təs.1,2)**<br><br>**Suallar:**<br>• Qloballaşma nədir?<br>• Şəxsən qloballaşmanı başa düşdüyünüz konkret misalı adlandırın.<br>• Qloballaşma prosesinə nə səbəb olmuşdu? Onu tezləşdirən nədir?<br>• “Dünya kiçilmişdir” ifadəsini necə başa düşürsünüz? | Kompleks tapşırığın şərti<br><br>Təsəvvür edin ki, qlobal vətəndaş kimi sizin yeni beynəlxalq təşkilat yaratmaq istəyiniz var. Bu təşkilat da hər hansı bir qlobal problemin həllinin qayğısına qalacaqdır. Bu təşkilatın əsas **təşkilat missiyasını** formalaşdırın (təxminən 300 söz) və bunda da təşkilatınızın məqsədi və onun həyata keçirilmə yolları təsvir olunacaqdır (beynəlxalq təşkilatların təcrübələrindən nə ilə paylaşarsınız və hansı yeniliyiniz olacaqdır).<br><br>**İşinizdə/işinizin prezentasiyası zamanı xüsusilə göstərin:**<br>• Həmfikirləriniz nə qədər aktiv idilər, işinizi hansı qlobal ehtiyacla/problemlə əlaqələndirərsiniz və bunun nə üçün vacib olduğunu düşünürsünüz? (**Əs. təs.1,2**)<br><br>• Nə üçün beynəlxalq təşkilatın bu problem üzərində işin ən effektiv forması hesab edirsən və kimin dəstəyinə ümid edirsiniz, kiminlə əməkdaşlıq etməyə hazırlaşırsınız? Necə və nə üçün? (**Əs.təs.3**)<br><br>İşinizdə başqa insanların maraqlarını necə nəzərə alarsınız və sizin əməlləriniz qeyri-zorakı olacaqdır və ya yox? (**Əs.təs.4,5**)<br><br>**Məsləhət:**<br>İstəyiniz olduğu halda, təşkilatın loqosunu və şüarını hazırlaya bilərsiniz. |

**Vəsait**: dərslik, “Sədd yaratmaq lazım deyil”, səh. 58

Fəallıq: müzakirə edin, səh. 58
Suallar:
Aşağıda verilən əhvalatı təhlil edin və suallara cavab verin:
• Burada nəql edilən və sizə məlum olan əhvalatlardan irəli gələrək, könüllülərin cəmiyyətin, ölkənin həyatında rolu necədir?
• Hansı insanlar könüllü olurlar? Nə üçün?
• Könüllü olmaq istəyən insanın hansı bacarıqları olmalıdır?
• Öz fəaliyyəti ilə könüllü hansı faydanı gətirə bilər?
• Könüllü olmusunuzmu və ya özünüzü bu rolda necə təsəvvür edirsiniz?
• Necə düşünürsünüz, könüllü öz fikrini təkbaşına yerinə yetirməlidir və ya başqaları ilə birlikdə?
• Verilən əhvalatda könüllülüyün hansı formasından istifadə olunmuşdur? Hekayə oxuyan şəxsin qardaşı harada çalışır?
• Bu təşkilatın məqsədləri necədir? Yerli ehtiyacları göstərir və ya qlobal?
• Könüllülük və qloballaşma haqqında nəyi bilmək istərdiniz?
• Könüllülük və qloballaşma arasında hansı əlaqəni görürsünüz?

**Fəallıq**: Qruplarda işləyin, səh. 61
**Fəallıq**: cütlüklərdə işləyin, səh.64

**Müəllimə tövsiyə**: yuxarıda sadalanan bütün fəallıqların şərti, suallar Şagird kitabında verilir. Bu fəallıqlar aparıldığından sonra müzakirə ilə yekunlaşdırırıq.

**Fəallıq**: müzakirə

**Suallar**:
- Sizcə, qloballaşma həyatın hansı sahələrinə aiddir? (**siyasət, iqtisadiyyat, təhlükəsizlik, sosial sahə, incəsənət, şəxsi münasibətlər, cəmiyyət ....)**
- Beynəlxalq cəmiyyətlərin hansı ümumi problemləri var? (**təbii kataklizmlər, iqlim dəyişikliyi, içməli su problemi, pandemiyalar,**

**QİÇS, silahlı münaqişələr, müharibələr, transmilli cinayətlər (trafikinq, qadınların və qızların istismarı, uşaq əməyi, kiber cinayətlər), ayrıseçkilik, yoxsulluq...)**

- İnsanların hansı ehtiyacları və tələbləri var?
- Fərqli insanların hansı ümumi ehtiyacları var? (**sağlamlıq, firavanlıq, ailə, təhsil, təhlükəsizlik, aidiyyat hissi...**)
- Yuxarıda sadalanan problemlərdən hansı onların bu ehtiyac və tələblərinin ödənilməsini məhdudlaşdırır?
- Necə düşünürsünüz, qloballaşma bu problemlərin yaranmasına və ya əmələ gəlməsinə imkan yaradır və ya mane olur? Nə üçün?
- Bu problemlər vətəndaşları dövlət, cəmiyyət səviyyəsində də narahat edirmi?
- Dövlət problemləri həll etməyəndə/edə bilməyəndə vətəndaşlar nə edirlər?
- Qlobal problemlər haqqında kim, hansı insanlar düşünürlər və necə qayğı göstərirlər?
- Qlobal problemlərin həlli üçün vətəndaşlar nə edə bilərlər?
- Siz də belə bir problemlərin həllində/azalmasında hər hansı bir rol oynamısınızmı? Necə?
- Daha nələr edilə bilər?

**Müzakirə nəticəsində əldə edilən informasiya və nəticələrin hansından tapşırığı yerinə yetirmək üçün istifadə edərsiniz və necə?**

**Müəllimə tövsiyə**: a) şagirdlər tərəfindən adlandırılan qlobal problemləri flipçarta və ya başqa böyük vərəqə yazmaq, sonra da dərs ərzində dolduraraq, istifadə etməyiniz yaxşı olardı.

**a)** Şagirdlərə evdə oxumaq üçün dərslikdə, səh. 66-70-də verilən **Hyu Evensin məqaləsi tapşırılır - "Dünya vətəndaşı" beynəlxalq təşkilat**

**Tapşırıq:** dərslikdə, səh. 66-70-də verilən Hyu Evensin - "Dünya vətəndaşı" beynəlxalq təşkilatı məqaləsi ilə diqqətlə tanış olun, növbəti dərsdə onun əsasında müzakirə üçün hazırlaşın;

| | | |
|---|---|---|
| | **Addım 2. Nə üçün beynəlxalq təşkilatın bu problem üzərində işin ən effektiv forması hesab edirsən və kimin dəstəyinə ümid edirsiniz, kiminlə əməkdaşlıq etməyə hazırlaşırsınız? Necə və nə üçün**? (**Əs.təs.3**)<br><br>**Vəsait**: dərslik, "Qlobal vətəndaş", səh. 66-70<br><br>**Fəallıq**: müzakirə edin, səh.66<br><br>**Suallar**:<br><br>• Dünyada öz yerinin yenidən dərk edilməsi insanları yoxsulluqla, iqlim dəyişikliyi ilə, gender bərabərliyi və başqa problemlərlə mübarizəyə necə kökləyir?<br>• Qlobal vətəndaş nə deməkdir?<br>• Məqaləyə əsasən qlobal vətəndaşın rolunu və imkanlarını necə görə bildiniz?<br>• Qlobal vətəndaşın nəzəri və fəaliyyəti demokratiya prinsiplərini necə səsləndirir?<br>• "Dünya vətəndaşı" təşkilatının missiyasını qısaca necə formalaşdırarsınız?<br>• Bu məqalədə sizin üçün yeni və maraqlı nə oldu? Nə üçün?<br>• **Əldə edilən informasiya və nəticələrin hansından tapşırığı yerinə yetirmək üçün istifadə edərsiniz və necə?**<br>Fəallıq: qruplarda işləyin, səh. 71 **Beynəlxalq vətəndaşlığın "çobanyastığı"**<br><br>**Müəllimə tövsiyələr**: şagirdlər 4 qrup yaradırlar. Onlara əvvəlcədən hazırlanmış "çobanyastığının" bir-bir vərəqini paylayırlar, bunda da hər bir qrupun məsələsi yazılmışdır (**Qrup 1.** Qlobal problemlər və onların nəticələri; **Qrup 2.** Bu problemlərə hansı vətəndaşlar qayğı göstərirlər və hansı motivasiya ilə; **Qrup 3.** Vətəndaşlar mülki vətəndaşlığın hansı formalarına, hansı fəallıqlarına müraciət edirlər; **Qrup 4.** Fəallıqların həyata keçirilməsinin hansı vasitələrindən və mexanizmlərindən istifadə edilib). Şagirdlərin sayına əsasən 5-ci qrupu da yarada və "vərəq" əlavə edə bilərsiniz "qlobal vətəndaşlar kiminlə əməkdaşlıq edirlər". **Birinci mərhələdə** hər bir qrup Hyu Evensin məqaləsinə əsasən (öz fikirlərini də əlavə edə bilərlər), | |

| | | |
|---|---|---|
| | onlar üçün nəzərdə tutulan "çobanyastığı" vərəqinə məlumatı daxil edirlər. Müzakirə və yazmaq üçün onlara 10 dəqiqə vaxt verilir,<br>**İkinci mərhələdə** „çobanyastığı vərəqlərini" 2 dəqiqəlik başqa qruplara verirlər ki, öz variantlarını əlavə etsinlər. Bu qaydada "vərəqlər" dairəvi hərəkət edir və "baş" qrupa geri qayıdır. Onlara yenə də bir dəqiqə verilir ki, əlavələrlə tanış olsunlar və prezentasiya keçirsinlər. Qrupların fərqli fikirləri də ola bilər, buna da interaksiya imkanı verilməlidir.<br>Prezentasiyadan sonra qrupların hamısı öz vərəqini "dünya vətəndaşlığının çobanyastığı" yazısı ilə əvvəlcədən yapışdırılmış "çobanyastığına" yapışdırırlar. Bu vəsait tapşırığın sonuna qədər lövhədə qalmalıdır, çünki tapşırığın yerinə yetirilməsi üçün lazımi strukturlaşdırılmış məlumatdan ibarətdir.<br><br>**Fəallıq**: yekun müzakirə<br><br>**Sual**:<br>• **Bu gün aldığınız informasiya və nəticələrin hansından tapşırığı yerinə yetirmək üçün istifadə edərsiniz və necə?**<br><br>**Addım 3. İşinizdə başqa insanların maraqlarını necə nəzərə alarsınız və sizin əməlləriniz qeyri-zorakı olacaqdır və ya yox? (Əs.təs.4,5**)<br><br>**Vəsait**: dərslik, "Qlobal vətəndaş", "Bu, maraqlıdır" səh. 72<br><br>**Fəallıq**: mətn üzərində iş və analiz<br><br>**Suallar**:<br><br>• Daviniya kimdir?<br>• O, vətəndaş fəallığının hansı formasına müraciət edir?<br>• Daviniyanın könüllülük fəaliyyətinə başladığında hansı resursları var idi?<br>• Belə bir nəticələri necə əldə edə bildi və etimad və tanınmanı necə qazandı? | |

| | | |
|---|---|---|
| | • Onun təşəbbüslərini kim dəstəkləyirdi?<br>• Belə bir fikirlə razısınızmı ki, bütün ölkələrdə və istənilən sosial qrupda bu cür insanlar var? Bunu nə ilə izah edərsiniz?<br>• Yaxın gələcəkdə siz də onların arasında ola bilərsinizmi?<br>• Nə edərdiniz? Hansı problemin qayğısına qalardınız və necə?<br>• Daviniya və Hyu Evensin fəaliyyəti arasında hansı oxşarlıq-fərq var?<br>• Onlardan hər hansı biri həmfikirlərini topladıqda və ya müxtəlif fəallıqda zorakılıq metodlarından istifadə edirmi? Nə üçün?<br>• **Bu müzakirə tapşırığı yerinə yetirməkdə yardım edəcəkmi? Necə?**<br><br>**Resurs**: dərslik, səh. 74<br>**Fəallıq**: cütlüklərdə işləyin<br>74-cü səhifədə yerləşdirilən fotokollajla tanış olun və suallara cavab verin:<br><br>• Vətəndaş iştirakının hansı forması təqdim edilir? Toplaşanlar nəyə etiraz edirlər?<br>• Bu toplantılar öz-özünə yaranıb və ya təşkil edilib?<br>• Hansı dəyərlərin tapdanılması insanların etirazına səbəb oldu?<br>• Müharibələr zaman insan hüquqları, demokratiya prinsipləri pozulurmu və ya yox?<br>• Müharibənin başlanılması yalnız hücum obyektinə çevrilmiş əhalinin hüquqlarınımı tapdalayır və ya öz vətəndaşlarınınmı? Nə üçün?<br>• Bu halda beynəlxalq cəmiyyətin razılaşdığı müharibə qaydaları pozulurmu?<br><br>**Fəallıq**: Cütlüklərdə işləyin, səh. 75<br><br>**Resurs:** qlobal vətəndaşlıq üçün təhsilin faydasının sxemi, səh. 76<br>**Fəallıq:** fərdi iş<br>**Suallar:**<br>• Sxemin banerlərində verilən bəndlərlə tanış olun və hansı mühüm hesab etdiyinizi adlandırın və nə üçün? | |

| | | |
|---|---|---|
| | • Necə düşünürsünüz, qlobal vətəndaşlıq üçün təhsil lazımdırmı? Fikrinizi əsaslandırın.<br>• Rəqəmsal savadlılıq lazımdırmı?<br>• Siz özünüzü bu prosesə qoşulmuş hesab edirsinizmi? Misalları adlandırın.<br>• Bu mövzunun öyrənilməsi qlobal vətəndaşlığın imkanlarının, alətlərinin, mexanizmlərinin və strategiyalarının anlaşılmasında necə yardım edəcəkdir?<br>• **Bu bilik və bacarıqlar nə vaxt və harada köməyinizə gələ bilər?**<br>• **Bu kompleks tapşırığın yerinə yetirilməsi qlobal vətəndaşlıq yolunda sizin üçün kiçik bir təcrübə ola bilərmi?**<br><br>**Müəllimə tövsiyə:** yekunlaşdırmaq üçün bir daha sinifdə yaratdığınız informasiyaya göz gəzdirin ("çobanyastığı" qlobal problemlərin siyahısına) və modelləşdirmək üçün siz və şagirdləriniz qlobal problemin seçilməsi, təşkilatın məqsədləri, strategiyaları, fəallıqları, dəstəkçiləri, gözləntiləriniz haqqında ucadan "düşünürsünüz".<br>Bu fəallığı başa çatdırmaqla şagirdlər artıq tapşırığı müstəqil yerinə yetirməyə hazırdırlar. Diqqəti qiymətləndirmə meyarları üzrə düşünmək onlara öz tapşırıqlarını birinci qiymətləndirməyə imkan verdiyinə yönəldin. Diaqnostik suallarla (Əlavə 1. Səh. 95) tanış olun və bu da tapşırığın prezentasiyasına refleksiya vermək və təlimin öyrənilməsi üçün yararlı olacaqdır. | |

| | | | |
|---|---|---|---|
| **Hədəf anlayışı – Vətəndaş iştirakı** | | | **Tapşırıqlardan birini seçin** |
| **Uzunmüddətli məqsəd**<br><br>**Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər** | **Məsələ**:<br>• Qloballaşma<br><br>**Altməsələ**: Könüllülük sərhədlər xaricində<br><br>**Altanlayış**: könüllülük | **Əsas sual / suallar**<br>• "Könüllülük gündəliyimdə" beynəlxalq ehtiyaclara və maraqlara uyğunlaşdırılmış könüllülük fəallığının təsvirini, dəstəkçilərin toplanma formalarını necə göstərim? | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |
| **Vətəndaş iştirakı**<br><br>**Nəticələr:** | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br><br>**I mərhələ: kompleks tapşırığın forması** | | Tapşırıq 2<br><br>**Kompleks tapşırığın şərti** |

| | | |
|---|---|---|
| **(Vət.ort. 2,4)**<br><br>6. Vətəndaş cəmiyyəti aktiv vətəndaşlardan ibarət olan demokratik cəmiyyətdir;<br>7. Vətəndaş iştirakı ictimai ehtiyaclara/ölkəyə qayğının göstərilməsi vasitəsidir;<br>8. Aktiv vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması – həyata keçirilməsi ilə, könüllü işlərlə, advokatlaşdırma ilə, lobbiləşdirmə ilə) ictimai problemlərin həllinə qayğı göstərirlər. Bu zaman onlar bir-biri ilə, ictimai qurumlarla, qeyri-hökumət təşkilatları, dövlət strukturları ilə əməkdaşlıq edirlər;<br>9. Vətəndaş iştirakı zamanı başqa insanların maraqlarını nəzərə almaq lazımdır;<br>10. Vətəndaş iştirakı zorakı əməlləri istisna edir. | **Addım 1.** Öyrənilən məsələ ilə bağlı öz biliyimi necə göstərə bilərəm?<br><br>**Resurs**: “Azadlıq gündəlikləri” https://www.radiotavisupleba.ge/z/1057<br><br>Şagirdlərin şəxsi təcrübələri;<br><br>**Fəallıq**: sual-cavab, müzakirə<br><br>**Suallar**:<br>• Tapşırıq sizdən nəyi tələb edir? Hansı məhsulları yaratmalı idiniz?<br>• Hansı məsələləri xüsusilə göstərməlisiniz?<br>• Gündəlik nədir?<br>• Siz gündəlik oxumusunuzmu?<br>• Siz gündəlik tutmusunuzmu?<br>• İnsan gündəlikdə nəyi təsvir edə bilər?<br>• Gündəliyin hansı strukturu ola bilər? (**gündəlikdə yazılar günlərə, tarixlərə əsasən ayrılır**?)<br>• Gündəliyin məzmunu nəyə aid ola bilər? (**gündəlikdə başımıza gələn əhvalatları, mühakimələri, emosiyaları, arzularımızı..... yaza bilərik. Bir sozlə, gündəlik, məzmunca məhdudiyyətsizdir, onda düşündüyümüz hər şey haqqında yaza bilərik.....)**<br>• Gündəliyi necə bir dildə və hansı formada yazırıq? (**forma da məhdud deyil, çünki adi hekayə, şeir də ola bilər...**)<br>• Verilən kompleks tapşırıqda nə müəyyənləşdirilmişdir? Gündəliyimiz nəyə toxunmalıdır? Onda hansı məzmun başa düşülür?<br>• Bu gündəlik həqiqi əhvalat haqqında və ya uydurulmuş əhvalat haqqında olacaq?<br>• Özümüzü qlobal vətəndaş rolunda görmək üçün bizə nə lazım olacaqdır? (**təcrübəmiz, başqalarının təcrübələrini bilmək və paylaşmaq, könüllülüyün mahiyyətini bilmək və təsvir qabiliyyəti**) | **Kompleks tapşırığın şərti**<br>Təsəvvür edin ki, Daviniyanın tərəfdarısınız (Şag.kit. səh.72) və dünyanın müxtəlif insanlarına yardım etmək üçün vaxtınızdan və imkanlarınızdan könüllü şəkildə istifadə etmək istəyirsiniz. Sizin işiniz artıq konkret nəticələr vermişdir. “**Könüllünün gündəliyinin**” **qeydini** (**200-250 söz**) hazırlayın, bunda da fəaliyyət nəticələrinizi danışacaqsınız.<br><br>**İşinizdə/işinizin prezentasiyası zamanı xüsusilə göstərin:**<br>• Bu fəallıq hansı ehtiyacla, problemlə bağlıdır və nə üçün bunun vacib olduğunu qərara almısınız? Fikrinizin ətrafında həmfikirlərinizi nə dərəcədə effektiv şəkildə toplaya bildiniz? (**Əs.təs.1,2**)<br>• Nə üçün vətəndaş iştirakının seçilmiş formasını – könüllülüyü bu problem üzrə işin ən effektiv yolu hesab edirsiniz və kimin dəstəyini aldınız, kiminlə əməkdaşlıq etdiniz? Hansı gözləntiniz özünü doğrultmadı və sizcə, nə üçün? (**Əs.təs.3**)<br>• Fəallıqda başqa insanların maraqları necə nəzərdə tutulmuşdu və onların iştirakı könüllü idi? (Əs.təs.4,5)<br><br>Kompleks tapşırığın inkişafetdirici alətini Əlavə 6, səh. 101-102-də izləyə bilərsiniz |

| | | |
|---|---|---|
| | • Məzmun çərçivəsinin müəyyənləşdirilməsində tapşırığın şərti və qiymətləndirmə meyarları necə yardım edəcəkdir? (**qiymətləndirmə meyarları tapşırıq üçün bir növ işarə, plan olacaqdır**)<br><br>**Addım 1**. **Bu fəallıq hansı ehtiyacla, problemlə bağlıdır və nə üçün bunun vacib olduğunu qərara almısınız? Fikrinizin ətrafında həmfikirlərinizi nə dərəcədə effektiv şəkildə toplaya bildiniz**? (**Əs.təs.1,2**)<br><br>**Fəallıq**: əqli hücum (öncəki biliyin aktivləşdirilməsi)<br>**Suallar**:<br><br>• Qloballaşma nədir?<br>• Qloballaşmanı şəxsən başa düşdüyünüz konkret nümunəni adlandırın.<br>• Qloballaşma prosesinə nə səbəb oldu? Nə sürətləndirdi?<br>• "Dünya kiçilib" ifadəsini necə başa düşürsünüz?<br><br>**Resurs**: Dərslik "Sədd yaratmaq lazım deyil", səh. 58-65<br>**Fəallıq**: Müzakirə edin, səh. 58<br>**Suallar**:<br>• Burada nəql edilən və sizə məlum olan əhvalatlardan irəli gələrək, könüllülərin cəmiyyətin, ölkənin həyatında rolu necədir?<br>• Hansı insanlar könüllü olurlar? Nə üçün?<br>• Könüllü olmaq istəyən insanın hansı bacarıqları olmalıdır?<br>• Öz fəaliyyəti ilə könüllü hansı faydanı gətirə bilər?<br>• Könüllü olmusunuzmu və ya özünüzü bu rolda necə təsəvvür edirsiniz?<br>• Necə düşünürsünüz, könüllü öz fikrini təkbaşına yerinə yetirməlidir və ya başqaları ilə birlikdə?<br>• Verilən əhvalatda könüllülüyün hansı formasından istifadə olunmuşdur? Hekayətçinin qardaşı harada çalışır?<br>• Bu təşkilatın məqsədləri necədir? Yerli ehtiyacları göstərir və ya qlobal?<br>• Könüllülük və qlobalizasiya haqqında nəyi bilmək istərdiniz?<br>• Könüllülük və qloballaşma arasında hansı əlaqəni görürsünüz?<br><br>**Fəallıq**: müzakirə edin, səh. 61 | |

**Fəallıq**: qruplarda işləyin, səh. 62

**Fəallıq**: cütlüklərdə işləyin, səh. 64

**Fəallıq**: müzakirə

**Suallar**:

- Sizcə, qloballaşma həyatın hansı sahələrinə aiddir? (**siyasət, iqtisadiyyat, təhlükəsizlik, sosial sahə, incəsənət, şəxsi münasibətlər....**)
- Beynəlxalq cəmiyyətlərin hansı ümumi problemləri var? (**təbii kataklizmlər, iqlim dəyişikliyi, içməli su problemi, pandemiyalar, QİÇS, silahlı münaqişələr, müharibələr, transmilli cinayətlər (trafikinq, qadınların və qızların istismarı, uşaq əməyi, kiber cinayətlər), ayrıseçkilik, yoxsulluq...**)
- İnsanların hansı ehtiyacları və tələbləri var?
- Fərqli insanların hansı ümumi ehtiyacları var? (**sağlamlıq, firavanlıq, ailə, təhsil, təhlükəsizlik, aidiyyat hissi...**)
- Yuxarıda sadalanan problemlərdən hansı onların bu ehtiyac və tələblərinin ödənilməsini məhdudlaşdırır?
- Necə düşünürsünüz, qloballaşma bu problemlərin yaranmasına və ya əmələ gəlməsinə imkan yaradır və ya mane olur? Nə üçün?
- Bu problemlər vətəndaşları dövlət, cəmiyyət səviyyəsində də narahat edirmi?
- Dövlət problemləri həll etməyəndə/edə bilməyəndə vətəndaşlar nə edirlər?
- Qlobal problemlər haqqında kim, hansı insanlar düşünürlər və necə qayğı göstərirlər?
- Qlobal problemlərin həlli üçün vətəndaşlar nə edə bilərlər?
- Siz də belə bir problemlərin həllində/azalmasında hər hansı bir rol oynamısınızmı? Necə?
- Daha nələr edilə bilər?

**Müzakirə nəticəsində əldə edilən informasiya və nəticələrin hansından tapşırığı yerinə yetirmək üçün istifadə edərsiniz və necə?**

| | | |
|---|---|---|
| | **Müəllimə tövsiyə**: a) şagirdlər tərəfindən adlandırılan qlobal problemləri flipçarta və ya başqa böyük vərəqə yazmaq, sonra da dərs ərzində dolduraraq, istifadə etməyiniz yaxşı olardı.<br>b) Şagirdlərə evdə oxumaq üçün dərslikdə, səh. 66-70-də verilən **Hyu Evensin məqaləsi tapşırılır - "Dünya vətəndaşı" beynəlxalq təşkilat**<br><br>**Tapşırıq:** dərslikdə, səh. 66-70-də verilən Hyu Evensin - "Dünya vətəndaşı" beynəlxalq təşkilatı məqaləsi ilə diqqətlə tanış olun, növbəti dərsdə onun əsasında müzakirə üçün hazırlaşın;<br><br>**Addım 2. Nə üçün beynəlxalq təşkilatın bu problem üzərində işin ən effektiv forması hesab edirsən və kimin dəstəyinə ümid edirsiniz, kiminlə əməkdaşlıq etməyə hazırlaşırsınız? Necə və nə üçün**? (**Əs.təs.3**)<br><br>**Vəsait**: dərslik, "Qlobal vətəndaş", səh. 66-70<br><br>**Fəallıq**: müzakirə edin, səh.66<br><br>**Suallar**:<br><br>• Dünyada öz yerinin yenidən dərk edilməsi insanları yoxsulluqla, iqlim dəyişikliyi ilə, gender bərabərliyi və başqa problemlərlə mübarizəyə necə kökləyir?<br>• Qlobal vətəndaş nə deməkdir?<br>• Məqaləyə əsasən qlobal vətəndaşın rolunu və imkanlarını necə görə bildiniz?<br>• Qlobal vətəndaşın nəzəri və fəaliyyəti demokratiya prinsiplərini necə səsləndirir?<br>• Bu məqalədə sizin üçün yeni və maraqlı nə oldu? Nə üçün?<br>• **Əldə edilən informasiya və nəticələrin hansından tapşırığı yerinə yetirmək üçün istifadə edərsiniz və necə?**<br><br>Fəallıq: qruplarda işləyin, səh. 71 **Beynəlxalq vətəndaşlığın "çobanyastığı"** | |

| | | |
|---|---|---|
| | **Müəllimə tövsiyələr**: şagirdlər 4 qrup yaradırlar. Onlara əvvəlcədən hazırlanmış "çobanyastığının" bir-bir vərəqini paylayırlar, bunda da hər bir qrupun məsələsi yazılmışdır (**Qrup 1.** Qlobal problemlər və onların nəticələri; **Qrup 2.** Bu problemlərə hansı vətəndaşlar qayğı göstərirlər və hansı motivasiya ilə; **Qrup 3.** Vətəndaşlar mülki vətəndaşlığın hansı formalarına, hansı fəallıqlarına müraciət edirlər; **Qrup 4.** Fəallıqların həyata keçirilməsinin hansı vasitələrindən və mexanizmlərindən istifadə edilmişdir). Şagirdlərin sayına əsasən 5-ci qrupu da yarada və "vərəq" əlavə edə bilərsiniz "qlobal vətəndaşlar kiminlə əməkdaşlıq edirlər". **Birinci mərhələdə** hər bir qrup Hyu Evensin məqaləsinə əsasən (öz fikirlərini də əlavə edə bilərlər), onlar üçün nəzərdə tutulan "çobanyastığı" vərəqinə məlumatı daxil edirlər. Müzakirə və yazmaq üçün onlara 10 dəqiqə vaxt verilir,<br>**İkinci mərhələdə** „çobanyastığı vərəqlərini" 2 dəqiqəlik başqa qruplara verirlər ki, öz variantlarını əlavə etsinlər. Bu qaydada "vərəqlər" dairəvi hərəkət edir və "baş" qrupa geri qayıdırlar. Onlara yenə də bir dəqiqə verilir ki, əlavələrlə tanış olsunlar və prezentasiya keçirsinlər. Qrupların fərqli fikirləri də ola bilər, buna da interaksiya imkanı verilməlidir. Prezentasiyadan sonra qrupların hamısı öz vərəqini "dünya vətəndaşlığının çobanyastığı" yazısı ilə əvvəlcədən yapışdırılmış "çobanyastığına" yapışdırırlar. Bu vəsait tapşırığın sonuna qədər lövhədə qalmalıdır, çünki tapşırığın yerinə yetirilməsi üçün lazımi strukturlaşdırılmış məlumatdan ibarətdir.<br><br>**Fəallıq**: yekun müzakirə<br><br>**Sual**:<br>• **Bu gün aldığınız informasiya və nəticələrin hansından tapşırığı yerinə yetirmək üçün istifadə edərsiniz və necə?**<br><br>**Addım 3. İşinizdə başqa insanların maraqlarını necə nəzərə alarsınız və sizin əməlləriniz qeyri-zorakı olacaqdır və ya yox?** (**Əs.təs.4,5**)<br><br>**Vəsait**: dərslik, "Qlobal vətəndaş", "Bu, maraqlıdır" səh. 72 | |

| | | |
|---|---|---|
| | **Fəallıq**: mətn üzərində iş və analiz<br><br>**Suallar**:<br>• Daviniya kimdir?<br>• O, vətəndaş fəallığının hansı formasına müraciət edir?<br>• Daviniyanın könüllülük fəaliyyətinə başladığında hansı resursları var idi?<br>• Belə bir nəticələri necə əldə edə bildi və etimad və tanınmanı necə qazandı?<br>• Onun təşəbbüslərini kim dəstəkləyirdi?<br>• Belə bir fikirlə razısınızmı ki, bütün ölkələrdə və istənilən sosial qrupda bu cür insanlar var? Bunu nə ilə izah edərsiniz?<br>• Yaxın gələcəkdə siz də onların arasında ola bilərsinizmi?<br>• Nə edərdiniz? Hansı problemin qayğısına qalardınız və necə?<br>• Daviniya və Hyu Evensin fəaliyyəti arasında hansı oxşarlıq-fərq var?<br>• Onlardan hər hansı biri həmfikirlərini topladıqda və ya müxtəlif fəallıqda zorakılıq metodlarından istifadə edirmi? Nə üçün?<br>• **Bu müzakirə tapşırığı yerinə yetirməkdə yardım edəcəkmi? Necə?**<br><br>**Resurs**: dərslik, səh. 74<br>**Fəallıq**: cütlüklərdə işləyin<br>74-cü səhifədə yerləşdirilən fotokollajla tanış olun və suallara cavab verin:<br><br>• Vətəndaş iştirakının hansı forması təqdim edilir? Toplaşanlar nəyə etiraz edirlər?<br>• Bu toplantılar öz-özünə yaranıb və ya təşkil edilib?<br>• Hansı dəyərlərin tapdanılması insanların etirazına səbəb oldu?<br>• Müharibələr zaman insan hüquqları, demokratiya prinsipləri pozulurmu və ya yox?<br>• Müharibənin başlanılması yalnız hücum obyektinə çevrilmiş əhalinin hüquqlarınımı tapdalayır və ya öz vətəndaşlarınınmı? Nə üçün?<br>• Bu halda beynəlxalq cəmiyyətin razılaşdığı müharibə qaydaları pozulurmu? | |

| | | |
|---|---|---|
| | **Müəllimə tövsiyə**: qlobal vətəndaşlıq məsələləri üzrə işlədikdə, dərslikdə Rusiya-Ukrayna müharibəsindən yan ötə bilməzdik, amma bu məsələlər üzrə işlədikdə də mülayim olmağa çalışmalı, nifrət dilindən istifadə etməməli və şagirdlərdə də bu qaydalara əməl etməyi xahiş etməliyik.<br>**Əlavə 8**. Səh. 104-106;<br><br>**Fəallıq**: Cütlüklərdə işləyin, səh. 75<br><br>**Resurs:** qlobal vətəndaşlıq üçün təhsilin faydasının sxemi, səh. 76<br>**Fəallıq:** fərdi iş<br>**Suallar:**<br>• Sxemin banerlərində verilən bəndlərlə tanış olun və hansı mühüm hesab etdiyinizi adlandırın və nə üçün?<br>• Necə düşünürsünüz, qlobal vətəndaşlıq üçün təhsil lazımdırmı? Fikrinizi əsaslandırın.<br>• Rəqəmsal savadlılıq lazımdırmı?<br>• Siz özünüzü bu prosesə qoşulmuş hesab edirsinizmi? Misalları adlandırın.<br>• Bu mövzunun öyrənilməsi qlobal vətəndaşlığın imkanlarının, alətlərinin, mexanizmlərinin və strategiyalarının anlaşılmasında necə yardım edəcəkdir?<br>• **Bu bilik və bacarıqlar nə vaxt və harada köməyinizə gələ bilər?**<br>• **Bu kompleks tapşırığın yerinə yetirilməsi qlobal vətəndaşlıq yolunda sizin üçün kiçik bir təcrübə ola bilərmi?**<br><br>**Müəllimə tövsiyə:** yekunlaşdırmaq üçün bir daha sinifdə yaratdığınız informasiyaya göz gəzdirin ("çobanyastığı" qlobal problemlərin siyahısına) və modelləşdirmək üçün siz və şagirdləriniz qlobal problemin seçilməsi, təşkilatın məqsədləri, strategiyaları, fəallıqları, dəstəkçiləri, gözləntiləriniz haqqında ucadan "düşünürsünüz". | |

| | | |
|---|---|---|
| | Bu fəallığı başa çatdırmaqla şagirdlər artıq tapşırığı müstəqil yerinə yetirməyə hazırdırlar. Diqqəti qiymətləndirmə meyarları üzrə düşünmək onlara öz tapşırıqlarını birinci qiymətləndirməyə imkan verdiyinə yönəldin. Diaqnostik suallarla (Əlavə 1. Səh. 95) tanış olun və bu da tapşırığın prezentasiyasına refleksiya vermək və təlimin öyrənilməsi üçün yararlı olacaqdır. | |

| **Hədəf anlayışı – Dayanıqlı inkişaf** | | | |
|---|---|---|---|
| **Uzunmüddətli məqsəd**<br><br>**Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər** | **Məsələ:**<br>• Dayanıqlı inkişaf<br><br>**Altməsələ**: dayanıqlı inkişafın komponentləri (insan, planet, firavanlıq)<br><br>**Altanlayış**:<br>Dayanıqlı inkişafın qlobal məqsədləri | **Əsas sual / suallar**<br>• Qəzet məqaləsində seçdiyim dayanıqlı inkişafın komponentinin əhəmiyyətini, başqa komponetlərlə əlaqəsini və oxuculara konkret məsləhəti necə göstərim? | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |
| **Dayanıqlı inkişaf**<br>**Nəticələr: 3**<br><br>**Orta pillə:** | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br><br>**I mərhələ: kompleks tapşırığın forması** | | Tapşırıq 1<br><br>**Kompleks tapşırığın şərti** |

| | | |
|---|---|---|
| 1. Resurslardan istifadə edərkən ictimaiyyətin maraqlarını və gələcəyin perspektivini nəzərə almaq vacibdir;<br>**2.** Yerli hərəkətlər qlobal nəticələrə səbəb olur (*məsələn, ətraf mühitə qayğının göstərilməsi bir nəzərdən əhəmiyyətsiz hərəkətlərlə başlayır (məs., zibilin yerə atılması, polietilen paketdən imtina edilməsi).* | **Addım 1.** Öyrənilən məsələ ilə bağlı öz biliyimi necə göstərə bilərəm?<br><br>**Resurs**: dərslik, kompleks tapşırıq, səh.78<br><br>**Fəallıq**: kompleks tapşırığın şərti ilə tanışlıq, məzmun və qiymətləndirmə meyarlarının anlaşılması üçün;<br><br>**Suallar**:<br>• Tapşırıq nəyə aiddir? Bu tapşırığın yerinə yetirilməsi sizdən nəyi tələb edir?<br>• Məqalənin mövzusu üçün seçimi indi edə bilərsinizmi? Nə üçün?<br>• Bu tapşırığı yerinə yetirmək üçün daha hansı bilik və bacarıqlar lazım olacaqdır?<br>• Şəxsən sizin özünüz məqaləni nəyin əsasında seçirsiniz? (**başlığın? Həcmin? Vizual əlavələrin, şrift ölçüsünün....**)<br><br>**Resurs**:<br><br>1. Məqalə necə yazılır https://www.livingdemocracy.com/ge/textbooks/volume-3/part-3/unit-7/student-handout-6/<br><br>2. Məqaləni necə yazaq? Əlavə 4, səh.98;<br><br>**Suallar**:<br>• Məqalə hazırlamısınızmı? Nə yaxşı alındı, nədə çətinlik çəkdiniz?<br>• Məqalə hansı hissələrdən ibarətdir? | Dayanıqlı inkişaf məqsədlərinə həsr olunan məktəbin divar qəzeti üçün/internet səhifə üçün **məqalə** hazırlayın (200-250 söz). Mövzu olaraq komponentlərdən birini seçin:<br>1. Dayanıqlı sosial inkişaf (insanlar)<br>2. Mühitin dayanıqlı inkişafı (planet)<br>3. Dayanıqlı iqtisadi inkişaf (firavanlıq)<br>Məqalədə dayanıqlı inkişafın müvafiq komponentinin mahiyyətini, başqa komponentlərə yanaşmanı və həmyaşıdlar üçün məsləhətləri təsvir edin.<br><br>**İşdə/işin prezentasiyasında xüsusilə göstərin:**<br>• Seçilən komponentin əhəmiyyəti, cəmiyyətin yerli və qlobal təhlükəsizlik üçün başqa komponentlərlə əlaqəsi necədir? (**Əs.təs.1**)<br><br>• Yerli davranışlarla qlobal nəticələrə necə təsir göstərə bilərik (bu komponentə müvafiq olaraq)? (**Əs.təs.2**)<br><br>BMT-nin dayanıqlı inkişaf məqsədləri – icmal<br><br>https://www.youtube.com/watch?v=Pnwi5zwN69E<br>https://www.youtube.com/watch?v=vI_kA0g3B3o<br>Dayanıqlı inkişaf<br><br>İnkişafetdirici qiymətləndirmə üçün qiymətləndirmə aləti ilə tanış olun: Əlavə 9, səh. 107-108 |

- Məqalənin və informasiyanın/xəbərin hansı ümumi və fərqli xüsusiyyətləri var? (**informasiya yalnız faktları əhatə edir, məqalə isə - analizi, fikirləri**)
- Məqalə hansı məqsədi daşıyır? (**konkret məsələnin/problemin göstərilməsini və analizi**)
- Bu məqaləni dərc etməklə hansı nəticəni əldə edə bilərik?
- Məqalənizi necə yazmağı düşünürsünüz?
- Onun nə kimi strukturu olacaqdır?
- Məqalənizin daha çox maraq oyatması üçün nəyi nəzərə almalısınız? Daha inandırıcı olması üçün?
- Məqalənin vizual tərtibatı üçün nədən istifadə etmək olar?

**Müəllimə tövsiyə**: məhsulu məqalə olan demokratiyanın hədəf anlayışı üzrə kompleks tapşırıq üzərində işləmisinizsə, o halda bu tapşırıq üzərində işin birinci mərhələsində belə bir xırdalıqlar lazım olmayacaq və şagirdlərin öncəki biliklərini növbəti suallarla aktivləşdirə bilərsiniz: o zaman nəyi yaxşı bacardılar? Nədə çətinlik çəkdilər? İndi nəyi nəzərə alacaqlar? Başqalarına nəyi məsləhət görərdilər?

**II mərhələ: kompleks tapşırığın məzmunu**

**Addım 1. Seçilən komponentin əhəmiyyəti, cəmiyyətin yerli və qlobal təhlükəsizlik üçün başqa komponentlərlə əlaqəsi necədir**? (**Əs.təs.1**)

**Fəallıq**: əqli hücum (öncəki biliyin aktivləşdirilməsi)
**Suallar**:

- Sizin üçün dayanıqlı inkişaf məqsədləri bir cümlədə nəyi bildirir?
- Beynəlxalq ictimaiyyət bu məqsədlər üzrə nə vaxt razılığa gəldilər?
- 2030-cu ilə qədər neçə il qalıb, yaxşılığa doğru nə isə dəyişibmi?
- Qalan vaxtda və sonralar görüləsi hansı işlər qalıb?

**Vəsait**: dərslik, “Dayanıqlı inkişaf üçün təhsil”, səh. 79-85

**Fəallıq**: müzakirə edin, səh.79

| | | |
|---|---|---|
| | **Suallar**:<br>• Kənddə mövcud problemləri sadalayın və onları dayanıqlı inkişafın məqsədləri ilə əlaqələndirin.<br>• Vəziyyətin qəhrəmanlarının hansı davranışı dayanıqlı inkişafın məqsədlərinə uyğundur və hansı – yox?<br>• Əhali mövcud çağırışlarla ayaqlaşmağa çalışırmı və ya yox? Necə?<br>• Nə üçün yerli əhali kənd üçün ayrılmış vəsaitdən istifadə etdikdə düzgün prioriteti müəyyənləşdirə bilmədi?<br>• Siz kənd əhalisinə nəyi məsləhət görərdiniz? Necə davranmalıdırlar ki, bir tərəfdən əldə edilən mənfəət digər tərəfə ziyan, risklər gətirməsin?<br>• Dövlət bu kəndlə münasibətdə hansı rolu yerinə yetirir?<br>• Kənd əhalisinin gələcək məqsədləri necədir? Təhsil almaq istəyi, mənfəət almaq, sağlamlığın mühafizəsi, ekoloji problemlərin həlli, yoxsulluğun qarşısının alınması və s.?<br>**Onların şəxsi məqsədləri dayanıqlı inkişaf məqsədləri ilə– beynəlxalq cəmiyyətin məqsədləri və maraqları ilə necə əlaqələnir?**<br><br>**Fəallıq**: qruplarda işləyin, səh. 82<br>**Suallar**:<br>• Vəziyyətin qəhrəmanları hansı dilemma qarşısındadırlar?<br>• Nə üçün onlar hamının istəyini eyni zamanda yerinə yetirə bilmirlər?<br>• Dayanıqlı inkişaf məqsədlərini nəzərə almaqla hansı qərarı qəbul edə bilərdiniz?<br>• Şəhərinizin, kəndinizin, icmanızın və ya ölkənizin həyatınızdan oxşar misalları yadınıza salın ki, bu zaman fikir müxtəlifliyinə görə konkret məsələ öz həllini tapa bilməmişdi.<br><br>Vəsait: dərslik, Ven diaqramı, səh. 83; Əlavə 2, səh. 159-167<br>Fəallıq: müzakirə (**dərslikdə Ven diaqramı və informasiya verilsə də, müzakirə sualları deyil!)**<br><br>**Suallar**:<br><br>• Qrup işi zamanı təhlil edilən vəziyyətlərdə qərarların qəbul edilməsi nə üçün çətin idi? | |

| | | |
|---|---|---|
| | • Kitabda verilən Ven diaqramı və bu həyat vəziyyətləri arasında hansı əlaqəni görürsünüz?<br>• Dayanıqlı inkişafın məqsədlərinin üç istiqaməti bir-biri ilə hansı əlaqəni və ziddiyyəti təşkil edir?<br>• Hər bir istiqaməti əks etdirən konkret misalları adlandırın;<br>• Planetimizin qayğısına qalmaq üçün, sizcə, iqtisadiyyatı necə inkişaf etdirməliyik? Sosial sahəni? Planetin qayğısını?<br>• Hər bir istiqamət üzrə insanların cari ehtiyacları və gələcək perspektivləri arasında hansı əlaqə var?<br>• Tarazlığı saxlamaq üçün çıxış yolunu nədə görürsünüz?<br>• Dayanıqlı inkişaf üçün davamlı təhsil lazımdırmı ki, bu tarazlığı saxlaya və qoruya bilək?<br>**• Kompleks tapşırığının mövzusunu seçmək və yerinə yetirmək üçün əldə edilən məlumatdan, təcrübədən və nəticələrdən necə istifadə edəcəksiniz?**<br><br>**Tapşırıq**: paraqrafın sonunda verilən video resurslarla tanış olun, dayanıqlı inkişafın seçilmiş istiqamətində **informasiya mətnini** (100-150 söz) hazırlayın və buna uyğun nümunəni, vəziyyəti əlavə edin (**dərslikdə linklər verilir, amma tapşırığın təlimatı deyil!**)<br><br>BMT dayanıqlı inkişaf məqsədləri – icmal www.shorturl.at/IJQRT<br>BMT dayanıqlı inkişaf məqsədləri haqqında **www.shorturl/at/wELY6**<br>Qlobal məqsədlərin əldə edilməsi üçün nə etmək olar<br>www.shorturl.at/xFLNX<br><br>Qlobal məqsədlərin əldə edilməsi üçün nə edə bilərəm<br>**www.shorturl.at/xFLNX**<br><br>Fəallıq göstər – dünyanı dəyiş! **www.shorturl.at/vSZ69**<br><br>**Addım 2 Yerli davranışlarla qlobal nəticələrə necə təsir göstərə bilərik (bu komponentə müvafiq olaraq)? (Əs.təs.2)** | |

| | | |
|---|---|---|
| | **Resurs**: şagirdlər tərəfindən hazırlanmış informasiya mətnləri<br>**Fəallıq:** tapşırığın təqdimatı, müzakirə<br>**Suallar:**<br>• Dayanıqlı inkişafın hər bir komponentinin hansı xüsusi əhəmiyyəti var?<br>• Bu komponentlə necə əlaqəli olduğunuzu adlandırın? Əlaqəniz hansı aspektlədir: müsbət ilə? Mənfi ilə? Gündəlik həyatınızdan nümunələrlə müzakirə edin;<br>• Onlar bir-birinə necə təsir edirlər;<br>• Fərdlərin yerli davranışları və dayanıqlı inkişafın bu komponentinin yerinə yetirilməsi arasında hansı əlaqə var?<br>• Yerli qərarlar bu halda da qlobal qərarlara təsir edirmi? İzah edin ki, nə üçün?<br>• **Fikirləşin ki, alınan informasiyadan və təcrübədən kompleks tapşırıq materialında necə istifadə edərsiniz?**<br><br>**Vəsait**: dayanıqlı inkişaf məqsədlərinin posterləri, səh. 159-167<br>**Fəallıq**: qruplarda işləyin, səh. 84<br><br>**Yekunlaşdırma**: lövhədə bir-birindən aralı dayanıqlı inkişaf **konsepsiyasının hər üç komponentini** yazırıq və şagirdlərdən xahiş edirik ki, söhbət apardıqları məqsədi hansı komponentə (nömrəni qeyd edirik) aid etdiyini bizə və ya şagirdlərdən birinə diktə etsin. Burada iki fikir də yarana bilər və bu da işarə edir ki, bu komponentlər arasında da keçilməz sərhədlər yoxdur.<br><br>**Resurs**: dünyanın xilası dərsliyi, səh. 86-90<br>Aşağıda verilən məsləhətləri bölüşdürün, yazın:<br><br>• Yerinə yetirdiyiniz 5 əməli və yerinə yetirmədiyiniz/yetirə bilmədiyiniz 5-ni yazın;<br>• Sizcə, gələcəkdə də yerinə yetirə bilməyəcəyiniz 2 əməli yazın. Nə üçün? | |

| | | |
|---|---|---|
| | • Bu məsləhətlərə nəyi əlavə edərdiniz və ya siyahıdan çıxarardınız?<br><br>**Fəallıq**: müzakirə edin, səh. 89<br>**Suallar**:<br><br>• Nə üçün sizin siyahınız bir-biri ilə bəzən uyğun gəlirdi və bəzən də - yox?<br>• Bizim subyektiv münasibətimiz davranışlarımızı müəyyənləşdirirmi?<br>• Bu halda sizin üçün hansı qayda təsir göstərir: “bilmirdim və etmirəm”, “başa düşməmişəm və etmirəm”, “başqaları etmirlər və mən də etmirəm”, “mən bilirəm və gələcək nəsillərin qayğısına qalıram”?<br>• Bu yanaşmanı dəyişmək üçün necə hərəkət etməliyik?<br>• Dünyanın xilası dərsliyinin hansı çağırışı kompleks tapşırığımıza uyğundur?<br>• Bu dərsliyin müəllifləri nəyi unutmuşlar?<br>• Hər hansı və ya bütün hissələrdə əlavə edəcəyiniz məsləhəti necə formalaşdırardınız?<br><br>**Müəllimə tövsiyə**: 91-ci səhifədə verilən “Debatlar” fəallığı qloballaşma məsələlərini ümumiləşdirir və bunda da əlbəttə ki, dayanıqlı inkişafın məqsədləri də nəzərdə tutulur və buna görə də siz qərara almalısınız ki, bu debatları tapşırıqla dolayı bağlı olan fəallıq kimi aparacaqsınız və ya müstəqil, məsələlərin 2 blokunun (qloballaşma və dayanıqlı inkişaf) yekun fəallığı kimi.<br>Bu məsələ üzrə müzakirənin və ya ev tapşırığın formatı ilə iş də mümkündür. | |

| **Hədəf anlayışı – Cəmiyyət** | | | **Tapşırıqlardan birini seçin!** |
|---|---|---|---|
| **Uzunmüddətli məqsəd**<br><br><br>**Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər** | **Məsələ**:<br>• Sosial-emosional bacarıqlar<br><br><br>**Altməsələ**: | **Əsas sual / suallar**<br>• Adresatlarda/dinləyicilərdə beynəlxalq tədbirə aidiyyat hissini yaradan/möhkəmləndirən və | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |

| | | | |
|---|---|---|---|
| | • Aidiyyat hissi<br>**Altanlayış**:<br>İnsanın tələbatları və ehtiyacları;<br>Sosial-emosional vərdiş-bacarıqlar; | həssas qruplara empatiya hissini yaradan dəvətnaməni necə tərtib edim?<br>• Məktubda lazımi sosial-emosional bacarıqların nəzərə alınması ilə tərtib edilən qaydaları necə əks etdirim ki, bunlar da rəngarəng cəmiyyətdə harmonik əlaqələri təmin edirlər? | |
| **Cəmiyyət – (*şəxsiyyət, fərd və cəmiyyət və sosiallaşma*)**<br><br>**<u>Nəticələr:</u>**<br><br>**Orta pillə:**<br>**1,2.**<br>1. İnsan şəxsiyyətdir, öz dünyagörüşü (ideyalar, dəyərlər) və məqsədləri ilə; insanın öz şəxsiyyətini sərbəst inkişaf etdirmək hüququ var;<br>2. İnsanın müxtəlif *(fizioloji, təhlükəsizlik, sosial əlaqələr və s.)* tələbatları var, bunları qarşılamasa şəxsi inkişafını bacarmayacaqdır;<br>3. Başqa insanlarla/sosial qruplarla/qurumlarla ünsiyyət insanın şəxsi inkişafına dəstək verir;<br>4. Assertivlik (insanın bacarığıdır ki, başqasını təhqir etmədən öz fikrini sərbəst ifadə etsin) şəxsiyyətin və sosiumun harmonik əlaqəsinə dəstək verir. | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br><br>**I mərhələ: kompleks tapşırığın forması**<br><br>**Addım 1.** Öyrənilən məsələ ilə bağlı öz biliyimi necə göstərə bilərəm?<br><br>**Resurs**: dərslik, kompleks tapşırıq, səh.92<br><br>**Fəallıq**: kompleks tapşırığın şərti ilə tanışlıq, tapşırığın mətninin və şərtinin başa düşülməsi üçün; şagirdlərin təcrübəsinə əsasən, özünü doğruldan təcrübədən istifadə etmək olar.<br><br>Resurs: dəvətnamə məktubunun hazırlanma qaydası; Əlavə 11, səh. 111<br><br>**Fəallıq**: müzakirə edin;<br><br>**Suallar**:<br><br>• Tapşırıq nəyə aiddir? Bu tapşırığın yerinə yetirilməsi sizdən nəyi tələb edir?<br>• Sizcə, "beynəlxalq xeyriyyə tədbirində" nələr nəzərdə tutulur?<br>• Məktub adresatlarının tərkibi necədir?<br>• Xoş abu-havalı mühitin təşkili üçün bu insanların ümumi maraqlarından necə istifadə etmək olar? | | Tapşırıq 1<br><br>**Kompleks tapşırığın şərti**<br><br>Təsəvvür edin ki, siz beynəlxalq xeyriyyə tədbirlərindən birinin təşkilatçısısınız. Artıq bilirsiniz ki, qonaqlar arasında müxtəlif irqlərin, millətlərin, dinlərin, yaş qruplarının siyasətçiləri, iş adamları, diplomatları və incəsənət sahəsinin nümayəndələri olmalıdır. Tədbirdə əyləncə proqramı ilə yanaşı işgüzar hissə (uşaq rəsmlərinin xeyriyyə sərgisi-satışı) və şam yeməyi də nəzərdə tutulub. Beynəlxalq xeyriyyə tədbirinə aidiyyat hissini yaratmaq üçün qonaqlara **dəvət məktubu** (200-250 söz) hazırlayın. Məktuba tədbirin |

| | | |
|---|---|---|
| | • Hansı materialı hazırlamalısınız?<br>• Bu tapşırığı yerinə yetirmək üçün hansı bilik və bacarıqlar sizə lazım olacaqdır?<br><br>**Müəllim üçün tövsiyə**: prezentasiyanın diaqnostika sualları<br><br>Baxın, Əlavə 1. Səh. 95<br><br>**II mərhələ**: kompleks tapşırığın məzmunu<br><br>**Addım 1. Hansı dünyagörüşü, dəyərlər və ya maraqların əsasında xeyriyyə tədbiri planlaşdırıldı, onun qaydaları baş tutdu və nə üçün? (Əs.təs.1.3 )**<br><br>**Resurs**: dərslik, şəxsi inkişaf və qlobal mühit, səh. 93-99<br><br>**Fəallıq**: cütlüklərdə işləyin, səh.87<br><br>**Suallar**:<br>• Necə düşünürsünüz, nə üçün Sofi bikef idi? Nə üçün özünü tənha hiss edirdi?<br>• Kovid izolyasiya şərtlərində onun və yoldaşlarının hansı tələbatlarına məhdudiyyət qoyulmuşdu? Onların **sosiallaşma** üçün hansı imkanları qalırdı?<br>• Uzunmüddətli izolyasiya şəxsiyyətə nə kimi təsir göstərir, xüsusilə də gənclərə? Nə üçün?<br>• Sofinin heyvanların müdafiəçiləri ilə əlaqə yaratması üçün hansı ilkin şərtlər var idi? (**aidiyyat tələbatı, ümumi maraqlar**....)<br>• Şəxsin özünü beynəlxalq cəmiyyətin bir hissəsi kimi hiss etməsi üçün hansı ilkin şərtlər lazımdır?<br>• Sofinin beynəlxalq təşkilata üzv olmaq qərarını sürətləndirən nə oldu? Nə üçün belə düşünürsünüz? Sofinin onlara aidiyyat hissinin yaranmasına şərait yaradan nə oldu? (**film, hadisə, güclü emosiyalar, təşkilat tərəfindən əks əlaqə.....**) | məqsədi haqqında həssas şəkildə verilmiş məlumatlar (hər hansı birini seçin: yetim uşaqlara yardım, COVID-in qarşısının alınması üçün pul yığılması, təhsil üçün dəstək...) və tədbirdə geyim tərzi, davranış qaydaları, menyu və əyləncə proqramı barəsində məlumat daxil ola bilər.<br><br>**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:**<br>• Hansı dünyagörüşü, dəyərlər və ya məqsədlər əsasında xeyriyyə tədbirinin keçirilməsi planlaşdırılmışdı, onun qaydaları baş tutdumu və nə üçün? (**Əs.təs.1,3**)<br>• Tədbirin təşkilində qonaqların və cəmiyyətin ehtiyac və tələbləri necə və nə dərəcədə nəzərə alınmışdı ki, onlarda bu qrupa aidiyyat hissi dərinləşsin? (**əs.təs.2**)<br>• Dəvət olunan cəmiyyətlə hər birinin harmonik əməkdaşlığı nə dərəcədə vacib və hərtərəfli faydalı olacaq? (**Əs.təs.4**) |

| | | |
|---|---|---|
| | • Bu qərar Sofinin əhval-ruhiyyəsinə necə təsir göstərdi? Nə üçün? Bu qrupa aidiyyat onun şəxsiyyətində öz əksini necə tapır?<br>• Bu əhvalatı şəxsi təcrübənizlə əlaqələndirin, ümumi nəyi tapdınız? Fərqli?<br>• Fikirləşin ki, insanın öz icmasında, şəhərində, ölkəsində aktiv vətəndaş mövqeyi yoxdursa, müxtəlifliyi tanımır/tanıya bilmirsə, həmrəy deyilsə, bu insan qlobal vətəndaş ola bilərmi? Nə üçün?<br><br>**Müəllimə tövsiyə**: şagirdlərə öz fikirlərini ifadə etmək və sübutlarla əsaslandırma imkanını verin. Burada və növbəti fəallıqlarda da diqqəti altməsələyə yönəldirik (aidiyyat hissinə), verilən keysləri (hadisələri) məhz bununla əlaqələndiririk və bu da altanlayışların işlənilməsində bizə yardım edir. Bu, hədəf anlayışının əsas təsəvvürlərə keçidinin əsasıdır. Məsələn, şagird başa düşür ki, Sofinin sosial əlaqələrə ehtiyacı var idi və buna görə də bikef idi. O, filmə baxdı və insanın laqeyd davranışı onu çox sarsıltdı. Yaralı quşun qayğısına qalmağa başladı, emosiyası gücləndi, bu emosiyasını başqaları ilə paylaşmaq istədi (mesincerdə yazdı), onlardan da cavab və şəfqət məktubları gəldi. Sofi özünü onlardan biri hiss etdi, onda bu ictimai qrupa doğru aidiyyat hissi yarandı, təşkilatdan da açıqlıq, tanınma hiss etdi. Təşkilata üzv olmaqla Sofi həmfikirlər tapmaq tələbatını qarşıladı və bu da onun gələcəkdə şəxsi inkişafına dəstək verirdi (yeni bilik, bacarıqlar, klublar yaratmaq....)<br><br>**Fəallıq**: cütlüklərdə işləyin, səh. 95<br><br>**Suallar**:<br>• Aşağıda verilən mətndə Vaja Pşavela hansı qruplara aidiyyat haqqında danışır?<br>• "Hər bir həqiqi vətənpərvərin hər bir ağıllı kosmopolitin (bizim kimi deyil) vətənpərvər olduğu kimi kosmopolit olması" ilə razısınızmı? Nə üçün belə düşünürsünüz?<br>• Bu fikir bu gün də aktuallığını qoruyub saxlayırmı? Həyat misallarını adlandırın ki, bunda da şəxs həm vətənpərvərdir və eləcə də qlobal vətəndaşdır. | Kompleks tapşırığın inkişafetdirici qiymətləndirmə alətini **Əlavə 10, səh.109-110**-da izləyə bilərsiniz.<br><br>Tapşırığın məhsulunun ehtimal nümunəsini izləyə bilərsiniz: Əlavə 12, səh.112-113.<br><br>Əlbəttə ki, bu nümunə tapşırığın yerinə yetirilməsinə qədər şagirdlər üçün əlçatan olmalı deyil. Müəllim bundan əks əlaqədə istifadə edə bilər. |

| | | |
|---|---|---|
| | **Fəallıq:** qruplarda işləyin, səh. 98<br><br>**Suallar**:<br>• Yazın ki, qlobal vətəndaşları hansı ehtiyaclar və tələbatlar birləşdirir?<br>• Hansı halda insanda beynəlxalq cəmiyyətə aidiyyat hissi yarana bilər?<br>• Şəxs nəyi başa düşməli, nəyi hiss etməlidir ki, yerli aidiyyatdan qlobala tərəf yolu açılsın? Həyatdan, ədəbiyyatdan, mediadan misalları yadınıza salın.<br>• Mühit necə təsir göstərməlidir ki, şəxsiyyətin qlobal vətəndaşlıq xüsusiyyətləri (bilik, bacarıq, yanaşmalar) inkişaf etsin?<br><br>**Fəallıq**: müzakirə (**bu fəallıq şagird dərsliyində yoxdur**)<br><br>**Suallar**:<br><br>• Necə düşünürsünüz, xeyriyyə tədbirinin təşkilatçısı hər hansı bir problemin həlli üçün (məbləğ yığmaq) qonaqları dəvət edəndə nəyi nəzərə almalıdır?<br>• Bu fikrin nailiyyətinə nə səbəb ola bilər? Belə bir qərarı hansı insanlar qəbul edəcəklər? Hansı dünyagörüşləri, dəyərləri olan insanlar?<br>• **Məktubda bu informasiya və nəticələrdən necə istifadə etmək olar?**<br>• **Məktubda adresatın qlobal vətəndaş kimi hesab edilməsini və problemlərin (aclıq, pandemiya..) azalmasında məsuliyyət üzərinə götürdüyünü işarə etməyi düzgün hesab edirsinizmi?**<br>• **Bu işarəni bir-iki cümlə ilə necə formalaşdırarsınız**?<br><br>**Müəllimə tövsiyə**: şagirdlərə dünya vətəndaşı Hyu Evens tərəfindən Nyu Yorkun mərkəzi parkında keçirilən konserti xatırladın. Konsertin biletini yalnız qlobal vətəndaşın hər hansı bir əməli ilə əldə etmək olardı..., bax. Səh. 68 | |

| | | |
|---|---|---|
| | Vəsait: dərslik, özümüzü necə kəşf edək, səh. 100<br><br>**Fəallıq**: qruplarda işləyin, səh. 100<br><br>**Fəallıq**: cütlüklərdə işləyin, səh. 101<br><br>**Fəallıq**: müzakirə edin, səh. 102<br><br>Aşağıda verilən yazı ilə tanış olun və suallara cavab verin:<br>• Dizayner hansı neqativ ictimai hal/hallar haqqında danışır?<br>• Bu yanaşma (müxtəlif təzahürləri ilə) beynəlxalq ictimaiyyət üçün problemi təqdim edirmi?<br>• Yazının müəllifi müxtəlifliyin qəbul edilməməsinə, sosial ədalətsizliyə, stereotiplərə qarşı durmağı necə planlaşdırır?<br>• Dizayner özünü hansı ictimai qrupa aid edir (mətndən irəli gələrək)?<br>• Sizcə, onun fikri/dəyərləri qlobal vətəndaşın dəyərlərinə uyğundurmu? Onu qlobal vətəndaşların ictimai qrupuna aid edə bilərikmi? Nə üçün?<br>• Dizayner beynəlxalq ictimaiyyətin müxtəlifliyin qəbul edilməsi və stereotiplərdən qurtulma kimi ehtiyaclarının həllinə qayğı göstərirmi?<br>• Siz necə düşünürsünüz, hər yerə istənilən geyimlə getmək olarmı?<br>• Restoranın (özəl biznesin) qonaqlar üçün geyim tərzini təsis etməyə ixtiyarı varmı? Ona nəzarət edə bilərmi? Nə üçün?<br>• Konkret halda, hansı hüquqlar bir-birinə zidd olur?<br>• Siz hansını daha mühüm hesab edirsiniz: mülkiyyət hüququnu və ya yerdəyişmə hüququnu? Sübutları adlandırın.<br>• **Demna başqalarının "mən konsepsiyasının" formalaşmasına təsir göstərirmi?**<br>• **Sizcə, təşkilatçı rəngarəng cəmiyyətdən ibarət tədbirdə geyimin müəyyən edilmiş tərzini tələb etməlidirmi ya yox? Necə? Nə üçün?**<br><br>**Müəllimə tövsiyə**: bu vəziyyəti müzakirə etdikdə, şagirdlərə öz fikirlərini söyləmək, sübutlarla əsaslandırmaq imkanını verin. Bu, dilemma vəziyyətidir və bunda azadlıq və qayda, istehlakçının seçim hüququ və istehsalçının istehlakçılara yönümlülük hüququ bir-biri ilə qarşılaşır.... Burada doğru | |

cavab yoxdur, buna görə də şagirdləri əvvəlcədən xəbərdar etməliyik ki, bir-birinin fərqli fikrinə hörmətlə yanaşsınlar.

**Addım 2. Tədbirin təşkilində qonaqların və cəmiyyətin ehtiyac və tələbləri necə və nə dərəcədə nəzərə alınmışdı ki, onlarda bu qrupa aidiyyat hissi dərinləşsin? (əs.təs.2)**

**Vəsait:** Qlobal mühit bizi necə dəyişir? Səh. 104
**Fəallıq**: müzakirə edin, səh. 104

**Fəallıq**: müzakirə edin, səh. 106
**Fəallıq**: müzakirə edin, səh. 107

**Suallar**:

- **Qlobal mühit insanları dəyişir, amma elə bir fərdlər var ki, daha iradəlidirlər və asanlıqla dəyişmirlər və siz, tədbirin təşkilatçısı necə hərəkət etməlisiniz ki, rəngarəng cəmiyyətin fərqli ehtiyaclarını nəzərə alasınız və heç kimi incitməyəsiniz?**
- **Sizin geyim, davranış, menyu, mədəni proqram nöqteyi-nəzərindən fikriniz necədir?**

**Vəsait:** dərslik, nailiyyət yolu müvafiq özünüqiymətləndirmədən də keçir, səh. 109
**Fəallıq**: cütlüklərdə işləyin, səh. 109

**Fəallıq**: müzakirə edin, səh.112

**Fəallıq:** qruplarda işləyin, səh. 113
- Yeniyetməyə müvafiq qiymətləndirmədə nə yardım edir?
- Ona öz imkanlarında şübhələnməyə nə təkan verir?
- Böyüklərə özünəgüvənin güclənməsində nə yardım edir?
- Özünəgüvənin zəifləməsinə nə səbəb olur?

| | | |
|---|---|---|
| | • Mümkündürmü ki, insan hər zaman və hər şeydə özünə əmin olsun? Nə üçün belə düşünürsünüz, nümunələr gətirin.<br>• İnsan səhvlər xaricində yaşaya bilərmi? Nə üçün?<br>• Səhvi yeni imkana necə keçirmək olar? İnsan üçün başqaları tərəfindən tanınma nə üçün vacibdir?<br>**Bu müzakirədən çıxardığınız nəticə məktubunuzda öz əksini necə tapacaqdır?**<br><br>**Tapşırıq**: səh. 113<br><br>Şagirdlər evdə, tədbirdə, geyim, davranış, menyu və mədəni proqram haqqında bir neçə iki-üç cümlədən ibarət mətn hazırlamalıdırlar. Bu qaydanı nə üçün seçdiklərini isə şifahi söyləməlidirlər.<br><br>**Addım 3. Dəvət olunan cəmiyyətlə hər birinin harmonik əməkdaşlığı nə dərəcədə vacib və hərtərəfli faydalı olacaq**? **(Əs.təs.4)**<br><br>**Vəsait**: dərslik, emosiyaların idarə edilməsi, kütlələrin psixologiyası, səh. 114-119<br><br>**Fəallıq**: qruplarda işləyin, səh. 114<br><br>**Fəallıq**: yadınıza salın, səh. 115<br><br>**Fəallıq**: oyun, səh. 115<br><br>**Müəllimə tövsiyə**:<br>Şagirdləri dərsliyin 115-ci səhifəsində verilən "emosiyaların tanınması" fəallığının şərti ilə tanış edirik. Siz kiçik qutuya/səbətə üzərinə aşağıda sadalanan emosiyalar və bu emosiyaları ifadə edən bədən hissələri yazılmış eyni kartları yerləşdiririk. Şagirdlər də bu emosiyaları ifadə etməlidirlər (özünüz əlavə edə bilərsiniz və ya emosiyaları təkrar edə bilərsiniz). Şagirdlərin sayı qədər kartınız olmalıdır. Rolu mənimsəmək üçün 1-2 dəqiqə | |

| | | |
|---|---|---|
| | vaxt verirsiniz və bundan sonra hər biri lövhəyə yaxınlaşır, bu emosiyanı canlandırır, sinif isə tapır.<br>1. Sevgi - əllər<br>2. Sevgi – üz ifadəsi<br>3. Darıxmaq - əllər<br>4. Darıxmaq – üz ifadəsi<br>5. Qəzəb – qaşlar<br>6. Qəzəb - əllər<br>7. Təəccüb - əllər<br>8. Təəccüb – üz ifadəsi<br>9. Səbirsizlik - əllər<br>10. Səbirsizlik – ayaqlar<br>11. Kədər – üz ifadəsi<br>12. Kədər – çiyinlər<br>13. Sevinc - əllər<br>14. Sevinc – üz ifadəsi<br>15. Qorxu – ayaqlar<br>16. Qorxu - əllər<br>17. Təəssüf – üz ifadəsi<br>18. Məğrurluq – çiyinlər<br>19. Küsmək – üz ifadəsi<br>20. Küsmək - bədən<br><br>Fəallığı ümumiləşdirirsiniz ki, bədən dili ilə emosiyaları necə ifadə edə bildilər və necə tapa bildilər.<br><br>**Fəallıq**: cütlüklərdə işləyin, səh. 116<br><br>**Fəallıq**: müzakirə edin, səh. 119<br><br>**Fəallıq**: debatlar, səh. 120<br><br>**Vəsait**: dərslik, nə üçün empatik olmalıyam? Səh. 121<br><br>**Fəallıq**: qruplarda işləyin, səh. 121 | |

| | | |
|---|---|---|
| | **Fəallıq**: müzakirə edin, səh. 121<br><br>**Fəallıq**: cütlüklərdə işləyin, səh. 122<br><br>**Fəallıq**: müzakirə edin, səh. 123<br><br>**Fəallıq**: qruplarda işləyin, səh. 123<br><br>**Fəallıq**: ev tapşırığı ilə tanışlıq- müzakirə<br>**Suallar**:<br>• Hansı prinsipləri nəzərə almaqla qaydaları tərtib etmisiniz?<br>• Bu qaydalar nə dərəcədə demokratikdir? Azlıqların, qadınların, məhdud imkanlı şəxslərin maraqlarını nəzərə alırmı?<br>• Nəzərə alırsınızmı ki, adresatlarınızda mənfi emosiyaya nə səbəb ola bilər?<br><br>**Yekunlaşdırma**: **alınan məlumatları nəzərə almaqla dəvətnaməni necə formalaşdırarsınız, nəyi və necə istifadə edərsiniz?** | |

| **Uzunmüddətli məqsəd** | **Məsələ**: | **Əsas sual / suallar** | **Aralıq dərs məqsədi** |
|---|---|---|---|
| **Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər** | Qloballaşma və kommunikasiya<br><br>**Altməsələ**: münaqişənin idarə olunması | • Reportajda pozitiv sülhün üstünlüyünü və münaqişənin effektiv idarə edilməsi imkanlarını necə göstərim? | **Kompleks tapşırığın şərti** |

| | | | |
|---|---|---|---|
| | **Altanlayış**:<br>İnsanın tələbatları və ehtiyacları;<br>Sosial-emosional vərdiş-bacarıqlar; | • Nə üçün medianın qeyri-aqressiv siyasəti şəxsiyyətin və cəmiyyətin inkişafı üçün vacibdir? | |
| **Cəmiyyət – (*şəxsiyyət, fərd və cəmiyyət və sosiallaşma*)**<br><br>**<u>Nəticələr:</u>**<br><br>**Orta pillə:**<br>**1,2.**<br>1. İnsan şəxsiyyətdir, öz dünyagörüşü (ideyalar, dəyərlər) və məqsədləri ilə; insanın öz şəxsiyyətini sərbəst inkişaf etdirmək hüququ var;<br>2. İnsanın müxtəlif *(fizioloji, təhlükəsizlik, sosial əlaqələr və s.)* tələbatları var, bunları qarşılamasa şəxsi inkişafını bacarmayacaqdır;<br>3. Başqa insanlarla/sosial qruplarla/qurumlarla ünsiyyət insanın şəxsi inkişafına dəstək verir;<br>4. Assertivlik (insanın bacarığıdır ki, başqasını təhqir etmədən öz fikrini sərbəst ifadə etsin) şəxsiyyətin və sosiumun harmonik əlaqəsinə dəstək verir. | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br><br>**I mərhələ: kompleks tapşırığın forması**<br><br>**Addım 1.** Öyrənilən məsələ ilə bağlı öz biliyimi necə göstərə bilərəm?<br><br>**Resurs**: dərslik, səh.125<br>**Altməsələ**: tapşırığın şərti<br>**Fəallıq**: mətn üzərində iş (tapşırığın şərti ilə tanış olun)<br>**Suallar**:<br>• Tapşırıq sizdən nəyi tələb edir?<br>• Bu tapşırığı yerinə yetirmək maraqlıdırmı?<br>• Belə bir planetdə yaşamağı arzulayırsanmı?<br>• Hansı materialı hazırlamalısan?<br>**Altməsələ**:<br>• Reportaj nədir?<br>• Reportajlar yazmısınızmı, oxumusunuzmu, eşitmisinizmi? (**futbol, hər hansı bir idman yarışması haqqında, müharibə vəziyyətindən reportaj, izdihamlı yerlərdən reportaj**)<br>• Reportaj bizə nəyi hiss etdirməlidir?<br>• Necə, yazının hansı üsulları ilə iştirak effekti əldə edilir?<br>• Təsəvvür edin ki, indi, sinif otağımızdan radioreportaj aparmalıyıq.... Nəyi və necə söyləyərdiniz?<br>• Reportajın strukturu necədir? (başlıq, giriş, əsas hissə, son)<br><br>**Müəllimə tövsiyə**: prezentasiyanın diaqnostika sualları (**Əlavə 1, səh. 95-i izləyin**), prezentasiyanın forması üzrə razılığa gəlirlər.<br><br>**II mərhələ: kompleks tapşırığın məzmunu** | | Tapşırıq 2.<br><br>**Kompleks tapşırığın şərti**<br>Təsəvvür edin ki, jurnalistsiniz və reportaj hazırlamaq üçün sizi Sülh planetinə göndəriblər. Bu planetdə silahlı münaqişələr və müharibələr yoxdur, orada heç kim silahın hazırlanması üçün pul xərcləmir, çünki belə bir ehtiyac yoxdur.<br>Qalanı isə sizin xəyalınızdan asılıdır.<br>**Reportaj** hazırlayın (250-300 söz), bunda da Sülh planetinin sakinlərinin necə yaşadıqlarını, necə əlaqə saxladıqlarını, məişət münaqişələrinin olub-olmadığını təsvir edəcəksiniz? Mediaları necə işləyir, sosial şəbəkələrdən istifadə edirlərmi və ya yox.<br>**İşinizdə/işinizin təqdimatında xüsusilə vurğulayın:**<br>1. Sülh planetinin sakinlərinin dünyagörüşü necədir, hansı maraqları var, onların inkişaf azadlığı məhdudlaşdırılmır ki? (**Əs.təs.1**)<br>2. Onların ehtiyacları və tələbatları necə nəzərdə tutulmuşdur? Özlərini gerçəkləşdirə bilirlərmi? (**Əs.təs.2**)<br>3. Sülh planetinin sakinləri bir-biri ilə, müxtəlif qruplarla necə əməkdaşlıq edirlər? Onların əlaqəsi harmonikdirmi (misallar gətirin)? Cəmiyyət nə qədər aktivdir və onun hansı qayğıları var? (**Əs.təs.3,4**) |

| | | |
|---|---|---|
| | **Addım 1. Sülh planetinin sakinlərinin dünyagörüşü necədir, hansı maraqları var, onların inkişaf azadlığı məhdudlaşdırılmır ki? (Əs.təs.1)**<br><br>**Fəallıq**: müzakirə<br><br>**Suallar**:<br>• Son dövrün qlobal problemlərindən nəyi adlandırarsınız?<br>• Bu problemdən nə gözlənilir, insan itkiləri necədir? İqtisadi itkilər? Müharibə və silahlı münaqişələr zamanı ətraf mühitin itkiləri?<br>• "Müharibənin qalibləri yoxdur" ifadəsini necə başa düşürsünüz?<br>• Müharibə zamanı insanların hansı hüquqları məhdudlaşır?<br>• Müharibəyə qədər hansı imkanı əllərindən buraxırlar?<br>• Dünyanı başqa silahlı münaqişələr xaricində təsəvvür edirsinizmi?<br>• Sizcə, belə bir dünyada yaşamaq necədir?<br>• Silahlı münaqişələrin və müharibələrin olmadığı bir mühitdə hansı dəyərlər vacib olacaqdır?<br>• Bu mühitin sakinlərinə özünüinkişaf (elm, təhsil, incəsənət, yeniliklərin mənimsənilməsi....) imkanı nə dərəcədə veriləcəkdir?<br><br>**Vəsait**: dərslik, kommunikasiya, səh. 126<br>**Fəallıq**: müzakirə edin, səh. 126<br><br>**Dərslik**: dərslik, "bu, maraqlıdır", səh. 128<br>**Fəallıq**: mətn üzərində iş<br>**Suallar**:<br>• Münaqişələrin inkişaf mərhələlərini yadınıza salın və bu prosesdə kommunikasiyanın rolu haqqında nə deyərsiniz?<br>• İnsanlar düzgün kommunikasiyadan istifadə edərək münaqişələrin qarşısını ala bilərlərmi?<br>• Səhv, aqressiv kommunikasiya münaqişənin səbəbi olurmu?<br>• Nə üçün Avropa komissiyası əməkdaşlarına bu sözlərdən istifadə etməyi qadağan etdi?<br>• Sıravi insanların onları yamsılamağı arzu edilirmi? Nə üçün? | Kompleks tapşırığın inkişafetdirici qiymətləndirmənin alətini Əlavə 10-da izləyə bilərsiniz, səh. 109-110. |

**Vəsait**: dərslik, səh.130

**Fəallıq**: qruplarda işləyin – hava şarı ilə səyahət, yekunlaşdırma

**Suallar**:

- Qrup işi zamanı münaqişə baş verməmişdi ki?
- Təqdimatçılar bir-birini və sinfi sözlə necə inandıra bildilər?
- Kommunikasiyanın münaqişəni tənzimləmək qüvvəsi varmı?

**Müəllimə tövsiyə**: bu fəallıq münaqişə üçün bir növ əsas verirmi; proses necə aparılır (dinc və ya aqressiv); bunu müşahidə etməklə müzakirə suallarını əlavə edə bilərsinizmi;

**Fəallıq**: müzakirə edin, səh. 131

**Addım 2. Onların ehtiyacları və tələbatları necə nəzərdə tutulmuşdur? Özlərini gerçəkləşdirə bilirlərmi? (Əs.təs.2)**

**Vəsait**: dərslik, müxtəlif mühitdə münaqişələr, səh. 132

**Fəallıq**: müzakirə edin, səh. 132

**Vəsait**: ünsiyyət tərzi haqqında cədvəl, səh.133

**Fəallıq**: mətn üzərində iş, müzakirə

**Suallar**:

- Necə düşünürsünüz, cədvəldə verilən hansı davranışın daşıyıcısı olan insanlar öz ehtiyaclarını və tələblərini ödəyə bilirlər? Nə üçün?
- Aqressiv davranışlı insan kimin hesabına "özünügerçəkləşdirə" bilir?
- Belə bir yanaşma ədalətlidirmi?
- Passiv davranışlı insanı müdafiə etmək kimə tapşırılır?

| | | |
|---|---|---|
| | • Bu cəhətdən də davranışımıza nəzarət etməliyikmi?<br><br>**Vəsait**: dərslik, rəngarəng cəmiyyətdə münaqişələr,səh. 134<br><br>**Fəallıq**: müzakirə edin, səh. 134<br><br>**Fəallıq**: cütlüklərdə iş, səh. 136<br><br>**Fəallıq**: müzakirə edin, səh. 137<br><br>**Fəallıq**: müzakirə (bu fəallıq şagird dərsliyində yoxdur)<br><br>**Suallar**:<br>• İkinci Dünya Müharibəsindən sonra dünyada cəmi 26 gün dinc olmuşdur. Bu statistika haqqında nə deyə bilərsiniz?<br>• Bəşəriyyət İkinci Dünya müharibəsindən sonra neçə təşkilat və beynəlxalq saziş yaratmışdı, nəticə?<br>• Hansı çıxış yolunu görürsünüz? Sülhün quruculuğunun, pozitiv sülhün perspektivi varmı? Bunun üçün nə lazımdır?<br>• **Tapşırığın hazırlanması üçün bu məlumatlar, nəticələr köməyinizə necə gələcəkdir?**<br>• **Necə düşünürsünüz, reportajınızın qəhrəmanları tam əks əhval-ruhiyyəyə, davranışa, kommunikasiyaya malik insanlar ola bilərmi? Onların kobud leksika və dünyagörüşləri olacaqmı? Nə üçün?**<br>• **Planetimizin “xeyr” misalları istənilən vəziyyətin təsvirində yardım edəcəkmi?**<br>• **Reportajınızda pozitiv sülh konsepsiyasından necə istifadə edə bilərsiniz?**<br><br>**Addım 3. Sülh planetinin sakinləri bir-biri ilə, müxtəlif qruplarla necə əməkdaşlıq edirlər? Onların əlaqəsi harmonikdirmi (misallar gətirin)? Cəmiyyət nə qədər aktivdir və onun hansı qayğıları var? (Əs.təs.3,4)** | |

**Suallar:** (əlavə)

- Ötən fəallıqlarda sözügedən sülh dialoqunun (səh. 137-138) iştirakçıları sizin reportajın qəhrəmanları ola bilərmi?
- Fikirləşin, hansı xüsusiyyətləri saxlayarsınız, nəyi dəyişərsiniz?

**Vəsait**: dərslik, rəqəmsal media: imkanlar və risklər, səh. 139

**Fəallıq**: müzakirə edin, səh. 139

**Fəallıq**: yadınıza salın, səh. 133

**Fəallıq**: debatlar, səh. 142

**Müəllimə tövsiyə**: debatlarda ayrılan rezolyusiyalardan hər iki rezolyusiyanın fəaliyyət hüququ var və bu da medianın ikili xarakteridir. Bir tərəfdən, vətəndaş cəmiyyətinin bir hissəsi kimi, obyektiv informasiyanın çatdırıcısı, hakimiyyətin nəzarətçisi, qanunsuzluğun şahidi kimi, həssas qruplara advokatlaşma aparsın, "tribunu" kommunikasiya üçün camaata və hakimiyyətə versin, amma digər tərəfdən də medianın özünün xərcləri var və bazar qaydaları ilə paylaşmalıdır: satılan olmalı, reklam qazanmalıdır. Burada medianın alış riskləri yaranır və bu da bəzən vicdanlı biznesdən rüşvətxorluq sxeminə keçir. Media ictimai ab-havalar yaradır və bu da siyasətçilər və biznes, cinayət aləmi üçün çox şirnikdirici olur. Bu fəallığı yekunlaşdırdıqda, birinci və dördüncü qrupların sübutlarını bütövləşdirin ki, medianın, vətəndaş cəmiyyətinin bir hissəsi kimi **rolunu daha yaxşı ayırasınız və işarə edəsiniz ki, reportajda medianı aktiv ictimai qrup kimi təqdim etsinlər.**

**Fəallıq**: müzakirə edin, 142

**Fəallıq**: yadınıza salın, səh. 146

**Fəallıq**: qruplarda işləyin, səh. 146

**Fəallıq**: yekun müzakirə

**Suallar**:

- Son üç fəallıqda söhbət trollar və hakerlər haqqında gedirdi, bu qarşıdurma haqqında nə deyə bilərsiniz?
- Qlobal dünya üçün mübarizə vasitələrinin dəyişməsi əlamətdar haldır. Trolların fəaliyyətini necə dəyərləndirərsiniz? Hakerlərin fəaliyyətini?
- Bu münasibət necə bir əlaqələrin nümunəsidir?

**Müəllimə tövsiyə**: yekunlaşdırmaq üçün idarə edilən təcrübədən istifadə etmək olar və şagirdlərdən xahiş edin ki, başlanılan abzasları başa çatdırsınlar:

**“**Səhər saat 8-dir, evdən çıxıram. Tər-təmiz küçə güllərlə doludur. Birdən pəncərələrdən biri açılır və.... **”**

“Oyuncaqlar sexindəyəm. Hər kəs öz  işini görür. Oradaca sərgi təşkil edilib – heç bir silah və pistolet çalışmır. Hər kəsin üzündə təbəssüm var. Musiqinin səsi yavaş-yavaş artır, hər kəs işini bitirir və ....”

“Şəhərin ortasında dairəvi binadır. “Mediasiya evi” yazılmışdır. Binada cəmi üç-dörd nəfər rastıma çıxdı. Xoş mühitdir, yaşıllıq, sakit musiqi ilə. İki qoca ilə söhbətə başladım...”
“Meydanda böyük informasiya baneri yerləşdirilib. Onda oxuyuram: jurnalistlər əhaliyə həftədə 2 gün yalnız müsbət xəbərlər, 2 gün isə maarifləndirici verilişlər çatdırırlar. Əhali isə cavab olaraq...”

Bu fəallıq şifahi keçirilir və şagirdlərin yaradıcılıq bacarıqlarını aktivləşdirir – verilən tapşırıq çox hissədə xəyaldan asılıdır.

| **Uzunmüddətli məqsəd**<br><br><br>**Hədəf anlayışı və bununla bağlı əsas təsəvvürlər** | **Məsələ**:<br>Qloballaşma və kommunikasiya<br><br>**Altməsələ**: informasiyanın çeşidlənməsi<br><br>**Altanlayış**:<br>İnsanın tələbatları və ehtiyacları,<br>İctimai qruplar – media | **Əsas sual / suallar**<br>• **Mini-dərslikdə** media savadlılığı və konkret olaraq, informasiyanın çeşidlərə ayrılması üçün lazımi məsləhətləri necə əks etdirim və insanın şəxsi inkişafı üçün onların əhəmiyyətini izah edim? | **Aralıq dərs məqsədi**<br><br>**Kompleks tapşırığın şərti** |
|---|---|---|---|
| **Cəmiyyət – (*şəxsiyyət, fərd və cəmiyyət və sosiallaşma*)**<br><br>**<u>Nəticələr:</u>**<br><br>**Orta pillə:**<br>**1,2.**<br>1. İnsan şəxsiyyətdir, öz dünyagörüşü (ideyalar, dəyərlər) və məqsədləri ilə; insanın öz şəxsiyyətini sərbəst inkişaf etdirmək hüququ var;<br>2. İnsanın müxtəlif *(fizioloji, təhlükəsizlik, sosial əlaqələr və s.)* tələbatları var, bunları qarşılamasa şəxsi inkişafını bacarmayacaqdır;<br>3. Başqa insanlarla/sosial qruplarla/qurumlarla ünsiyyət insanın şəxsi inkişafına dəstək verir;<br>4. Assertivlik (insanın bacarığıdır ki, başqasını təhqir etmədən öz fikrini sərbəst ifadə etsin) şəxsiyyətin və sosiumun | **Kompleks tapşırığın üzərində iş mərhələləri (resurslar, fəallıqlar):**<br><br>**I mərhələ: kompleks tapşırığın forması**<br><br>**Addım 1.** Öyrənilən məsələ ilə bağlı öz biliyimi necə göstərə bilərəm?<br><br>**Vəsait**: dərslik, səh. 125<br><br>**Fəallıq**: kompleks tapşırığın mətni üzərində iş (tapşırığın şərti ilə tanış olun)<br><br>**Suallar**:<br>• Tapşırıq sizdən nəyi tələb edir?<br>• Bu tapşırığın yerinə yetirilməsi maraqlıdırmı?<br><br>**Müəllimə tövsiyə**: şagirdlərə izah edirik ki, bu, praktiki məsləhətlərin mətni olmalıdır və bu məsləhətlərin prezentasiyası üzrə razılığa gəlirsiniz (yaxud da elektron forma ilə və ya material)<br><br>Prezentasiyanın diaqnostik sualları ilə **Əlavə 1. Səh. 95**-də tanış ola bilərsiniz.<br>**II mərhələ: kompleks tapşırığının məzmunu**<br><br><br>**Addım 1. Sosial media cəmiyyətin dünyagörüşünə, dəyərlərinə, maraqlarına necə təsir edir və nə üçün**? **(Əs.təs.1)**<br><br>**Resurs:** dərslik, rəqəmsal media: imkanlar və risklər, səh. 139 | | **Tapşırıq 3**<br>**Kompleks tapşırığın şərti**<br>Son paraqrafda planetin səkkiz milyardıncı sakininə verilən müraciətlə bir də tanış olun. Xüsusilə də onun 6-cı bəndi ilə. Burada saysız-hesabsız məlumata əlçatma rəqəmsal dövrün üstünlüyü kimi təqdim edilir, amma sonsuz informasiyanın istifadəçiyə göstərdiyi risklər haqqında heç nə deyilmir. Yeni həmplanetlinizə yardım edin və informasiyanın çeşidlənməsinin **mini-dərsliyini** hazırlayın (250-300 söz) və bu da ona informasiya okeanında yol tapmaqda yardım edəcəkdir. Rəqəmsal media imkanlarını və risklərini xatırlatmağı unutmayın və onlarla münasibətdə media savadlılıq bacarığının zərurətini və saxta informasiyanın təzahürü üsullarını izah edin. |

| | | |
|---|---|---|
| harmonik əlaqəsinə dəstək verir. | **Fəallıq**: müzakirə edin, səh. 139<br><br>**Suallar**:<br>• Likanın peşəkar nailiyyətində sosial şəbəkələrin rolu necədir?<br>• Yeni texnologiyalar onun şəxsiyyətinə, karyerasına nə kimi təsir göstərdi?<br>• Onun qlobal peşəsinin olduğunu düşünürsünüzmü və ya yox? Fikrinizi nə ilə əsaslandıra bilərsiniz?<br>• Şəxs hansı biliyin, bacarıqların və yanaşmaların daşıyıcısı olmalıdır ki, belə bir çağırışlarla ayaqlaşa bilsin?<br>• Likanın özünə güvənməsinə hansı amillər səbəb olmuşdu?<br><br>**Fəallıq**: yadınıza salın, səh. 141<br><br>**Fəallıq**: müzakirə edin, səh. 143<br><br>**Fəallıq**: yadınıza salın, səh. 146<br><br>**Fəallıq**: qruplarda işləyin, səh. 146<br><br>**Suallar**:<br><br>• Son üç fəallıqlda söhbət trollar və hakerlər haqqında idi, bu qarşıdurma haqqında nə deyə bilərsiniz?<br><br>**Vəsait**: dərslik, qloballaşma və kommunikasiya, səh. 126<br>**Fəallıq**: mətn üzərində iş<br><br>**Suallar**:<br><br>• Münaqişələrin inkişaf mərhələlərini yadınıza salın və bu prosesdə kommunikasiyanın rolu haqqında nə deyə bilərsiniz?<br>• İnsanlar düzgün kommunikasiyadan istifadə edərək münaqişələrin qarşısını ala bilərlərmi?<br>• Səhv, aqressiv kommunikasiya münaqişənin səbəbi olurmu? | **İşinizdə/işinizin prezentasiyasında xüsusilə vurğulayın:**<br>• Sosial media cəmiyyətin dünyagörüşünə, dəyərlərinə, maraqlarına necə təsir edir və nə üçün? **(Əs.təs.1)**<br>• Rəqəmsal media istifadəçilərin obyektiv informasiya qəbul etmək və müvafiq olaraq düzgün qərarlar qəbul etmək və şəxsi inkişafa imkan vermək imkanlarını necə yaradır/məhdudlaşdırır? **(Əs. təs. 2)**<br>• Beynəlxalq ictimaiyyətlə sosial media necə olur, qurumlarla əməkdaşlıq üçün instrument/kanalın əhəmiyyəti.**(Əs.təs.3)**<br>• Sosial medianın beynəlxalq ictimaiyyət və qurumlarla əməkdaşlıq üçün alət/kanal kimi əhəmiyyəti nədən ibarətdir? **(Əs.təs.4)**<br><br>**Kompleks tapşırığın inkişafetdirici qiymətləndirmə aləti, Əlavə 10, səh. 109-110** |

| | | |
|---|---|---|
| | • Nə üçün Avropa komissiyası əməkdaşlarına bu sözlərdən istifadə etməyi qadağan etdi?<br>• Sıravi insanların onları yamsılamağı arzu edilirmi? Nə üçün?<br>• Media ilə yayımlanan qeyri-obyektiv informasiya münaqişəyə səbəb ola bilərmi?<br><br>**Addım 2**. **Rəqəmsal media istifadəçilərin obyektiv informasiya qəbul etmək və müvafiq olaraq düzgün qərarlar qəbul etmək və şəxsi inkişafa imkan vermək imkanlarını necə yaradır/məhdudlaşdırır**? **(Əs. təs. 2)**<br>**Vəsait**: dərslik, müxtəlif mühitdə münaqişələr, səh. 132<br><br>**Müəllimə tövsiyə**: debatlarda ayrılan rezolyusiyalardan hər iki rezolyusiyanın fəaliyyət hüququ var və bu da medianın ikili xarakteridir. Bir tərəfdən, vətəndaş cəmiyyətinin bir hissəsi kimi, obyektiv informasiyanın çatdırıcısı, hakimiyyətin nəzarətçisi, qanunsuzluğun şahidi kimi, həssas qruplara advokatlaşma aparsın, “tribunu” kommunikasiya üçün camaata və hakimiyyətə versin, amma digər tərəfdən də medianın özünün xərcləri var və bazar qaydaları ilə paylaşmalıdır: satılan olmalı, reklam qazanmalıdır. Burada medianın alış riskləri yaranır və bu da bəzən vicdanlı biznesdən rüşvətxorluq sxeminə keçir. Media ictimai ab-havalar yaradır və bu da siyasətçilər və biznes, cinayət aləmi üçün çox şirnikdirici olur. Bunun üçün də saxta reklam yaranır, “qara piar”, saxta xəbərlər. Saxta xəbərlər isə yanlış qərarların əsasıdır, cəmiyyət isə idarə ediləndir.<br><br>**Addım 3. Beynəlxalq ictimaiyyətlə sosial media necə olur, qurumlarla əməkdaşlıq üçün instrument/kanalın əhəmiyyəti və sosial şəbəkələrdə, o cümlədən də mediada nifrət dili ilə necə qarşılaşırıq (Əs.təs.3.4)**<br><br>**Resurs:** dərslik, “Bu, maraqlıdır” səh. 129<br>**Fəallıq:** mətn üzərində iş<br><br>**Suallar**:<br>• Münaqişələrin inkişaf mərhələlərini yadınıza salın və bu prosesdə kommunikasiyanın rolu haqqında nə deyərsiniz? | |

| | | |
|---|---|---|
| | • İnsanlar düzgün kommunikasiyadan istifadə edərək münaqişələrin qarşısını ala bilərlərmi?<br>• Səhv, aqressiv kommunikasiya münaqişənin səbəbi olurmu?<br>• Nə üçün Avropa komissiyası əməkdaşlarına bu sözlərdən istifadə etməyi qadağan etdi?<br>• Sıravi insanların onları yamsılamağı arzu edilirmi? Nə üçün?<br><br>**Fəallıq**: qruplarda işləyin – səh.130, hava şarı ilə səyahət, yekunlaşdırma<br><br>**Suallar**:<br><br>• Qrup işi zamanı münaqişə baş verməmişdi ki?<br>• Təqdimatçılar bir-birini və sinfi sözlə necə inandıra bildilər?<br>• Kommunikasiyanın münaqişəni tənzimləmək qüvvəsi varmı?<br><br>**Fəallıq**: müzakirə edin, səh. 131<br><br>**Vəsait**: dərslik, rəngarəng mühitdə münaqişələr, səh. 132<br><br>**Fəallıq**: müzakirə edin, səh. 132<br>**Vəsait**: ünsiyyət tərzi haqqında cədvəl, səh.133<br><br>**Fəallıq**: mətn üzərində iş, müzakirə<br><br>**Suallar**:<br><br>• Necə düşünürsünüz, cədvəldə verilən hansı davranışın daşıyıcısı olan insanlar öz ehtiyaclarını və tələblərini ödəyə bilirlər? Nə üçün?<br>• Aqressiv davranışlı insan kimin hesabına “özünügerçəkləşdirə” bilir?<br>• Belə bir yanaşma ədalətlidirmi?<br>• Passiv davranışlı insanı müdafiə etmək kimə tapşırılır?<br>• Bu tərəfdən də davranışımıza nəzarət etməliyikmi?<br><br>**Vəsait**: dərslik, rəngarəng cəmiyyətdə münaqişələr,səh. 135 | |

| | | |
|---|---|---|
| | **Fəallıq**: cütlüklərdə iş, səh. 136<br><br>**Fəallıq**: müzakirə edin, səh. 136<br><br>**Müəllimə tövsiyə**: sonuncu fəallıqda üzərində işlənilləsi mətndə sülh qurucuları medianı sülh fəaliyyətini işıqlandırmadığına görə tənqid edirlər. Şagirdlərə sual verin: hansı verilişlərə baxırsınız? Sülh quruculuğu haqqında veriliş sizi maraqlandırırmı? Nə üçün?<br><br>**Vəsait**: dərslik, bu dünyaya gəlişin mübarək olsun, səh. 150<br>**Fəallıq**: qruplarda işləyin, səh. 150<br>**Fəallıq**: yekunlaşdırma<br>• **Qəbul edilən və sizə məlum olan məlumatdan media savadlılığın hansı bacarıqlarını ayırardınız və nə üçün?** | |

## Əlavələr

### Əlavə 1.

**Diaqnostik suallar**

- Təsvir et, tapşırıq üzərində iş prosesi necə davam etdi;
- Təsvir et, hansı materialı yaratdın;
- Hazırladığın tapşırıq hansı məsələlərə toxunur?
- İzah et ki, nə üçün bu materialı yaratdın? Onun vasitəsilə nəyi demək istəyirdin?
- Necə düşünürsən, tərəfindən həyata keçirilən davranış könüllü fəallıqdırmı?
- Səncə, yaratdığın kompleks tapşırıqla kim maraqlana bilər və nə üçün?
- Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?
- Tapşırıq üzərində işə yenidən başlasaydın, nəyi başqa cür edərdin?
- Ayrı vaxtlar oxşar formada və ya məzmunda tapşırığı yerinə yetirmisənmi?

## Əlavə 2. Bukletin nümunəsi

**Zezva və Mzia vətəndaşlıq axtarmaq üçün zaman qatarında səyahət edirlər**



Gələcəyin qatarı

2022-ci il

**Afina (e.ə. VII-V əsrlər)**



**Afina dayanacağı**

**Vətəndaşlıq**: Solonun islahatına (e.ə. 638-558) görə, Atikada doğulan bütün kişilər vətəndaş idilər.
**Vətəndaşın imtiyazları**: xalq yığıncağında iştirak etmək hüququna malik idi;
**Vətəndaşın vəzifələri**: Hərbi vəzifə
**Qadın hüquqları**: Qadınlara, kölələrə və ya əcnəbilərə vətəndaşlıq verilmədi.
**Xüsusiyyət**: Qədim Yunanıstanda vətəndaşlıq elit xarakter daşıyırdı. Ali qanunverici orqan - Afina xalq məclisi, hökumət şurası, ali idarəetmə orqanı; prisyajnılar məhkəməsi yaradıldı;

**Sənədlər: Solon islahatı**

**Qadın və kişi bərabərliyi**:
Demosun hüquqlarının artmasına baxmayaraq, Afinanın kişi vətəndaşları ilə yanaşı, qadınlar afinalı olsalar belə, tamamilə hüquqsuz qalırdılar.



**Roma (e.ə. VII-V əsrlər)**



**Roma dayanacağı**

**Vətəndaşlıq**: Roma İmperiyasında hər bir azad insana vətəndaşlıq verilirdi; sonradan ilkin şərt 25 il hərbi xidmət keçmək idi.
**Vətəndaşın imtiyazları**: siyasi hüquqlar, seçki, evlilik hüququ; müqavilə bağlamaq, toqa geyinmək hüququ...
**Vətəndaşın vəzifələri**: vergilərin ödənilməsi, hərbi xidmət.
**Qadın hüquqları**: vətəndaşlığın məhdud forması var idi: miqrasiya zamanı səs vermək, dövlət vəzifəsini əldə etmək, ədalətli məhkəmə araşdırması və vətəndaşlığı saxlamaq hüququ yox idi.
**Xüsusiyyət**: İmperatorluq dövründə vətəndaşlar rəsmi olaraq siyasi hüquqlarını itirmədilər, lakin artıq siyasi qüvvəni təmsil etmirdilər.
**Sənədlər**: vətəndaşlığı təsdiq edən diplom
**Qadın və kişi bərabərliyi**: kişilərlə müqayisədə qadınların hüquqları kifayət qədər məhdud idi, baxmayaraq ki, minimal müsbət dəyişiklik müşahidə olunurdu.



**İngiltərə (XIII əsr)**



**İngiltərə dayanacağı**

**Vətəndaşlıq**: feodal dövründə, o cümlədən İngiltərədə də, vətəndaşlıq dəyərsizləşdi. Tabeçilik dövlət və vətəndaş arasında əsas status idi.
**Vətəndaşın hüquq/vəzifələri:** Azadlıqların Böyük Xartiyası (1215 il) vergilər, məhkəmə, kilsə, ticarət, irsilik məsələlərini tənzimləyirdi; eləcə də pul borcgötürənlərə və borcverənlərə limitlər və məsuliyyət təsis edirdi.
**Qadınların hüquqları:** dul qadınların mülkiyyət hüquqlarının məsələsi və evlilik hüququ ayrılmışdı.

**Xüsusiyyət**: Böyük Azadlıqlar Xartiyasının yaradılması hüquqların müdafiəsinin yeni mərhələsinə əsas vermişdi.

**Sənədlər**: Böyük Azadlıqlar Xartiyası

**Qadın və kişi bərabərliyi**: Xartiya imkanlı qadınların hüquqlarını, omların mülklərinin özbaşına nəzarətdən və ərinin qohumlarından qoruyurdu.



| Gürcüstan (2022-ci il)<br><br>Gürcüstan dayanacağı  | | Zezva və Mziaya ekspert məsləhətləri: | Dördüncü dayanacaqda düşüb Gürcüstan vətəndaşlığı üçün müraciət edə bilərsiniz; |
|---|---|---|---|
| **Vətəndaşlıq**: doğum, naturalizasiya, vətəndaşlığın bərpası, başqa əsasla.<br><br>**Vətəndaşın imtiyazları**: seçki hüququ, mülkiyyət, təhsil, hərəkət, məhkəmə, hüquqların müdafiəsi və s.;<br>**Vətəndaşın öhdəlikləri**: vergilərin ödənilməsi, hərbi xidmət;<br><br>**Qadın hüquqları**: Gürcüstan qanunvericiliyinə görə, Gürcüstan vətəndaşları - kişilər və qadınlar bərabər hüquqlara malikdirlər.<br>**Xüsusiyyət**: qanunvericilikdəki gender balansına baxmayaraq, ayrı-seçkilik stereotipləri hələ də Gürcüstanda kök salır, onlardan qurtulmaq hələ ki mümkün olmayıb. Bu stereotiplərin təsiri altında qadınların hüquqları tez-tez pozulur, stereotiplər kişilərə də şamil edilir.<br>**Sənədlər**: Gürcüstan Konstitusiyası; beynəlxalq sənədlər.<br>**Qadınlar və kişilər arasında bərabərlik**: Qadınlar hələ də nadir hallarda rəhbər vəzifələrdə çalışırlar.<br><br> | Nailiyyətli seçim arzulayırıq!<br><br>Vətəndaşlıq məsələləri üzrə internet səhifə vasitəsilə onlayn xidmətdən istifadə etmək olar www.sda.gov.ge | Məlumatlarınız ilk üç tarixi mərhələdə/"dayanacaqda" vətəndaşlıq və ya tabeçilik əldə etmək üçün kifayət deyil. Təəssüf etməyin; mən sizə ora getməyi məsləhət görməzdim, çünki hüquqların müdafiəsinə və bərabərliyin təmin olunmasına zəmanət verilmiş arzunuz bu "dayanacaqlardan" ən yaxşı şəkildə müasir Gürcüstanda həyata keçiriləcək.<br><br>Vətəndaşlıqla bağlı məsələlər üçün şəxs Ədliyyə Evinə və ya müvafiq ərazi xidmətinə müraciət edə bilər. | Bu halda sizin – vətəndaşlıq əldə etmək arzunuz – təmin olunacaq ki, bu da digər hüquqlarla birlikdə sizə Avropaya vizasız səyahət etmək hüququ verəcək!<br><br>Hüquqların qorunması və bərabərliyin təmin edilməsi baxımından Gürcüstan demokratik ölkədir və bu, hüquqi cəhətdən təmin edilir, lakin gürcü demokratiyası bu hüquqların faktiki təmin edilməsi prosesini hələ keçməkdədir. Əgər qadın və kişi bərabərliyindən danışırıqsa, bunun da hüquqi səbəbi var, lakin mövcud stereotiplər bütün səviyyələrdə aradan qaldırılmalıdır. Bu prosesdə siz də Gürcüstan vətəndaşları kimi iştirak etməli olacaqsınız |

## Əlavə 3

1. **Beynəlxalq təşkilatın 8 mart 2022-ci il tarixi ilə bağlı elanından çıxarış**

   "Dünyanın gender bərabərliyinə ehtiyacı var – bu gün və hər gün. Yeni və davam edən münaqişələrin, iqlim böhranının və demokratik məkanın azaldığı bir dövrdə biz qlobal miqyasda gender bərabərliyinin azalması təhlükəsi ilə üz-üzəyik. Bu il Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Qadınlar Günü üçün seçdiyi mövzu Dayanıqlı Sabah üçün Gender Bərabərliyidir. Bununla biz qadınların və qızların iqlim dəyişikliyinə uyğunlaşmaqda və qlobal miqyasda mənfi təsirlərin yumşaldılmasında, hamı üçün daha dayanıqlı gələcəyin qurulmasında verdiyi töhfəni tanımaq istəyirik".

2. **Gənclər dəyişikliyi dəstəkləyirlər**

   "Mənim üçün gender bərabərliyi ədalətli məkanın ilkin şərtidir, çünki multimədəni və tolerant ölkə olan Gürcüstan gündəlik həyatda ayrı-seçkilik və bərabərsizlik hallarını azalda bilər", - Məryəm deyir və gəncləri "fəal olmağa, bütün şanslardan istifadə etməyə çağırır. Çünki bu gün başqasının problemi olduğunu düşündüyümüz şey ertəsi gün bizim problemimiz ola bilər və biz bunu təkbaşına edə bilmərik."

   "Gender bərabərliyi ilə bağlı çoxlu stereotiplər mövcuddur və təəssüf ki, biz yenə də qadın hüquqlarının məhdudlaşdırılması ilə məşğuluq. Qadınların peşəkar bacarıqlarını inkişaf etdirmək imkanı yoxdur. Qızın diplomunun olması arzuolunandır, lakin bu diplom simvolikdir, qızın asanlıqla evlənəcəyinə işarədir", - Ləman deyir və əlavə edir ki, kişinin gender rolu ilə bağlı yayılmış fikirlərə görə, kişinin ağlaması və ya hər hansı fiziki və ya emosional zəifliyini ifadə etməsi qəbul edilmir".

   "Geniş yayılmış stereotiplərdən söz düşmüşkən, 20 yaşlı Aynur kəndlərində yayılmış tendensiyanı misal gətirir. Buna əsasən, qızların hüquqları yoxdur ki, günortadan sonra axşam saatlarında tək-tənha bayıra çıxsınlar. Oğlanlar isə nəinki bayıra çıxa bilər, hətta onların evə qayıtmamaq, başqa yerdə qalmaq ixtiyarları var. Qızların buna ixtiyarları yoxdur".

   Qvantsa uşaqların tərbiyəsi prosesində diqqəti ataların iştirakının azlığına yönəldir. Onun fikrincə, "bir çox hallarda gender bərabərliyi haqqında danışdıqda, elə bir hallara təsadüf edirik ki, gender bərabərliyi düzgün, adekvat şəkildə başa düşülmür. Bunu erkən yaşlarından başlasaq daha yaxşı olardı, çünki bərabərsizliyin təməli məhz erkən yaşlarından qoyulur".

*Mənbə BMT-nin Əhali Fondunun (UNFPA) məlumatlarına əsasən:* https://bit.ly/3IVceUf

**Əlavə 4**

**Məqaləni necə yazmalıyıq?**

1. Məqalə üçün yaxşı başlıq  çox vacibdir. O, bütün mətnin məzmununu əks etdirməli, eyni zamanda oxucunun diqqətini cəlb etməlidir.

2. Məqaləni planlaşdırın. Məzmunu (məqalənin nədən bəhs etdiyini) əhatə etməlidir, əsas hissə (giriş, müzakirə) və nəticə (xülasə) olmalıdır.

3. Konkret olmağa çalışın; qısa və aydın cümlələr yazın. Yaxşı məqalə yazmaq üçün 200-300 sözlə əhatə etmək olar. Əks halda, oxucu sona qədər oxumağa tənbəllik edəcək və ya sadəcə oxumaqdan boyun qaçıracaq. Ancaq məqalənin mövzusu daha çox şey tələb edirsə, bu halda  maraqlı hissəni ixtisar edərək mətni qısaltmaqdansa, həddi aşa bilərsiniz.

4. Məqaləyə vizual material əlavə edə bilərsiniz: foto, rəsm, sxem, diaqram.

5. Yaxşı məqalənin mətni asan başa düşülən, qrammatik cəhətdən düzgün və xoş oxunulan olmalıdır. Ona görə də yazını bitirdikdən sonra işinizi tənqidi şəkildə nəzərdən keçirmək və səhvləri düzəltmək lazımdır.

6. Məqalə yazmağa başlamazdan əvvəl seçilmiş mövzu ilə bağlı müxtəlif məlumatlar toplamaq lazımdır. Məsələn, müxtəlif ədəbiyyat, ekspert rəyləri ilə tanış olmaq və sizin üçün maraqlı olan ifadələri və məlumatları vurğulamaq lazımdır. Statistikanı seçin. Vizual material tapın. Seçilmiş mövzu ilə bağlı ətrafınızda baş verən prosesləri müşahidə edin.

Hər şey sizin əlinizdə olduqda, nə demək istədiyinizi düşünün, oxucuya izah edin və söyləmək istədiyinizi yuxarıdakı struktura əsasən yerləşdirin.

**Əlavə 5.**

**İnkişafetdirici qiymətləndirmə vasitəsi**

Məsələ - insan və vətəndaşın hüquqları; altməsələ:

Kompleks tapşırıq 1. Tapşırıq 2

Şagirdin adı və soyadı ............................................................

| **Meyar Hədəf anlayışı** | **Demokratiya** |
|---|---|
| **Abstrakt səviyyə**<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fövqəl fənn (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı.<br>Alınan məlumatlara əsaslanaraq, o**, buklet/slayd-şou/məqalədə** narrativi formalaşdırdı və bu da auditoriyaya uyğunlaşdırılmış, **gender bərabərliyi məsələsi ilə bağlı olan** qanunauyğunluq prosesini **əks etdirir, söyləniləni təsdiq etmək üçün misallardan və arqumentlərdən istifadə edir, fərziyyələr söyləyir, tənqidi düşünür. Öyrənilən məsələnin – demokratiya prinsipləri üzərində əsaslanan insan hüquqlarının, xüsusilə də, gender bərabərliyinin müdafiəsi mexanizmi və imkanlarının aktivləşdirilməsinin mahiyyətini qiymətləndirir, həm şəxsən onun üçün, eləcə də yerli və beynəlxalq cəmiyyət üçün. Aldığı bilik və bacarığı vətəndaşlıq mövqeyini bərkitməklə əlaqələndirir.** |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi; | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı gender faktlarını və hadisələrini tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br>**Buklet/slayd-şou/məqalədə** hədəf anlayışı ilə bağlı gender bərabərliyi/ayrı-seçkilik faktları və hadisələri təhlil edilir: insan hüquqları, vətəndaşlıq (gender bərabərliyi) və demokratiya prinsipləri arasında səbəb əlaqəsi **aydın və ardıcıl şəkildə izah olunur. Konkret misalda demokratiya prinsiplərinin insan hüquqlarının həyata keçirilməsi üçün vətəndaşın, gender** |

| | |
|---|---|
| • hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **də daxil olmaqla bütün növ ayrı-seçkiliyin aradan qaldırılması üçün əhəmiyyətini izah edir, yerli və beynəlxalq qanunvericilik normalarını, onların aktivləşdirilməsi mexanizmlərini qeyd edir. Bu normalara riayət olunmasının insan inkişafı, vətəndaş iştirakçılığının aktivləşdirilməsi və davamlı inkişaf baxımından nə qədər vacib olduğu izah edilir.** |
| **Multistruktur səviyyə**<br><br>Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | Şagirdin öyrənilən mövzu ilə bağlı birdən çox assosiasiyası var, baxmayaraq ki, eyni mövzu ilə bağlı ötürdüyü əhvalat nizamlı, ardıcıl görünüşə malik deyil.<br>Şagirdin işində bir neçə əhəmiyyətli cəhətlər qeyd olunur (**o, demokratiya, qadın hüquqları, dəyişiklik mümkünlüyünü qeyd edir, lakin ardıcıl olaraq gender bərabərliyinin nə üçün cəmiyyətdə, ölkədə, dünyada demokratiyanın səviyyəsini müəyyən etmək üçün əhəmiyyətli göstərici olduğunu izah edə bilmir**) |
| **Unistruktur səviyyə**<br><br>Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | Şagirdin tədqiq olunan məsələ ilə bağlı mülahizələri açar sözlər/başlıqlar üzərində sadə və məntiqi əks etdirmə ilə məhdudlaşır. Tapşırıqda bir aspekt düzgün qeyd olunub (**məsələn, qadın və qızların hüquqları**), lakin müzakirə fraqmentikdir və strukturlaşdırılmamışdır. |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir. Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 6.**

**İnkişafetdirici qiymətləndirmə vasitəsi**

Məsələ - qloballaşma; altməsələ:

Kompleks tapşırıq 1. Tapşırıq 2

Şagirdin adı və soyadı ............................................................

| **Meyar Hədəf anlayışı** | Vətəndaş iştirakı |
|---|---|
| **Abstrakt səviyyə**<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fövqəl fənn (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı.<br>**Qlobal vətəndaşların vətəndaş iştirakını, qərarlarını və hərəkətlərini mənalı və bir-biri ilə əlaqəli şəkildə təqdim edən beynəlxalq təşkilat üçün missiyanı/könüllünün gündəliyini tərtib etmişdir. Şagird qlobal vətəndaşlıq üçün təhsilin bəşəriyyətin anlayışını artıracağına, insanların həmrəy olacağına, qlobal problemlərin qayğısına qalacağına inamını ifadə edir.** |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi;<br>• hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı gender faktlarını və hadisələrini tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br>Şagird təşkilatın missiyasında / gündəliyində **problemi və vətəndaş iştirakının formasını, strategiyalarını, həyata keçirmə yollarını bir-biri ilə əlaqəli şəkildə təqdim edir**; vətəndaş iştirakının hədəf anlayışının davamlı ideyalarını düzgün əlaqələndirir (**vətəndaş iştirakının konkret formasının üstünlüyünü izah edir, təşkilatın yaradılması üçün əsas kimi demokratik dəyərləri önə çəkir. Digər qurumlarla əməkdaşlığın, könüllülük və lobbiçiliyin vacibliyini dərk edir, görür. sosial şəbəkələrin qlobal fəaliyyətdə rolu**). Eləcə də vətəndaş iştirakını **demokratiya, davamlı inkişaf və sosiallaşma konsepsiyasının xüsusiyyətləri ilə** əlaqələndirir. |

| | |
|---|---|
| **Multistruktur səviyyə**<br><br>Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | Şagirdin öyrənilən mövzu ilə bağlı birdən çox assosiasiyası var, baxmayaraq ki, eyni mövzu ilə bağlı ötürdüyü əhvalat nizamlı, ardıcıl görünüşə malik deyil.<br>Şagird bir neçə aspekti sadalayır, onları düzgün müəyyənləşdirir (qlobal problemləri vurğulayır, qlobal təhsildən danışır, ümumi standartlardan danışır, lakin işi strukturlaşdırılmış şəkildə təqdim edə bilmir və verilənləri birləşdirə bilmir. |
| **Unistruktur səviyyə**<br><br>Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | Şagirdin tədqiq olunan məsələ ilə bağlı mülahizələri açar sözlər/başlıqlar üzərində sadə və məntiqi əks etdirmə ilə məhdudlaşır. Tapşırıqda bir aspekt düzgün qeyd olunub (**məsələn, qadın və qızların hüquqları**), lakin müzakirə fraqmentikdir və strukturlaşdırılmamışdır.<br>Şagirdin işi çox qısadır, qlobal problemlərdən, könüllülükdən **bəhs edir**, mahiyyəti səthi və parça-parça izah etməyə çalışır, əlaqələr qura bilmir. |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir. Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 7**

**Təşkilatın missiyası**

Missiya - təşkilatın gələcəyin arzu olunan mənzərəsinə/görünüşünə necə nail olmaq niyyətində olduğuna dair bəyanatıdır. Təşkilatın yaradılmasının əsas məqsədi də budur.

Missiya bu suala cavab verir: biz kimik? Təşkilatımız niyə mövcuddur?

Benefisiarlarımız/istehlakçılarımız kimlərdir və fəaliyyətlərimizlə hansı xüsusi ehtiyacları qarşılamağa çalışırıq?

Çox vaxt missiya təşkilatın öz fəaliyyətində rəhbər tutduğu dəyərlər haqqında əsas məlumatları əhatə edir. Təşkilatın dəyərlərinin missiyadan ayrı, müstəqil bir komponent tərəfindən təqdim edildiyi hallar olsa da, təşkilatın qüvvələrini istənilən istiqamətdə səfərbər etmək üçün missiyanın mövcudluğu vacibdir. Yaxşı müəyyən edilmiş missiya bəyanatı qısa, aydın, həvəsləndirici olmalı, təşkilati dəyərləri əks etdirməli və ən əsası ictimai rifahın yaradılmasına yönəldilməlidir.

Təşkilatın fəaliyyətinin planlaşdırılması onun missiyasını, görünüşünü və dəyərlərini müəyyən etməklə başlamalıdır, çünki onlar təşkilatın hansı məqsədlə yaradıldığını, uğurunu necə gördüyünü və bu nəticəyə necə nail olmaq niyyətində olduğunu elan edir.

**Əlavə 8.**

**“Məktəbdə Rusiya-Ukrayna müharibəsi mövzusu” məqaləsindən çıxarış**

Müəllif: Teona Bekiaşvili https://bit.ly/3wXEZgK

Müharibədən böyük bədxahlıq yoxdur və hər hansı bir şəkildə müharibəyə haqq qazandıran hər kəs bədxahlığın tərəfindədir.

Qardaş ölkədə müharibə gedəndə, uşaqlar və qadınlar öldürüləndə, milyonlarla insan öz əzizlərini, evlərini, mülklərini itirəndə, burada Gürcüstanda hansı hissləri keçirdiyimizi yazmaq, danışmaq belə uyğun deyil.

Amma uşaqlarımız, gənclərimiz, şagirdlərimiz də bizimlə həyəcan yaşayırlar. Çoxumuz bu barədə onlarla danışmalıyıq. Bu mövzuda müzakirələri düzgün istiqamətə yönəltmək vacibdir.

Şagirdlərimiz bir tərəfdən gələcəyə qarşı daha çox məsuliyyət, vətənini sevmək və qorumaq ehtiyacını dərk edir, lazım gələrsə, bədheybətlə vuruşmağa hazırdır, çünki inam və həqiqət sizin tərəfinizdədirsə, sonda şər həmişə məğlub olur.

Digər tərəfdən, düşmən obrazı dəhşətli dərəcədə kəskinləşir. Son günlər göstərdi ki, əhalinin əksəriyyəti gürcü qəhrəmanlığının və insanlığın ilk müəllimi Vaja-Pşavelanı səhv başa düşür. Söz yox ki, şagirdlər qonaq və ev sahibi, müvafiq olaraq düşmənlə qarşılaşma, insanın, şəxsiyyətin rolu və əhəmiyyəti kimi məsələləri müzakirə etməlidirlər.

Xüsusilə yeniyetmələrlə diqqətli olmaq lazımdır ki, onlar öz aqressiyalarını sayı çox diqqət çəkən rus millətindən olan insanlara yönəltməsinlər. Söz yox ki, Rusiya vətəndaşlığı sizin başqasından geri olmaq anlamına gəlmir. İndi də Moskva meydanından çarəsiz halda, səsini itirəcək qədər Ukraynanın himnini oxuyan orta yaşlı kişinin həbs olunmasının görüntüləri yayılır. Bu adam əsl insandır, ukraynalılarla eyni qəhrəmandır. Onu həbs gözləyir, amma yenə də mahnı oxuyur. Həm də iki transparantla dayanan nənənin həbs səhnəsini hamımız gördük, lakin Rusiya vətəndaşlarının əksəriyyətinin təcavüzü dəstəklədiyini də bilirik.

Təbii ki, kimin vətəndaş və şəxsiyyət olduğunu biz bu gün təhlil edə bilməyəcəyik. Yaxşı olardı ki, hökumətimiz bu məsuliyyəti öz üzərinə götürsün.

On birinci sinifdə məktəblərimizdə “Baxtrioni”-ni öyrənirlər. Birinci qəhrəman Vajanın əsas qəhrəmanı Luxumu düşməni öldürür, eyni zamanda onun ruhu heç vaxt kobudlaşmır, hər qətlə görə həmişə göz yaşı axıdır.

Kafirə yazığınmı gəldi,
Gözlərinmi yaşardı?
Sözsüz ki, qadınlar
Səni belə görüb,
Tüpürərdilər üzünə” -

qardaşlığı Zezva Qaprindauli ona deyir. Zezva Qaprindauli qəhrəmandır, həm də böyük qəhrəman, amma onun fəlsəfəsi başqadır:

Yazığı gəlmək?! Bəs bizə kimin yazığı gəlmişdi,
Yarıya çapdıqlarında?
Xeyr, Allah özü onları öldürməyi
Tuşetililərə əmr etmişdi!

Təbii ki, ölkəmizə daxil olan Rusiya vətəndaşları dövlətlərinə görə müəyyən narahatçılıq hiss etməlidirlər. Bunu, məncə, zorakılıq və hörmətsizlik xaricində də etmək mümkündür. Məsələn, hər kəsin əlində Gürcüstan ərazisinin 20 faizini və Ukraynadakı müharibəni xatırladacaq hansısa atribut ola bilər. Amma bu cür özünüifadə zamanı da Luxuminin göz yaşlarını unutmamalı, həzz almamalı, özümüz də narahat olmalıyıq ki, digərini biabır edirik, onun işğalçı ölkənin oğlu olduğunu, başqa olduğunu xatırladırıq:

“Deyəcəyik ki, ancaq biz insanıq, bizi ancaq analarımız böyüdüb”.

Özümüzü ifadə etməyimiz başqalarına nifrət deyil, milli ləyaqətin müdafiəsi olmalıdır. Hesab edirəm ki, gürcü məktəblərində bu mövzularda müzakirələr heç vaxt olmadığı qədər aktualdır. Müəllim milli dəyəri oyatmalıdır ki, gələcək nəsillər arasında düşmənə nifrət insanı görmək imkanını itirməsin.

**Əlavə 9**.

**İnkişafetdirici qiymətləndirmə vasitəsi**

Məsələ - Dayanıqlı inkişaf; **Altməsələ**: dayanıqlı inkişaf konsepsiyasının komponentləri (**birini seçin)**

Kompleks tapşırıq 1.

Şagirdin adı və soyadı ..........................................................

| **Meyar** **Hədəf anlayışı** | **Dayanıqlı inkişaf** |
|---|---|
| **Abstrakt səviyyə**<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fənnüstü (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı.<br>Dayanıqlı inkişaf komponentləri haqqında alınan məlumata istinad edərək, bir komponent seçdi, **narrativ yaratdı** və bunu da auditoriyanı nəzərə alaraq, tapşırığın materialı formasında **təqdim etdi**; **misallara istinad edərək** qanunauyğunluqları ayırdı (**dayanıqlı inkişafın müxtəlif komponentlərinin qarşılıqlı təsiri**); **prezentasiya zamanı bu məsələlər üzərində işin onun vətəndaşlıq əhval-ruhiyyəsində nəyi dəyişdiyini analiz etdi.** |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi;<br>• hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı gender faktlarını və hadisələrini tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br>**İş dayanıqlı inkişaf konsepsiyasının konkret komponenti ilə digər komponentlər arasında səbəb-nəticə əlaqəsini göstərir; gələcək perspektivi nəzərə almaqla resurslardan istifadənin cəmiyyətin, o cümlədən beynəlxalq birliyin maraqları ilə bağlı olduğunu əsaslandırır; hər bir fərdin yerli fəaliyyətindən qlobal nəticələr əldə edilir - müsbət və mənfi. Bununla yanaşı, bu, yerli və beynəlxalq hüquq normaları ilə, fərdin vətəndaş məsuliyyəti və fərdi irəliləyişlə bağlıdır.** |
| **Multistruktur səviyyə** | Şagirdin öyrənilən mövzu ilə bağlı birdən çox assosiasiyası var, baxmayaraq ki, eyni mövzu ilə bağlı ötürdüyü əhvalat nizamlı, ardıcıl görünüşə malik deyil. |

| | |
|---|---|
| Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | Şagirdin cavabında bir neçə mühüm aspekt irəli sürülür ((**məsələn, dayanıqlı inkişaf konsepsiyasını, ətraf mühitin mühafizəsini sadalayır), lakin onlar arasında əlaqə qura bilmir... iki-üç məqsədi adlandırsa da**, ayrılıqda müzakirə edir, bunların arasında əlaqələr/yanaşmalar görünmür, mahiyyəti səthidir. Tək-tək və ya bütün aspektləri dərk etsə də, onları bütövləşdirə, yanaşmaları göstərə bilmir. |
| **Unistruktur səviyyə**<br><br>Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | Şagirdin tədqiq olunan məsələ ilə bağlı mülahizələri açar sözlər/başlıqlar üzərində sadə və məntiqi əks etdirmə ilə məhdudlaşır. Şagirdin cavabı çox qısadır və yalnız bir mühüm aspektdən ibarətdir (**məsələn, dayanıqlı inkişafın hər hansı bir məqsədini adlandırır),** səthi məlumatı var, amma sadə prosedurları yerinə yetirə bilər |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir. Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 10**.

**İnkişafetdirici qiymətləndirmə vasitəsi**

**Məsələ -** **Altməsələ**:

**Kompleks tapşırığın şərti** – Tapşırıq 1. Tapşırıq 2. Tapşırıq 3.

Şagirdin adı və soyadı ..........................................................

| **Meyar** **Hədəf anlayışı** | **Cəmiyyət** |
|---|---|
| **Abstrakt səviyyə**<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fövqəl fənn (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı.<br>**İşində (dəvət məktubu/reportaj/mini-bələdçi) öz narrativini tərtib etdi, faktiki materialın dəqiqliyi ilə auditoriyaya uyğunlaşdırılaraq, müşahidə ilə müəyyən etdi ki, şəxsi inkişaf üçün insanın dəstəkləyici mühitə, cəmiyyətlə, qurumlarla münasibətlərə ehtiyacı var. Məqsədi cəmiyyətlə ahəngdar münasibət olduğundan bu anlayışların vətəndaş baxışlarında da öz əksini tapacağına inandığını bildirib.** |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi;<br>• hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı gender faktlarını və hadisələrini tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br>İşində ardıcıl olaraq **insan ehtiyaclarından biri - aidiyyət hissi və şəxsi inkişaf arasındakı əlaqəni təqdim edir. Sosial-emosional bacarıq çatışmazlığı amili tənqidi şəkildə nəzərdən keçirilir, müxtəlifliyin qəbulu ilə insanın dünyagörüşü arasında əlaqə göstərilir. Qlobal vətəndaşların məsuliyyət sahəsi, insan ehtiyaclarının ödənilməsi ilə ahəngdar əlaqələrin formalaşması arasında əlaqə göstərilir. Sosial əlaqələrin insanın fərdi inkişafına təsiri. Ətraf mühitin və medianın şəxsiyyətin inkişafına təsiri nəzərdən keçirilir, aidiyyat hissi ilə məsuliyyətin bölüşdürülməsi arasında əlaqə, davamlı inkişafın aspektləri ayrılır.** |
| **Multistruktur səviyyə** | Şagirdin bir neçə assosiasiyası var, cəmiyyət haqqında danışdıqda aidiyyat hissini adlandırır, amma Altməsələ və anlayış/əsas təsəvvürlər arasında yanaşmaları görə bilmir. Şagirdin işində bir neçə mühüm aspekt adlandırılsa da, bu aspektləri strukturda birləşdirə bilmir. |

| | |
|---|---|
| Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | |
| **Unistruktur səviyyə**<br><br>Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | Şagirdin öyrənilən məsələ ilə bağlı müzakirəsi açar sözlər/başlıqlar üzərində sadə və məntiqi refleksiya ilə məhdudlaşır. Tapşırıqda bir aspekt düzgün qeyd olunub (**məsələn, həvəskarlıq**), lakin məzmundan kəsilmişdir və inkişaf etmir. |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir. Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 11.**

**Dəvətnaməni necə hazırlamaq olar?**

Dəvətnamə məktubundan biznes tərəfdaşını təqdimata, konfransa, şam yeməyinə və ya digər tədbirə dəvət etmək üçün istifadə olunur. İsmarıcın üslubu nəzakətli olmalı, bütün rəsmiyyətlərə riayət etməlidir, jarqon formalarından istifadə yolverilməzdir.

Məktubun strukturu

Dəvətnamə məktubu uzun olmamalı, onda ən zəruri məlumatlar və nəzakətli ifadələr olmalıdır (“Sizi görüşə dəvət etməkdən məmnunuq”).

İş adamları vaxta qənaət edir, ona görə də bu amilə diqqət yetirin.

Salamlaşma vacibdir, dəvət nəzakətli olmalıdır, tədbirin adı və yeri göstərilməlidir.

Bizim halda, növbəti abzas məhz tədbirin məqsədinə və adresatdan gözləntilərinizə həsr olunmalıdır. (Niyə onun xeyriyyəçiliyinizə dəstəyinə ümid edirsiniz? Niyə düşünürsünüz ki, o, məsələn, kasıb uşaqların taleyi ilə maraqlanır).

Bundan sonra tədbirin qaydaları və onların hazırlanmasının əsasları ilə tanış olun.

Müxtəlif menyu və əyləncə proqramına işarə edin.

Sonda siz ümid edirsiniz ki, birlikdə bu xoş tədbirdə uşaqların həyatını asanlaşdıra bilərsiniz.

Qlobal vətəndaşın məsuliyyəti ilə paylaşdığı üçün əvvəlcədən təşəkkür də edə bilərsiniz.

Sağollaşırsınız.

Şəxsiyyətinizi (təşkilatın adı və əlaqə məlumatı) qeyd etdiyinizə əmin olun.

**Əlavə 12**

**Dəvətnamə - nümunə!**

Hörmətli Maykl! David! Helen! Emma!

Sizi salamlayıram və məmnuniyyətlə 20 aprel 2022-ci il tarixində Nyu Yorkun .... mehmanxana restoranında saat 18:00-dan 21:00-dək keçiriləcək beynəlxalq xeyriyyə tədbirinə dəvət edirəm.

Tədbirimiz 15 ölkədən çox hörmətli bir cəmiyyəti qəbul edir. Bir çox digər fəzilətlərlə yanaşı, bu insanları qlobal vətəndaşlıq hissi var və dünyanın bir çox ölkələrində insanların yoxsulluqdan əziyyət çəkdiyi problemlərə məsuliyyətli münasibət birləşdirir. Evsiz və ac uşaqlar xüsusi qayğıya ehtiyacı olan qrupu təmsil edir. Yaranmış COVID vəziyyəti onların həyatını daha da çətinləşdirib.

Siz, qlobal problemlərin həllində böyük təcrübəyə malik olduğunuza görə, dəvət olunan cəmiyyətin xüsusi üzvüsünüz. Əminik ki, bu dəfəki tədbirimizə həyat yoldaşınızla gələcəksiniz.

Görüşün işgüzar hissəsi saat 18:00-da başlayacaq və uşaq rəsmlərinin xeyriyyə auksionuna həsr olunacaq. Uşaqlar həsrətində olduqları əşyaların şəklini çəkiblər. Kimi üçün ev, kimi üçün dondurma, kimi üçün bir tikə çörək... Dünyanın onlara borcu var.

Axşam saat 19:00-da şam yeməyinə keçəcəyik.

Şam yeməyi birinci zalda olacaq,

təşkilatın bəzi təfərrüatlarını sizinlə bölüşməyi özümüzə borc bilirik:

Şam yeməyi müxtəlif cəmiyyəti bir araya gətirəcəyi üçün demokratik yanaşmaya üstünlük verdik və geyim tərzi sərbəst olacaq.

Sizi xatırlatmağa ehtiyac yoxdur, lakin tədbirin hər bir iştirakçısı toplanmış müxtəlif cəmiyyətə hörmət və anlayışla yanaşmalı, düşmənçilik və aqressiv sözlərdən istifadə etməməli, duyğu və hərəkətləri idarə etməyə borcludur.

Menyu və musiqi proqramımız sürprizlərlə dolu olacaq, çünki xidmətlərimiz fərdi şəkildə qonaqların sevimli yeməklərini və musiqilərini öyrənmişdir. Sizə və həyat yoldaşınıza sürprizimiz də var!

Bunlar sadəcə xırda şeylərdir, əsas isə bizi maraqlandıran və həmişə olduğu kimi sizə ümid etdiyimiz böyük işdir!

Məktubu oxumağa vaxt ayırdığınız üçün təşəkkür edirik.

Tezliklə görüşənə qədər!

"Daha Yaxşı Dünya naminə" təşkilatının adından ...

Əlaqə məlumatı:

Ünvan: